www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet 28 noyabr 2014-cü il  Cümə № 291 (6000)  Qiymәti 40 qəpik


**Xəbər**

## Polis rəisinin öldürdüyü iddia edilən qadınla bağlı yeni məlumatlar

yazısı səh.11-də

**Gündəm**

### "Yıxılmaq lüksüm olmadığı üçün yıxılmamışam"



"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu 6000-ci say ərəfəsində "5+1" layihəsinin ilk qonağı oldu

yazısı səh. 8 və 9-da

### Gülər Əhmədovaya YAP-dan "yox" cavabı

yazısı səh.10-da

### Hakimiyyətlə dialoq təşəbbüsü müxalifət düşərgəsində gərginlik yaradıb

yazısı səh.12-də

### Ukrayna Ali Radası sədr və baş nazir seçdi

yazısı səh.2-də

### AXCP-dəki həbslərin şok pərdəarxası

yazısı səh.6-da

### Ermənistan yeni Qarabağ savaşına hazır deyil

yazısı səh.13-də

### Həyatına təhlükə olan məhbuslara dair son xəbər

yazısı səh.12-də

### Müdirindən şikayət edən YAP üzvünü ölümlə hədələdilər

yazısı səh.15-də

### Nazirdən "Hafka"nı aşağılayan sözlər

yazısı səh.11-də

### Vurğun Əyyub da Müsavatdan çıxarıla bilər

yazısı səh.5-də

### Qaraçuxur məscidindəki təxribatla bağlı yeni təfərrüat

yazısı səh.11-də

### Deputatdan televiziyalara sərt ittihamlar

yazısı səh.11-də

## Leyla Yunusun həbsi ev dustaqlığı ilə əvəz ediləcəkmi?

# AZƏRBAYCANA QARŞI "MAQNİTSKİ QANUNU" TƏHLÜKƏSİ

Hüquq müdafiəçisinin səhhətinin pisləşməsi ölkəmizə qarşı sanksiya tələblərini yenidən gündəmə gətirə bilər; Leyla Yunusla bağlı məsələ dövlət rəhbərliyinin təcili müdaxiləsini tələb edir; rusiyalı hüquqşünas da vaxtında həkim yardımı olunmadığından vəfat etmişdi




yazısı səh.6-da

## Əli Kərimli və əhatəsi "PİN"-i niyə ölümünə müdafiə edir - tam ifşa

"PiN" təşkilatının qurucusu: "Dağlıq Qarabağ müstəqil dövlət olmağa layiqdir"; "Azadlıq" qəzetinə və onun yalanlarına cavab

yazısı səh.7-də



### Hüquq müdafiəçisi Ziya Məmmədovun villalarının yerini açıqladı

yazısı səh.10-da



Qamət Süleymanov

### Sələfilərin lideri yandırılan məsciddən danışdı

yazısı səh.12-də



Azay Quliyev:

### "Bu gün daxildə dialoqun olması kimlərisə narahat edir"

yazısı səh.4-də

## Nekroloq



Müsavat Partiyasına ağır itki üz verib.

Müsavat Partiyasının Naxçıvan şəhər təşkilatının üzvü, qocaman müsavatşı Saleh Heydər oğlu Haqverdiyev vəfat edib. Saleh Heydər oğlu Haqverdiyev 1937-ci ildə Haxçıvan Müxtar Respublikası Babək rayonu Sirab kəndində anadan olub. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirərək mühəndis-mexanik ixtisası alan S.Haqverdiyev Naxçıvan Muxtar Respublikasında bir sıra mühüm vəzifələrdə çalışıb.

1992-ci ildə Müsavat Partiyası Azərbaycanda bərpa edildikdən az sonra S.Haqverdiyev Müsavat Partiyasına üzv olub. İstər sıravi müsavatçı, istərsə də Müsavat Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının sədri olduğu illərdə müsavatçılıq ideyalarının Naxçıvan Muxtar Respublikasında yayılmasında, demokratik islahatlar uğruna mübarizədə mühüm rol oynayıb. Özünün təmənnasız fəaliyyəti və fədakarlığı ilə onu tanıyanların dərin hörmətini qazanıb.

Fədakar müsavatçı, qayğıkeş ailə başçısı Saleh Heydər oğlu Haqverdiyevin əziz xatirəsi bütün müsavatçıların və onu tanıyanların qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

## Leyla Yunus müayinələrdən imtina edir?



**"Leyla Yunusun səhhəti stabildir. Həkim nəzarətindədir və səhhətində hər hansı təhlükə yoxdur". Bunu APA-ya açıqlamasında Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəis müavini İftixar Qurbanov deyib.**

İ. Qurbanov bildirib ki, L. Yunusun qaraciyəri ilə bağlı müayinələr aparılıb: "Aparılan müayinələr qaraciyərin funksiyasının normal olduğunu göstərir. Buna baxmayaraq, iki-üç gündür Leyla xanıma yenə də tibbi xidmətlər və müayinələr təklif olunur. Lakin o, bundan imtina edir".

Qeyd edək ki, L. Yunus Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət), 178-ci (Dələduzluq), 192-ci (Qanunsuz sahibkarlıq) və digər maddələr üzrə təqsirləndirilir. Hazırda Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeliyində olan Bakı İstintaq Təcridxanasında saxlanılan L. Yunusun vəkilləri onun səhhətinin pisləşməsi barədə mətbuata açıqlamalar veriblər.

## Qızıl niyə qızıl qiymətinə deyil?

**Dünya bazarında qızıl son 4 ildə ən aşağı qiymətə təklif edilir. Qızılın qramı 38 dollar, unsiyası 1200 dollardır. İqtisadçı ekspert Vüqar Bayramov "Media forum" saytına deyib ki, 2008-ci ilin qlobal maliyyə böhranı zamanı qızılın qiymətində artım qeydə alınan qızılın 2013-cü ildən ciddi dəyər itirəcəyi öncədən bilinirdi: "Böhrandan sonrakı mərhələdə tələbin azalması iqtisadi qanunlara uyğundur. 2008 və 2009-cu illərdə böhranın nəticələrini və eləcə də müddətini proqnozlaşdırmaqda çətinlik çəkən investorlar o zaman öz pullarını qızılda saxlamağa üstünlük verdilər.**

Hazırda dünya bazarında inflyasiya minimuma enib, səhmlərin qiymətləri isə artmağa başlayıb və dollar güclənir. Bütün bunlar qızılın investisiya baxımından cəlbediciliyini azaldır. Eyni zamanda 2008 və 2009-cu illərdə ehtiyatlarının bir qismini qızıla çevirən ölkələrdə, o cümlədən Çində, Hindistanda qızıl külçə və sikkələri bazara çıxarıblar ki, bu da qızıl təklifinin artmasına səbəb olub.

Azərbaycanda son bir ildə qızılın qiymətinin 5 faiz aşağı düşməsi ondan yığım vasitəsi kimi istifadə olunmaması ilə bağlıdır. Əvvəllər vəsaitin yığım vasitəsi kimi qızıla cəlb edilməsi rentabelli idisə, indi rentabelli deyil. Çünki qızılın alış və satış qiymətləri arasında kəskin fərq var. Bundan başqa, dünyada və Azərbaycanda qızıla zinət əşyası kimi maraq azalıb".

## "İlkin Quliyev heç bir xüsusi əməliyyata cəlb olunmayıb"

**"KİV-də özünü "baş leytenant" və "Silahlı Qüvvələrin Xüsusi Təyinatlı Ordusunun kəşfiyyatçısı" kimi təqdim edən Quliyev İlkin Hüseyn oğlu 13.01.2007-ci il tarixində Füzuli Rayonu Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılıb və N saylı hərbi hissədə minaatan batareyasında əsgər kimi xidmət edib.**

10.04.2007-ci il tarixdən 27.06.2007-ci il tarixədək müxtəlif hərbi tibb müəssisələrinin psixiatriya bölmələrində "Şəxsi keyfiyyətlərinin aksentuasiyası. Sol saidin ön səthinin dərin çapıqları" diaqnozu ilə müalicə alıb".

Bu barədə Müdafiə Nazirliyi xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib.

"Hərbi hissədə cəmi dörd ay xidmət edən əsgər İ.Quliyev heç bir xüsusi əməliyyata cəlb olunmayıb və güllə yarası almayıb.

2010-cu ildə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun nəşinin düşmən tərəfindən geri alınması ilə bağlı tapşırığı icra edən hərbiçilərdən biri olması ilə bağlı yalan iddiasına gəlincə isə onun xidmət etdiyi dövrlə Mübariz İbrahimovun şəhid olması hadisəsi arasında 3 il zaman fərqini görməmək də mümkün deyil.

Bu kimi məlumatları ictimailəşdirməzdən əvvəl Müdafiə Nazirliyi ilə dəqiqləşdirilməsinin zəruriliyini bir daha KİV-in diqqətinə çatdırırıq".

# Qurultaydan sonra Müsavata yüz nəfərə yaxın yeni üzv qəbul olunub

**Müsavatın sentyabrın 27-də keçirilmiş VIII qurultayından sonra 14 nəfər partiya ilə vidalaşıb. Bəs bu iki ay ərzində Müsavat Partiyasına üzv olanlar varmı? Ümumiyyətlə, Müsavat Partiyası üzvlərinin sayı nə qədərdir?**

Müsavatın təşkilat şöbəsinin müdiri Razim Əmiraslanlı "Media forum" saytına deyib ki, partiyanın on minlərlə üzvü var: "Lakin üzvlərin sayı hələ tam dəqiq hesablanmayıb. 27 sentyabr qurultayından sonra isə partiyaya yüz nəfərə yaxın yeni üzv qəbul olunub".

Partiyanın Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri Sevinc Hüseynova oktyabrın 29-da "Media forum" saytına bildirmişdi ki, rayon təşkilatlarında üzvlər dəqiq siyahıya alınacaq.

Müsavat Partiyası 1911-ci ildə yaradılıb. Partiyanın qurucusu və ilk başqanı Məhəmməd Əmin Rəsulzadə, ikinci başqanı Mirzə Bala Məmmədzadə, üçüncü başqanı Kərim Odər, dördüncü başqanı Məhəmməd Azər Aran, beşinci başqanı İsa Qəmbərdir.

Hazırda Müsavata 27 sentyabr qurultayında başqan seçilən Arif Hacılı rəhbərlik edir.

Müsavat Partiyası sovet hakimiyyəti illərində mühacirətdə fəaliyyət göstərib, 1992-ci ilin noyabrında Bakıda bərpa olunub.

MÜSAVAT

## Cəbhəçi niyə tutulub?

**Daxili İşlər Nazirliyi AXCP Rəyasət Heyətinin üzvü Asif Yusiflinin həbsi ilə bağlı məlumat yayıb.**

Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumatda bildirilir ki, vətəndaş Fəridə Zülfüqarovanın 7700 manat pulunun dələduzluq yolu ilə ələ keçirilməsi faktı üzrə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində başlanmış cinayət işi üzrə istintaqdan yayınan Bakı şəhər sakini Asif Yusifov saxlanılıb.

O, Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla törədilən dələduzluq) və 320.1-ci (rəsmi sənədləri saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə məhkəmə tərəfindən barəsində həbs-qətimkan tədbiri seçilib.

## Saakaşviliyə qarşı yeni ittihamlar irəli sürülüb

**Gürcüstanın Baş Prokurorluğu sabiq prezident Mixail Saakaşviliyə bankir Sandro Qirqvilianinin qətli ilə bağlı cinayət işi üzrə ittihamlar irəli sürüb.**

APA-nın TASS-a istinadən verdiyi məlumata görə, prokurorluğun bəyanatında Saakaşvilinin S. Qirqvlianiyə qarşı törədilmiş cinayətdə günahkar olduğu bildirilir.

"İnsan haqları üzrə Avropa Məhkəməsinin tövsiyələri əsasında aparılmış araşdırma zamanı törədilmiş cinayətin sistem xarakterli olduğu müəyyən edilib", - deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, ötən ay Gürcüstanın sabiq baş naziri Vano Merabişvili S. Qirqvlianinin qətli ilə bağlı cinayət işi üzrə 3 il həbs cəzası alıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## DİN-dən təkzib



**Daxili İşlər Nazirliyi (DİN) Bakıda polis rəisinin öldürülməsi barədə yayılan məlumatlara münasibət bildirib. Nazirliyin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov APA-ya açıqlamasında bu barədə yayılan məlumatların yalan olduğunu deyib: "Binəqədi rayonu ərazisində noyabrın 27-də nəinki qətl hadisəsi, ümumiyyətlə, heç bir hadisə baş verməyib. Polis əməkdaşının qətlə yetirilməsi barədə bəzi kütləvi informasiya vasitələrində yayılan məlumatlar kökündən yalandır".**

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov da bildirib ki, Binəqədi Rayon Polis İdarəsinin 40-cı polis bölməsinin rəisi Faiq Bədəlovun qətlə yetirilməsi ilə bağlı bəzi KİV-də yayılan xəbərlər həqiqəti əks etdirmir: "Bu məlumatlar yalandır və tərəfimizdən qəti şəkildə təkzib olunur".

Eldar Sultanov həmçinin yalan və dəqiqləşdirilməmiş məlumatların yayılmasının yolverilməzliyi barədə KİV nümayəndələrinə xəbərdarlıq edib.

## Rusiyanın OPEC ümidləri dəfn olundu

### Qurumun Vyana sammitində xam neftin hasilatının azaldılması təklifləri keçmədi; "qara qızıl" isə ucuzlaşmaqda davam edir...



**Noyabrın 27-də Vyanada OPEC ölkələrinin növbəti sammiti öz işinə başlayıb. Budəfəki sammit xam neftin dünya bazarında qiymətinin sürətlə düşməsi fonuna təsadüf edirdi. Bu üzdən ucuzlaşmadan ən çox əziyyət çəkən dövlətlərdən biri kimi Rusiya ümidli idi ki, 12 OPEC ölkəsi hasilatın böyük həcmdə azaldılması ilə bağlı ortaq qərara gəlib qiymətin normal həddə qərarlaşmasına kömək edəcək.**

Bir sıra ekspertlər isə hasilatla bağlı kvotaların azaldılmayacağı təqdirdə neftin qiymətinin daha da enərək 1 barel üçün 60 dollar ola biləciyini təxmin edirdilər. Lakin maraqlar müxtəlif olduğundan və toqquşduğundan anlaşmanın əldə ediləcəyi çox qəliz hesab edilirdi.

Dünənki sammitdə Rusiyanın (OPEC üzvü deyil) hasilatın azaldılacağına olan ümidləri, gözlənildiyi kimi, boşa çıxıb. "Dünya neft bazarında hazırkı situasiya böhranlı deyil, bazar bundan da aşağı qiymələri yaşayıb". Musavat.com-un məlumatına görə, OPEC-ə üzv ölkələrin energetika nazirləri sammitdə əsasən bu mövqeyə kökləniblər və bazar iştirakçılarını tələş keçirməməyə çağırıblar.

"Biz tələşlanmağa hazırlaşmırıq. Bu, birinci dəfə deyil. Bu, bizi tələşlandıracaq böhran deyil... Biz bundan da aşağı qiymətlər görmüşük. Yekun etibarilə bazar özü sabitləşəcək. Qiymətlərin düşməsi uzun müddət davam edə bilməz. Biz sürətli qərarlarda maraqlı deyilik. Çünki bilirik ki, bunlar uzun sürməyəcək", - deyə Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Suxail Məhəmməd əl-Mazruey bildirib. Bununla belə, o, ümid etdiyini söyləyib ki, OPEC ümumən bazar üçün yaxşı olacaq qərar qəbul edəcək.

Qətərin neft və energetika naziri Məhəmməd bin Saleh əl-Sad da onunla razıdır. Onun sözlərinə görə, OPEC üzvlərui arasında "yüksək razılıq səviyyəsi" müşahidə edilir. "Biz bazarda böhran görmürük" - əlavə edib qətərli nazir.

Qeyd edək ki, az öncə kartelin başçısı Abdulla əl-Badri də analoji çağırış edəmiş, ciddi tələş üçün əsas olmadığını söyləmişdi. Dünənki tədbirdə də OPEC-in xam neftin hasilatının ciddi həcmdə azaltmaq barədə qərar verməyəcəyinə şübhə edənlər yox idi. "Neftin qiymətinin qalxması ilə bağlı arzular OPEC-in bəyanatları ilə dağıdıldı. İndi daha aşağı qiymətlərə hazırlaşmaq lazımdır". Bunu isə analitik Deni le Enq bildirib.

Sammit başladığı gün isə Brent nefti bir az da ucuzlaşaraq 75.81 dollara, WTİ markalı neft isə 72 dollara düşüb.

❑ Siyasət şöbəsi

## İlham Əliyev Koreyanın baş nazirini qəbul edib

**Noyabrın 27-də prezident İlham Əliyev Koreya Respublikasının baş naziri Çanq Honqvonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. İlham Əliyev deyib ki, səfərin ikitərəfli münasibətlərə yeni impuls verəcəyinə əmindir:**

"Biz əlaqələrimizin inkişafından razıyıq. Bu əlaqələr çox dinamik irəliləyir, getdikcə yeni sahələri əhatə edir və inkişaf üçün yaxşı potensiala malikdir. Siyasi səviyyədə möhkəm əlaqələr iqtisadi sahədə, biznes sahəsində yaxşı nəticələr əldə olunmasına kömək edir. Sizin ölkənizin əksər şirkətləri Azərbaycanda müxtəlif layihələrdə fəal iştirak edirlər. Həmçinin əminəm ki, sizin səfəriniz ikitərəfli münasibətlərimizə yeni təkan verəcək və faydalı olacaq".

**Koreyanın baş naziri qeyd edib ki, o da səfərinə böyük önəm verir:** "Çünki Azərbaycan Qafqaz mədəniyyətinin, həmçinin Xəzər regionunun mərkəzidir. Azərbaycan Sizin parlaq rəhbərliyiniz altında möhkəm siyasi sabitlik əsasında gur inkişaf yolu keçir. Sizin prezidentliyiniz dövründə ölkənizin gəlirləri 10 dəfə artıb və bunu Azərbaycanın möcüzəsi hesab etmək olar. Buna görə də Sizə böyük hörmətimi bildirmək istərdim. Biz diplomatik münasibətlərimizi 20 il əvvəl qurmuşuq. Bu, qısa müddətdir. Buna baxmayaraq, bizim münasibətlərimiz sürətlə inkişaf edir".

## Ali Radaya sədr və baş nazir seçildi

**Ukrayna parlamentinin 27 noyabr iclasında Ali Radanın sədri seçilib. "Mediaforum" saytı xəbər verir ki, bu postu Vladimir Qroysman tutub. Onun namizədliyinin lehinə 359 deputat səs verib.**

Vladimir Qroysman hökumətdə baş nazirin müavini, regional inkişaf, tikinti və mənzil-kommunal təsərrüfatı naziri postunu tuturdu. O, oktyabrın 26-da keçirilmiş növbədənkənar parlament seçkisində Poroşenko blokundan deputat seçilib. Ukrayna Ali Radası noyabrın 27-də prezident Pyotr Poroşenkonun təqdimatına baxaraq Xalq Cəbhəsinin lideri Arseni Yatsenyuku baş nazir postuna təsdiqləyib. "Media forum" saytı bildirir ki, Arseni Yatsenyukun namizədliyinin lehinə 341 deputat səs verib.

Arseni Yatsenyuk əvvəlki hökumətdə də baş nazir postunu tuturdu.

1974-cü ildə anadan olan Arseni Yatsenyuk hüquqşünas, iqtisadçı, siyasətçidir. İqtisadiyyat naziri (2005-2006), xarici işlər naziri (2007), Ali Radanın spikeri (2007-2008) postlarını tutub. Bu il fevralın 27-də baş nazir təyin olunub.

«AzərTAc» xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında infrastruktur, energetika, inşaat, informasiya texnologiyaları, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Bunlar nə həqiqətin peşindədirlər, nə siyasi məhbuslar veclərinədir. Bunlar söymək, şərləmək və nifrətlərini qusmaq üçün fürsət gəzirlər. İllərdir bu cür davam edir. Söyürlər, yamanlayırlar, böhtan atırlar və... axırda da cavablarını alıb susurlar. Bir müddət keçir, yenə başlayırlar.**

**Azər AYXAN**



# Əli Kərimlinin barbarları...

Bir qəzet redaktorunun hansısa beynəlxalq tədbirdən hazırladığı reportaja bu cür reaksiyanın verilməsi, günlərlə müzakirə olunması normal deyil. Batumidəki konfrans Azərbaycan ictimai-siyasi mühitinin hansısa kəsimi üçün maraqlı ola bilər. O da epizodik. Amma bütövlükdə cəmiyyəti o cür tədbirlər əsla maraqlandırmır. Heç Rauf Arifoğlu həmin konfransa dəvət edilməsəydi, o qalmaqalı görüb reportaj yazıb sayta yollamasaydı, kimsənin nə konfrans haqda məlumatı olacaqdı, nə də ordakı mübahisəni eşidəcəkdi. Beş-on adamdan başqa təbii ki, bu mövzu heç kimə maraqlı görünməyəcəkdi.

Fəqət Rauf bəy yazdı, skandalı ictimailəşdirdi, bütün tərəflər bir kənarda qaldı, Azərbaycan siyasətinin, QHT və jurnalist cameəsinin barbarları düşdülər ortalığa. Adamı ilişdirmək, tutdurmaq üçün üzünü cıran, özünə xəsarət yetirən küçə qadını stilində şüvən qopardılar. "Yeni Müsavat" qəzetini, onun rəhbərliyini, kollektivini ən ağır ittihamlara, təhqirlərə məruz qoydular.

Bu prosesin başında dayananlar var. Sosial şəbəkədə təsirlərində saxladıqları cahilləri üstümüzə qısqırdıb bizi söydürürlər növbəti dəfə.

***

Müsavat adından bütün təsisatlara *(dəxli yoxdu, bu, qəzetdi, ya partiya)* bolşevikcəsinə nifrət bəsləyən Əli Kərimli əlinə düşən fürsəti fövtə vermək istəmir. Rəhbərlik və nəzarət etdiyi "Azadlıq" qəzetində sosial şəbəkələrdə nə qədər söyüş-təhqir, şər-böhtan var, hamısını çap etdirir. Ancaq qəzetdə bizim bir cümləlik mövqeyimizi vermirlər. Bu, AXCP sədrinin açıqca bizə olan qərəzidir. Ə.Kərimli o qədər kiçilib, balacalaşıb ki, kompüter arxasında əyləşib haqqımızda kim nə yalan yazırsa "copu past" edib yollayır "Azadlıq"a. Onlar da çap edirlər. İndi nə edək? Bizdəmi bu siyasi liliputun səviyyəsinə düşək? Əhəd Abıyevin, Hafiz Hacıyevin onun barəsində indiyədək dediklərini "ardı var" qeydi ilə qəzetdə çap edək? Həmçinin onların Ə.Kərimli barədəki çıxışlarının video xülasəsini hazırlayıb facebookda, saytlarda yerləşdirək? Yəqin onda bu əxlaq və mənəviyyat yoxsulunun ağlı gələr başına.

Ə.Kərimli fərqli fikri görməzdən gəlir, amma özü iqtidarı buna görə qınayır. Hakimiyyətdən ədalət tələb edir, fəqət özü bu ölkənin ən qərəzli adamlarındandır. Hökumətin xalqın malını taladığını deyir, büdcənin düzgün bölüşdürülməməsi haqda bəyanat verir, amma özünün tamahı qılıncdan kəskindi. Bir neçə il öncə 30 min avroya görə nə biabırçılıqdan çıxdı. İki qardaşı düşmən etdi bir-birinə.

Sən necə demokratsan, necə müxalifətçisən, necə partiya sədrisən ki, özünə sərf etməyən bircə cümləni qəzetdə buraxmırsan?! Bir qəzet redaktorunu, bir kollektivi söydürürsən, amma qarşı tərəfdən bir cümlə vermirsən. Bu əxlaqın, bu mənəviyyatın sahibi Azərbaycana rəhbərlik etmək iddiasına düşüb. Özünü, emosiyasını, hikkəsini idarə edə bilməyən, həyatını nifrət və fıruldaq üzərində quran, vaxtilə liderini, cəbhədaşlarını, ölkəsinin maraqlarını satan bir siyasi dələduz, bu xalqa, bu ölkəyə rəhbərlik etmək istəyir... Hansı haqla? Hansı üzlə?

***

Əfqan Muxtarlı adında bir məxluq var. Bizi onun diliylə söydürür. Hazırda Əfqan Ə.Kərimlinin ən yaxın müttəfiqidir. "Taylı tayını tapmasa günü ah-vayla keçər" - deyib atalar. Yaxşı tapışmısınız. 2009-cu ilin yayından - Əfqan "Yeni Müsavat"dan qovulandan bu yana Rauf Arifoğlunu, məni, "Yeni Müsavat"ı, kollektivin ayrı-ayrı üzvlərini ən ağır ifadələrlə təhqir edib. Bir dəfə də olsun qəzetdə cavab verməmişik. Çünki buna layiq deyil. Amma hər dəfə ona tribuna verib bizi söydürür Ə.Kərimli. Əfqanla Hafiz Hacıyevin nə fərqi var ki. İkisi də küfrbazdı. İkisi də sifarişlə söyüş söyür.

Əli Kərimlidən gözlənilən di bu. Amma adama təsir edən başqa məsələlər var. Bəzi müsavatçı bacı-qardaşlarımız son günlər facebookda Əfqanı müdafiə edən statuslar yazırlar. Guya biz onun barəsində haqsızlıq edirik. Bu adam 5 ildən çoxdur bizi açıq şəkildə söyür, təhqir edir. Niyə bircə dəfə buna etiraz etmədiniz? Səsinizi çıxarmadınız? Amma başqa bir saytın, "Yeni Müsavat"a dəxli olmayan bir jurnalistin araşdırma yazısını dərc edən kimi "Əfqan məsumdur" dediniz, yazdınız. Onun bizi söyməsinin müqabilində biz sadəcə faktlara söykənən bir yazını təkrar çap etmişik. Vəssalam. Nə yazılıb o yazıda? Yazılıb ki, Ə.Muxtarlı Armen Karapetyan adlı erməni jurnalistlə birlikdə yazılar yazıb. Bu faktı inkar edən varmı? Axı o, özü bunu təsdiq edir. Ermənilə imzadaşlıq etmək, iş yoldaşı olmaq, eyni mənbədən pul qazanmaq, qucaqlaşmaq, öpüşmək, yeyib-içmək olar, bu, normaldır, demokratiyadır, amma bir qəzetçinin şahid olduğu hadisə barədə rəhbərlik etdiyi qəzetdə yazı çap etdirməsi Vətənə, xalqa xəyanətdi? Ya da kiminsə əcnəbi təşkilata "ermənipərəst" deməsi bütün dəyərlərə ziddi sayılmalıdır?

***

**Azərbaycan onsuz da fərli ölkə deyil. Bir yandan da qaragüruhçular, siyasi barbarlar, "yarğısız infazçılar" bu ölkənin anasını ağladır. Nankorluq, yalan, nifrət, mənəvi korrupsiya da bir tərəfdən yeyib dağıdır ölkəni. Belə vəziyyətlərdə müxalifət meydana çıxır, ya hakimiyyətə iqtidar olur, ya ölkədəki situasiyaya. Amma bir iqtidara baxırsan, bir müxalifətə nəzər salırsan. Çaş-baş qalırsan. Sanki əkiz qardaşlara baxırsan...**

# Norveç lavaşı

**Zamin HACI**
zaminhaci@gmail.com



**Ermənilər bizim milli çörəyimiz lavaşı da oğurlamaq istəyirlər, deyilənə görə, YUNESKO-nun saytında bu haqda yazı soxuşdurublar. Guya lavaş milli erməni çörəyidir. Bizim Mədəniyyət və Turnik Nazirliyi isə dərhal işə başlayıb, oxlovu uzadıb YUNESKO-nun gözünü çıxardıblar, erməni yalanını ifşa ediblər.**

Lakin kimsə təzədən girib YUNESKO-nun saytına, görüblər nazirlik yalan danışır, orda yenə də yazı qalır ki, lavaş erməni çörəyidir. Vay-vay... Bəs nə oldu? O cür qələbəni qeyd eləmişdik, bütün millət hazırlaşırdı Əbülfəs Qarayevi Azadlıq meydanında atıb-tutsun (Axırıncı dəfə atanda tutmamaq da olardı).

Nazirliyin bu münasibətlə yarıgülməli, yarıağlamalı açıqlaması var, deyir YUNESKO-ya desant qrupu göndərmişik, onlar qayıtsın, sizə dəqiq məlumat veriləcəkdir. Bir növ, lavaşın millliləşdirilməsi haqda "xəbərlər həddən artıq şişirdilibmiş" - Mark Tven demişkən.

Mənim özümün mövqeyim oxuculara maraqlıdırsa, uşaq vaxtından sacda bişən yuxanın ləzzətini görmüş bir insan olaraq heç vaxt lavaşın milli çörəyimiz olmasına şübhə etməmişəm. Bunun elmi səbəbini də izah edə bilərəm.

Məsələ ondadır ki, lavaş, yuxa texniki baxımdan köçəri xalqlara aid bir çörəkdir. Çünki bunu sacda - daşınan çörəkbişirmə alətində hazırlayırlar. Təndir qurmaq lazım deyil, yolüstü harda bir dəstə çör-çöp tapdınsa, yığ sacın altına, bişir. Qurudulmuş lavaşı saxlamaq, daşımaq da daha uyğundur, nəinki qalın çörəyi. Türklər tarixən köçəri xalqlar olublar, əkinçilikdən çox heyvandarlıqla dolanıblar və sacda çörək bişirmək onlara daha uyğun idi. Ermənilərin könüllü, kültür (mədəniyyət) olaraq köçəriliyi haqda tarixdə məlumat yoxdur. Onlarda lokal - dağa-arana köçmək kültürü də olmayıb.

Uzun sözün qısası, çörəyimizi yedikləri bəs deyil, hələ oğurluq da eləyirlər. Eləsinlər, onsuz ədalət yerini tapacaqdır. Ermənilər bu məsələdə o qədər xəstədirlər ki, hətta əriyi də "erməni meyvəsi" kimi qeydiyyatdan keçirməyə cəhd edirlər *(Bu yoluxucu xəstəlik son illər bizə də keçir, misal üçün, narı Azərbaycan meyvəsi sayan xeyli adam var. Onlara necə deyəsən ki, dünya nar istehsalının böyük hissəsi Əfqanıstanın payına düşür? Çətindir. Heç Qafqazın az qala hər yerində bitən xarı-bülbülün "ancaq Şuşa "propiskası" söhbətini aradan qaldıra bilmirik)*.

Həmçinin mənə görə hazırkı dünyada belə proseslərin yeganə düzgün yolu iqtisadi uğurlardır. Sadə desəm, lavaş onu yaxşı bişirənin, satanındır. O cümlədən dolma. Əgər bu gün heç Bakının özündə yaxşı dolma bişirib satan restoran yoxdursa, bunun bizim xörək olduğunu kimə başa salaq? Yaxşı bişir, dolma sənindir. Çərənləmək yox, iş görmək lazımdır.

YUNESKO-nun namərdliyi bir az adamın ürəyini ağrıdır. Pulu bizdən alırlar, Heydər Əliyev Fondu indiyə qədər YUNESKO proyektlərinə xeyli neft pulumuzu axıdıb, ancaq təşkilat erməniperəst çıxdı. Çörəyimizin, lavaşımızın duzu yoxdur. Mən təklif edərdim YUNESKO-dan çıxaq. Qovaq nümayəndəsini. Mehriban Əliyeva da YUNESKO-nun xoşməramlı səfiri olmaqdan imtina eləsin. Ən azından, xəbərdarlıq olunmalıdır YUNESKO-ya. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Biz YUNESKO-nu sıxsaq, məcbur olub Tac Mahalı da bizim adımıza keçirdərlər. Prinsipcə, elə bizimdir, çünki türk Baburlar sülaləsi tikdirib.

Sonda iqtisadçı dostumuz Natiq Cəfərlinin facebook-da müzakirəyə çıxartdığı daha bir milli məsələ haqda. Norveç hökuməti bizim Təhsil Nazirliyinə 2 milyon avro qrant verib təzəlikcə, bu pul Azərbaycanda peşə təhsilinin inkişafına yönələcəkmiş. İndi Natiq bəy sual edir ki, xaricdən maliyyələşən qara qüvvədən biri də bizim Təhsil Nazirliyi olurmu? Doğrudan da, Norveç, görəsən, niyə bizim daxili işlərimizə qarışır? Ayıb olsun Norveçə!



# Orxan Zeynalovun hökmü qüvvədə qaldı

**"Mediaforum" saytı xəbər verir ki, noyabrın 27-si Rusiya Ali Məhkəməsi Azərbaycan vətəndaşı Orxan Zeynalova kəsilmiş 17 il həbs qərarını qüvvədə saxlayıb.**

Orxan Zeynalov 2013-cü il oktyabrın 10-da Rusiya vətəndaşı Yeqor Şerbakovu öldürməkdə ittiham olunub. 2014-cü il iyul ayında Moskva Şəhər Məhkəməsi Orxan Zeynalova 17 il həbs cəzası kəsib. Orxan Zeynalov Yeqor Şerbakovun atasına 3 milyon rubl təzminat da ödəməlidir.

# Vəzifəli şəxslərə cinayət işi qaldırılıb

**Xətai Rayon Məşğulluq Mərkəzinin vəzifəli şəxslərinin qanunazidd hərəkətləri barədə material Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. Xəbəri "mediaforum" saytına Baş Prokurorluğun mətbuat xidməti verib.**




Bildirilir ki, araşdırmalar zamanı Xətai Rayon Məşğulluq Mərkəzinin vəzifəli şəxslərinin 2012-2013-cü illərdə ayrı-ayrı şəxslərin adlarına saxta əmək kitabçaları tərtib etdiyi, əmək haqqı barədə arayışların müxtəlif şəxslərin adlarına saxtalaşdırıldığı, işsizlik müavinətlərini düzgün hesablamadığı aşkara çıxıb. Qanunsuzluqlar nəticəsində ümumilikdə 137 min 853 manat məbləğində qanunsuz ödənişlər aparılmaqla mənimsənilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ) və 313-cü ( vəzifə saxtakarlığı ) maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

**Son günlərin ən çox müzakirə predmetinə çevrilən mövzusu Gürcüstanın Batumi şəhərində keçirilən forumda baş verən məlum qalmaqaldır.Qəribəsi odur ki, keçirilən tədbirdə ermənilər və onlara pərəstiş edənlər Azərbaycan dövlətini hədəfə aldığı halda,Azərbaycan daxilində və xaricindəki bəzi qüvvələr də tədbiri işıqlandıran "Yeni Müsavat"ı nişangaha çevirdilər, yersiz ittihamlar səsləndirdilər. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dəstəyi Şurasının sədri, deputat Azay Quliyevlə qəzetimizin elə mövzumuzun ruhuna uyğun olan "Aktual" rubrikasında son baş verənlərdən, eyni zamanda Azərbaycanı təhdid edən siyasi məhbus probleminin həlli, islahat gözləntiləri və s. mövzulardan danışdıq. Müsahibimizdən Çexiyanın qalmaqallı təşkilatı haqda sensasion fikirlər də eşitdik...**

# "Bu gün daxildə dialoqun olması kimlərisə narahat edir"

## Azay Quliyev: "Biz vətəndaş cəmiyyətini narahat edən məsələlərin daxili müstəvidən kənara çıxmasının tərəfdarı deyilik"

***- Azay bəy, Batum Forumundan ortaya çıxan qənaətiniz necədir? Forumda və ondan sonra baş verənlər sizdə təəccüb doğurdumu?***

- Açığı, təəccüblü olmadı. Çünki bu hal yeni deyildi, bunun bir neçə dəfə şahidi olmuşduq. Bilirsiniz ki, mən "Avronest" Parlament Assambleyasının Vətəndaş cəmiyyəti,elm, təhsil və sosial məsələlər üzrə komitənin sədr müaviniyəm. Bizim komitədə bir neçə dəfə forumun nümayəndəsi tərəfindən əvvəllər də ölkəmizə qarşı əsassız iddilarla bağlı müəyyən cəhdlər edilmişdi və onun da qarşısı dərhal alınmışdı .Artıq mən bu halların hardan qaynaqlandığını, kimlər tərəfindən təşviq edildiyini bilirdim. Batumidə bütün ölkələrdə vətəndaş cəmiyyətini narahat edən məsələlər gündəmə gətirilsəydi, bu stend bütün ölkələrə eyni dərəcədə şamil edilsəydi, bəlkə də bunu vətəndaş cəmiyyətinin həmrəyliyi kimi hardasa qəbul etmək olardı. Baxmayaraq ki, onların dedikləri mütləq həqiqəti ifadə etməsə də buna demokratiya naminə daha tolerant yanaşardım.Amma gördüyünüz kimi, belə olmadı. Çünki məqsəd tamam başqa idi.

***- Nədən belə oldu? Bu nəticəni doğuran səbəb nədir?***

- Bu gün Ermənistan bütün diplomatik cəbhədə özünün işğalçılıq siyasətinə don geyindirmək və qanunsuz əməllərindən diqqəti yayındırmaq üçün Azərbaycanın üzərinə yeni bir informasiya kampaniyası başlayıb. Bu kampaniyanın əsas devizi insan haqlarıdır. Bu gün özünün siyasi rəqiblərini fiziki baxəmdan zərərsizləşdirən, dinc nümayişə çıxan vətəndaşlarını güllələyib öldürən, 1 milyondan çox azərbaycanlını elementar hüquqlarından məhrum edən, ərazimizin 20 faizini işğalda saxlayan Sarkisyan rejimi çox qəribədir ki, nə qədər parodoksal görünsə də, insan haqlarının carçısı kimi çıxış edir və bütün mümkün tribunalardan istifadə edərək Azərbaycana qarşı bu mövzunu istismar edir.

***- Nədən Ermənistan bunu bacarır, amma böyük potensiala malik olan Azərbaycan isə uduzur?***

- Biz burda uduzmuruq. Sadəcə, təəssüflər olsun ki, bu məsələdə həm Azərbaycanın daxilində, həm də xairicində Ermənistana dəstək verənlər var. Anlaşılan odur ki, bu qüvvələrin Azərbaycan dövləti və hakimiyyəti ilə bağlı bir sıra planları və maraqları üst-üstə düşür. Burada erməni lobbisi və Azərbaycanın müstəqil siyasətini həzm etməyən qüvvələrin maraqlarını da unutmaq olmaz. Bütün bu kampaniya xarakterli tədbirlərin daha da güclənməsinin bəzi beynəlxalq güc mərkəzlərinin Azərbaycandan konkret tərəf tutmağı tələb etdiyi dövrə təsadüf etməsi çox mətləblərdən xəbər verir. Azərbaycan isə özünün milli maraqları nəyi diktə edirsə onu da həyata keçirir. Bu da təbii ki, heç də hamının xoşuna gəlmir və kiçik dövlətin belə bir prinsipal mövqeyi kimlərisə qıcıqlandırır. O zaman təcrübədə sınanmış üsullara əl atılır və təzyiqlər, qarayaxmalar işə düşür. Hətta özlərinin mübarizə apardığı, dini radikalizmə mübarizə kontekstində bizim həyata keçirdiyimiz müəyyən qərarları, atdığımız addımları tənqid edirlər.

***- Bu barədə əvvəllər də ölkə içində çox çağırışlar olub ki, Azərbaycan ermənilərə belə bir şansı yaratmasın, yaxud ermənilərə bəhanə verilməsin. Bəlkə nəhayət, bir daha ölkə içi situasiyaya nəzər salınsa, siyasi məhbuslarla bağlı qərarlar sərf-nəzər edilsə, daha yaxşı olar. Bəlkə böyük bir əfvin verilməsinə də ehtiyac var ki, düşmən bizə qarşı istifadə etdiyi arqumentlərdən məhrum olsun...***

- Bu yanaşma ilk baxışdan cəlbedici görünsə də, mahiyyətinə varanda görürsən ki, bu yanaşma düzgün deyil. Biz heç kimə bəhanə vermirik, sadəcə, onlar bəhanə axtarıb tapa bilir.Məsələn, 1992-ci ildə ABŞ Azərbaycan əleyhinə Azadlığı Müdafiə Aktına 907-ci düzəlişi əlavə etdi. O vaxt ABŞ üçün bir əsas var idimi? Azərbaycan torpağını işğalçılardan müdafiə edirdi.Yaxud bu gün Azərbaycan daxili təhlükəsizliyini qorumaq, milli maraqlarını təmin etmək üçün ölkəmizə müxtəlif yollarla edilən müdaxilənin qarşısını ən sərt şəkildə almağa çalışır, məgər bu, onun legitim haqqı deyilmi?Yuxarıda dedim, terrorçunu, metro partladanı, dini radikal qruplaşma üzvlərini həbs edirik, buna görə bizə qarşı böyük kampaniya aparılır. Demək, bəhanə həmişə var. Mən demirəm ki, Azərbaycanda insan haqları ilə bağlı problem yoxdur və hər şey əladır. Xeyr, bu fikirdən də uzağam. Hökumət də problemləri daima qeyd edir və onların həlli yolları üçün müvafiq addımlar atır. Belə baxanda insan hüquq və azadlıqlarının pozulması dünyanın hər yerində, xüsusilə inkişaf etmiş və böyük demokratiya ənənəsi olan ölkələrdə də baş verir. Lakin məni narahat edən mövcud problemlərə qeyri-adekvat münasibət, sui-istifadə halları, ikili yanaşma, ölkənin hamıdan ayrılaraq hədəf seçilməsi və şəxsi maraqlar üçün bu mövzunun istismar edilməsidir. ABŞ-da baş verən son hadisələr bütün dünyanı ayağa qaldırdı. Amma mən gözləmirəm ki, hər hansı beynəlxalq təşkilat bir bəyanat versin və qətnamə qəbul etsin.

***- Dünya reallıqları var, Azərbaycan kiçik dövlətdir. Hakimiyyət daxilində belə müzakirələr gedirmi, çıxış yolu aranırmı?***

- Bəli, Azərbaycan ABŞ kimi böyük və güclü dövlət deyil. Ancaq Azərbaycan özünə hörmət etdirməyi bacaran dövlətdir.

O ki qaldı həbslərlə bağlı söylədiklərinizə, birincisi, mən istəməzdim ki, QHT həmkarlarımdan kimsə həbsdə olsun. Könül istər ki, onlar azadlıqda olaraq vətən və dövlət üçün çalışsın. Amma bu, kiminsə istəyi ilə yox, qanuna olan münasibətlə tənzimlənir. Kiminsə əməllərində hüquqi məsuliyyət yarada biləcək hal varsa, o zaman ona hüquqi qiymət verilməlidir və bu heç kimdə narazılıq yaratmamalıdır. Baxaq görək ABŞ və Avropada hər hansı qanun pozuntularına yol vermiş adamlara qarşı hansı sanksiyalar, cəza qərarları qəbul edilir. Biz cəmiyyət olaraq hər bir şeyi real qiymətləndiririk. Məsələn, mən dövlət qurumları ilə çox sıx təmasdayam. Əlbəttə ki, bu məsələlər müzakirə olunur. Dövlət qurumları vətəndaş cəmiyyətini narahat edən bütün məsələləri dinləməyə və bunlara daxili müstəvidə, milli platforma çərçivəsində baxmağa hazırdır. Necə ki, bir neçə həftə öncə insan hüquqları məsələləri üzrə İşçi Qrupunun fəaliyyəti bərpa edildi, ora dövlətin ən üst düzəyində olan şəxslər, parlamentin aktiv deputatları, həmçinin insan hüquqları üzrə uzun müddət ixtisaslaşmış, çox təcrübəli, beynəlxalq qurumlar tərəfindən etiraf olunan şəxslər daxildir. Bu, Azərbaycan prezidentinin siyasi iradəsi nəticəsində mümkün oldu.



***- Bu ilin sonlarında əfv fərmanının imzalanacağı, 2015-ci ilin əvvəllərində islahatlar istiqamətində ciddi addımlar atılacağı gözləntisi sizdə nə qədərdir, yaxud məlumatlısınızmı bütün bunlarla bağlı?***

- Biz əfvlə bağlı daim çalışırıq. Konkret bir söz deyə bilmərəm. Gərək bizim cəmiyyət, xüsusən bizi tənqid edən opponentlərimiz dövlətin, hökumətin atdığı addımları dəyərləndirsin, ona adekvat qiymət versin. Yaxud bu addımların nəticəsində əldə oluna biləcək müsbət sonuclara öz töhfəsini versin. Amma bəzən biz bunun əksini görürük. İşçi Qrupa qarşı kampaniyalar başlayıb.

***- Azay bəy, yenidən Batumidəki tədbirə qayıdıram. Baş redaktor Rauf Arifoğlu bir peşəkar jurnalist olaraq forumdan reportaj hazırladı, iştirakçılardan birinə istinadən təşkilatçı qurumun ermənipərəst olduğunu yazdı, amma sağ-soldan ittihamlara məruz qaldı.Obyektiv mövqeyinizi bilmək istərdim, ittihamlara sizin mövqeyiniz necədir?***

- Mən Rauf Arifoğlunun və "Yeni Müsavat" qəzetinin siyasi kursundan razı deyiləm, burda ciddi fikir ayrılığımız var. Qəzetdə məni qane etməyən çoxlu yazılar gedir, bu, başqa bir məsələ. Lakin elə məsələlər var ki, burda fikir ayrılığı olmamalıdır, bu da bizim ümummilli məsələlərimizdir.Əgər qəzetin baş redaktoru konkret fakta söykənərək ""People İn Need"in Ermənistanla əlaqəsini üzə çıxarırsa, ordakı hadisələrin bütövlükdə sırf demokratiya qayğısından, eşqindən qaynaqlanmadığını və bir ölkənin haqsız olaraq hədəf götürülərək qaralandığını deyirsə, bunu faktlar əsasında öz oxucularına çatdırırsa, mən başa düşmədim, ona qarşı hücumun məqsədi nədir?! Demək, kimsə bu reallığın, orda baş verən gerçəkliyin üzə çıxmasında maraqlı deyil. Görünür, kimsə kimlərinsə təhriki ilə qəzetlərə və bu haqda danışanlara hücumlar təşkil edirlər. Amma bir nəfər demədi ki, sənin təşkilatının rəhbəri dəfələrlə qanunsuz olaraq Qarabağa gəlib, işğal olunmuş Azərbaycan ərazilərinə gedib. Belə bir təşkilat Azərbaycanın maraqlarına və umumi dəyərlərə necə xidmət edə, qərəzsiz görünə bilər? Bizdə məlumat var ki, "People in Need" qapalı formada dəfələrlə Dağlıq Qarabağın qondarma QHT-lərinin Vətəndaş Cəmiyyəti Forumuna dəvət edilməsi və orda onlara ayrıca yer ayrılmasını təklif edib. Əlbəttə, bu, erməni lobbisi və Ermənistanın həyata keçirdiyi işlərin nəticəsidir. Bu gün bəziləri şəxsi maraqları naminə milli maraqları tapdamağa hazırdır. İddia edirlər ki, Ermənistanda cəmi 4 siyasi məhbus var. Hansı ki, bu rəqəm on dəfələrlə çoxdur. Bu ölkədə keçən il prezident seçkiləri ərəfəsində Sərkisyanın ən ciddi rəqibi Paryur Ayrikyan güllələndi, bu fakta bir nəfər diqqət ayırmadı, dünya buna göz yumdu, "People İn Need" kimi təşkilatlar buna münasibət bildirmədi. Yaxud Gürcüstanda 98 nəfər siyasi səbəblərə görə həbs edilən, vaxtilə ən yüksək vəzifə tutmuş şəxslərdir. Azərbaycanda bir siyasi opponentə az da olsa, fiziki xətər yetirilsəydi, görün nələr baş verərdi.

**"Əgər qəzetin baş redaktoru konkret fakta söykənərək "People İn Need"in Ermənistanla əlaqəsini üzə çıxarırsa, ordakı hadisələrin bütövlükdə sırf demokratiya qayğısından, eşqindən qaynaqlanmadığını və bir ölkənin haqsız olaraq hədəf götürülərək qaralandığını deyirsə, bunu faktlar əsasında öz oxucularına çatdırırsa, mən başa düşmədim, ona qarşı hücumun məqsədi nədir?!"**

***- Ağrılısı odur ki, bu gün Qarabağ döyüşçüsü Tofiq Yaqublu, yaxud digər məşhur simalar, vətənpərvər insanlar həbsdədir və bəzən düşmən də bu faktdan istifadə edib Azərbaycanı hədəfə alır. Azərbaycan dövləti, nəhayət, bu problemin həllinə başlasa, daha faydalı olmazmı?***

- Mən konkret şəxslər haqqında müzakirə açmaq istəməzdim, lakin onu deyim ki, Azərbaycanda uzun müddət özünü doğrultmuş əvf institutu uğurla fəaliyyət göstərir. Əfvə müraciət edən istənilən vətəndaşın işinə obyektiv şəkildə baxılıb və bundan sonra da baxılacaq. Cənab prezident İlham Əliyev daim humanistlik nümayiş etdirərək, ona müraciət edən vətəndaşları əfv edərək çəkilməmiş cəzadan onları azad edib.

Bundan başqa, bir az əvvəl haqqında danışdığım İnsan Hüquqları üzrə İşçi Qrupu da fəaliyyət göstərir. Bütün bunların hamısı onu göstərir ki, dövlətimiz bu kimi məsələlərə kifayət qədər həssas yanaşır. Lakin təəssüf ki, biriləri ölkədə vəziyyətin gərginləşməsində və bu məsələlərin həll olunmamasında maraqlı kimi görsənir. Hətta insan haqları ilə bağlı qrupa qarşı da kampaniya başladı. Hətta məhbusların bəziləri bu qrupa qarşı etimadsızlıq nümayiş etdirdi. Mən əminəm ki, ayrı-ayrı şəxslər və ya qurumlar həmin məhbusları buna təhrik etdilər. Gördülər ki, artıq məhbus məsələsi beynəlxalq qurumların istismar predmetindən çıxarılmaqdadır. Artıq daxildə müəyyən mexanizm yaradılıb və bu çərçivədə problem öz həllini tapa bilər. O halda Azərbaycana təzyiq üsulu aradan qalxır. Bu gün daxildə dialoqun, ictimai barışın olması kimlərisə narahat edir.

***- Azay bəy, Leyla Yunusun vəsiyyətini oxuyubsunuz yəqin. Bir həmkar olaraq hansı hisslər keçirdiniz? Bir hüquq müdafiəçisi həbsxanada dünyasını dəyişərsə...***

- Mən Leyla Yunusun fəaliyyəti ilə razılaşmasam və onun bir çox hallarda ziyanlı olduğunu və milli maraqlarımızla üst-üstə düşmədiyi düşüncəsində olsam da və onun ədalətli şəkildə mühakimə olunmasının tərəfdarı olsam da, insanlıq, humanizm baxımından danışsaq, əlbəttə, mən bu xəbəri çox həssas qarşıladım. Mən istəməzdim ki, Leyla Yunusun səhhəti acınacaqlı vəziyyətdə olsun və həyatına bir təhlükə olsun. Mən bir həmkar kimi ona cansağlığı arzulayıram. Əgər səhhətində ciddi problem varsa, müvafiq qurumlardan xahiş edirəm ki, onun ciddi müayinəsini və müalicəsini təşkil etmək üçün əllərindən gələni qanunvericiliyə uyğun şəkildə etsinlər. Əlbəttə, mən istəməzdim ki, həbsxanada kiməsə nə isə bir şey olsun. Mən onun tezliklə sağalmasını arzu edirəm.

**"Leyla Yunus və İntiqam Əliyevin səhhəti ilə bağlı məlumatları həssaslıqla izləyirəm, onlara cansağlığı arzulayıram"**

***- İntiqam Əliyevin də durumunun ağır olduğu bildirilir...***

- Eyni zamanda mən İntiqam Əliyevin səhhəti ilə bağlı məlumatları həssaslıqla izləyirəm, ona da cansağlığı arzulayıram. İstənilən halda bu, bizim insanlıq borcumuzdur. Biz siyasi dünyagörüşümüzdən, yanaşmamızdan, etdiyimiz səhvlərdən asılı olmayaraq bir insanıq, azərbaycanlıyıq. Mən hər ikisinə cansağlığı arzulayıram. İstəməzdim ki, onların hansısa birinin sağlamlığında az da olsa, bir problem yaransın.

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

# Vurğun Əyyub da Müsavatdan çıxarıla bilər

## Başqan müavini Osman Kazımov İsa Qəmbərə qarşı ittiham yağdıranlara sərt cavab verdi



**Müsavat Partiyasından çıxan və çıxarılanların, həmçinin Məclis üzvü Vurğun Əyyubun narazılıqları davam edir. Partiyadan xaric edilən Səxavət Əlisoy bildirib ki, onu Müsavatdan çıxarsalar da, bu təşkilata üzv olan yaxın dostlarına, qohumlarına, tərəfdarlarına partiyanı tərk etmələri üçün müraciət etməyib.**

**Səxavət Əlisoy** deyib ki, Müsavat Partiyasının bir neçə rayon təşkilatının sədri Arif Hacılının apardığı siyasətə qarşı etiraz bəyanatı vermək niyyətindədir: "Lakin biz onları bu addımı atmaqdan hələlik saxlamışıq. Çünki Arif Hacılıdan narazıların yaxın zamanlarda çox ciddi açıqlamaları və bəyanatları olacaq. Mən və Qubad İbadoğlu bununla bağlı çox ciddi müzakirələr aparırıq".

**Keçmiş Müsavat üzvü tərəfdarlarının Adil Qeybulla ilə yaratdığı "Siyasi Dialoq və İslahatlar Mərkəzi"nə gələcəyi anonsunu da verib:** "Mümkündür ki, dostlarımız elə burda da fəaliyyətlərini davam etdirsin".

**S.Əlisoy onu da bildirib ki, Müsavat başqanı Arif Hacılının tərəfdarları da bir müddətdən sonra ona qarşı çıxacaq:** "Artıq onun tərəfdarlarının eyforiyası da azalır. Deyəsən, onlar Müsavatda baş verən proseslərin ciddiliyini anlamağa başlayırlar. Bu da növbəti istefaların qaçılmaz olduğunu göstərir".

**Müsavat Məclisinin üzvü Vurğun Əyyub isə APA-ya deyib ki, mübarizəsinin məqsədi odur ki, qurultayda baş verən ədalətsizliklərə görə heç olmasa kimlərsə cəzalandırılsın və partiyanın idarə edilməsində demokratik ənənələr bərpa olunsun:** "Problemlərin həllinin bir yolu olan növbədənkənar qurultayın çağırılması nizamnamə ilə təsbit olunmuş bir haldır. Ona görə də növbədənkənar qurultayın çağırılmasında israr, təkid edən adamlara hədə-qorxu gəlmək mənasız bir iş və nizamnamədən kənar bir addımdır".



Osman Kazımov

**V.Əyyub İsa Qəmbərin A. Hacılıya artıq açıq dəstək verməsindən sonra növbədənkənar qurultayın mənasını itirdiyi, narazıların qurultayda uğur qazanmaq ehtimalının olmadığı yönündə qənaəti də bölüşmədiyini dilə gətirib:** "İsa Qəmbər Arif Hacılıya o zaman da dəstək vermişdi, 3 səs artıq qazandı. Mənə elə gəlmir ki, İsa Qəmbərin sözü partiya üzvləri üçün hökmdür".

**V.Əyyub partiyanın qurumlarını legitim saymaması ilə bağlı açıqlamalarının partiyanın nüfuzuna zərbə vurduğu və buna görə cəzalandırıla biləcəyi barədə xəbərdarlığa da münasibət bildirib:** "Mən partiyanın qurumlarını legitim saymıram və mübarizəmin də məqsədi məlumdur. Bu gün Müsavat Partiyasının nüfuzuna zərbə vuranlar isə hazırda partiyaya rəhbərlik edənlərdir".

**Müsavat başqanının müavini Osman Kazımov isə "Yeni Müsavat"a açıqlamasında Vurğun Əyyubun iddialarının əsassız olduğunu söylədi:** "Partiyada gərginliyin yaranmasında mühüm rol oynayan şəxslərdən biri Vurğun Əyyubdur. Onun qurultay barəsində səsləndirdiyi fikirlər absurddur. Növbədənkənar qurultay çağırılmasından söhbət belə gedə bilməz. Növbədənkənar qurultayın hansı halda çağırılması nizamnamədə konkret göstərilib. Həmin hal isə mövcud deyil. Vurğun Əyyub getsin nizamnaməni dəqiq oxusun".

**Başqan müavini vurğuladı ki, 23 noyabr müşavirəsindən sonra Vurğun Əyyub-Səxavət Əlisoy-Əlövsət Talışxanlı üçlüyü tərəfindən İsa Qəmbərin hədəfə çevrilməsi təsadüfi deyil:** "Bu şəxslər artıq öz niyyətlərini həyata keçirə bilmədikləri və ifşa olunduqlarını gördükləri üçün, eyni zamanda İsa Qəmbər tərəfindən prosesə birmənalı qiymət verildiyini gördükdən sonra ardıcıl hücumlar edirlər. Hesab edirəm ki, İsa Qəmbərə qarşı hücumlarda hakimiyyətin də mövqeyi var".

**"Səxavət Əlisoyun uzun müddət səsləndirdiyi fikirləri artıq Vurğun Əyyub eynilə səsləndirir. Müsavat Divanı Səxavət Əlisoy haqda partiyadan xaric edilmə qərarını Vurğun Əyyub haqda da qəbul edə bilərmi" sualına isə O.Kazımov belə cavab verdi:** "Səxavət Əlisoy əvvəl ona görə önə verilmişdi ki, başqanlığa namizəd idi. Onun ifadə etdiklərinə diqqət etdikdə görərsiniz ki, bu fikirlər əslində daha çox Vurğun Əyyubundur. İndi Səxavət Əlisoy partiya üzvlüyündən xaric edildiyi üçün Vurğun Əyyub bir müddət əvvəl ötürdüyü estafeti Səxavət Əlisoydan qəbul edib. Əvvəldən bəyan edilib ki, nizamnaməni pozan hər bir şəxsə qarşı nizamnamə çərçivəsində tədbir görüləcək. İstər Arif Hacılını müdafiə edən şəxs olsun, istər Vurğun Əyyub olsun, nizamnamə pozuntusuna yol verən istənilən şəxs barəsində tədbir görüləcək. İstər Vurğun Əyyub, istər başqaları qurultayın qərarlarını heç bir əsas olmadan legitim hesab etməməkdə, ara qarışdırmaqda davam eləsələr, təbii ki, onlar barəsində tədbir görüləcək. Bunu bilsinlər ki, yeni qurultay olmayacaq. Onlara inanan şəxsləri aldatmasınlar, o insanlar Müsavat yolunda əziyyət çəkmiş insanlardır, onların inamından, etibarından sui-istifadə eləməsinlər".

❑ **Etibar SEYİDAĞA**

# Nalbəndyanı özündən çıxaran suallar

## Azərbaycanlılar İsveçdə erməni naziri pis vəziyyətə saldılar

**İsveçə səfirliyin açılışına gələn Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan əsas məruzəçi olduğu Stohkolm Beynəlxalq Sülh Araşdırmalar İnstitutunda (SİPRİ) keçirilən "Cənubi Qafqazda Təhlükəsizlik Problemləri" adlı konfransda pis vəziyyətə düşüb. Həmin konfransda iştirak edən Rahim Sadıqbəyli musavat.com üçün xüsusi reportaj hazırlayıb.**

R. Sadıqbəylinin sözlərinə görə, erməni nazir əvvəl yenə də "köhnə palan içi" tökməklə qondarma soyqırım haqqında cəfəngiyyat danışıb. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın "əgər erməni xalqına qarşı soyqırım törədilsəydi, bu gün Türkiyədə erməni qalmazdi" fikrinə münasibətini bildirən nazir hazırda Almaniyada da minlərlə yəhudinin yaşadığını, amma heç kimin Holokost faciəsini danmadığını deyib. Daha sonra nazir zalda iştirak edən azərbaycanlıların sərt sualları ilə üzləşib.

Ermənilər tərəfindən törədilən Xocalı soyqırımına görə cinayət məsuliyyəti daşıyanların beynəlxalq məhkəmə qarşısında nə vaxt cavab verəcəkləri barədə suala erməni nazir "belə cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin haçansa cəzalandırılacağına ümid etdiyini" bildirib. Azərbaycan ictimaiyyətində reallığın əksinə olaraq fikir formalaşdığını qeyd edən erməni nazir, Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibova istinad edərək, "Xocalı qətliamının azərbaycanlıların özləri tərəfindən törədilməsinin" guya təsdiqləndiyini deyib.



Edvard Nalbəndyan

Kəlbəcərli əsirlərlə bağlı suala gəlincə, Nalbəndyan deyib ki, onlar "adi şəxs yox, diversantlardı" və guya təmas xəttini keçərək erməni kəndlini öldürdükləri üçün mühakimə olunurlar.

"Uzun illər dost olaraq yaşadığı bir xalqın ərazilərinə hərbi təcavüz, 10 minlərlə insanın taleyini məhv etdiyinə görə Ermənistanın təcavüzkar siyasətini bir nazir kimi deyil, beynəlxalq hüququn aliliyinə hörmətlə yanaşan avropalı bir insan kimi necə qiymətləndirərdiniz" sualı isə Nalbəndyanı özündən çıxarıb. O deyib ki, azərbaycanlı tələbələr "mərkəzdən təlimatlar alaraq" müxtəlif tədbirlərdə bu cür çıxışlar edirlər. Ölkəsinin münaqişənin həlli üçün beynəlxalq hüququn prinsiplərinə söykənən mövqe nümayiş etdirdiyini bildirən Nalbəndyan bunları deyib: "Ermənistanın mövqeyinə görə ilk öncə Dağlıq Qarabağın yekun statusu öz müqəddəratını təyin etmə prinsipi ilə Dağlıq Qarabağın əhalisi tərəfindən müəyyən olunmalı, Dağlıq Qarabağda referendum təşkil olunana kimi DQ-nin müvəqqəti statusu beynəlxalq ictimaiyyət tərəfindən tanınır, Ermənistanla Dağlıq Qarabağ arasında koridor yaradılır, çoxtərəfli təhlükəsizlik qarantı verilərək bölgəyə sülhməramlılar yerləşdirilir, qaçqın və məcburi köçkünlərin bölgəyə qayıtması üçün şərait yaradılır və nəhayət, Dağlıq Qarabağ ətrafındakı rayonlar qaytarılır".

**Görüşlə bağlı geniş reportajı musavat.com saytından oxuya bilərsiz.**

# Bir siyasət elegiyası...



**Hüseynbala SƏLİMOV**

**1999-cu il idi. Bir neçə nəfər Polşaya yerli özünüidarəetmə təcrübəsini, bələdiyyələrin işini öyrənmək üçün getmişdik. Bizim üçün ekskursiyalar və görüşlər təşkil etdilər. Bir xeyli material topladıq...**

Növbəti maraqlı müzakirə bitəndə yolda dostlardan biri dedi ki, onsuz da bunların heç bir faydası olmayacaq. Niyə belə düşündüyünü soruşdum. O da mənə "Deyəsən, bu bir-iki həftədə hansı ölkədən gəldiyimizi unutmusan" dedi...

Ona heç nə demədim. Amma dediyi düz çıxdı. Biz bələdiyyələrlə bağlı bir xeyli bilik topladıq, hətta ilk dəfə olaraq Avropa Yerli Özünüidarəetmə Xartiyasını da azərbaycancaya tərcümə etdik. Amma hökumət bələdiyyələrin normal və işlək institutlara çevrilməsi üçün heç nə etmədi...

Bu məsələ niyə bizi bu qədər maraqlandırır? Polşada olarkən bir bələdiyyə məmurundan soruşduq ki, bu institutlara ayrılan vəsaitlər doğrulurmu? Dedi ki, Polşada da proses təzə başlayıb. Amma bütün Avropa belə işləyir...

Avropanın yerli özünüidarəetmə təcrübəsini bilirdik. Avropada bu məsələ subsudarlıq prinsipinə söykənir. Məğzi də budur ki, yerlərdə həll oluna bilən bütün məsələlər onların səlahiyyətinə verilir...

Artıq neçə illərdir ki, Azərbaycanda da bələdiyyə strukturlarının saxlanılmasına vəsait ayrılır. Bu vəsait az olsa belə yenə Azərbaycanlı vergi ödəyicisinin cibindən gedir...

Amma nə edəsən ki, azərbaycanlılar hələ ödədikləri verginin təyinatının fərqində deyillər. Burada bir daha bələdiyyə seçkilərini xatırlatmayacağıq. O səbəbdən ki, xatırlanası elə bir şey də yoxdur...

Sadəcə, bir neçə il bundan əvvəl bir röya vardı-demokratiya röyası. O vaxt heç kim onu röya hesab etmirdi, hamı düşünürdü ki, bu, gerçək bir şeydir...

Ən maraqlısı bilirsiniz nədir? Demokratiyaya əngəl törədə bilən bütün amillər, geosiyasi, siyasi faktorlar sadalanırdı, amma bir detal unudulurdu... O da bu idi ki, demokratiyanın vəziyyəti əhəmiyyətli dərəcədə insanlardan, cəmiyyətdən asılıdır, cəmiyyət demokratiya istəyirsə, o olacaq, istəmirsə və ya bunun fərqində deyilsə, onda məsələ qəlizdir...

Bəzən insanlara, cəmiyyətə bəraət qazandırmaq üçün özümüzü elə çətinliklərə salırıq ki, adam bir az keçəndən sonra bunun faydasızlığını anlayır. Biganəlik mərəzinin heç bəraəti varmı? Sözsüz ki, cəmiyyət atomistik bir quruluşa malikdir, burada ilk baxışda biri-biri ilə əlaqəsi olmayan milyonlarla "atom"-insan var. Onlar ilk baxışda tam sərbəst görünsələr də əslində biri-birilə əlaqəlidirlər-insan digərləri ilə ünsiyyət olmadan yaşaya bilməz, çünki o, həm də sosial varlıqdır...

Bu gün Azərbaycanda isə cəmiyyət az qala bu əlaqələri minimuma endirib-insanlar biri-birilə yalnız və yalnız zəruri olduğu qədər, minimal həddə əlaqədədir. Çox vaxt adamda belə təəssürat yaranır ki, bu əlaqələr də sünidir, insanlar daim onları azaltmağa cəhd edirlər...

Fiziklər böyük kollayderlər qururlar. Onların işi sadə prinsipə əsaslanır - iki zərrəcik seli qarşı-qarşıya hərəkət edəndə böyük sürətlər və bunun da nəticəsi kimi yeni zərrəciklər yaranır...

Əslində normal cəmiyyət də belədir. İnsanlar biri-birinə doğru hərəkət etməlidir. Bu halda yeni keyfiyyət dəyişikliyi baş verə bilər. Biri-birinə ən son həddə olan inamsızlıq, etibarsızlıq, assosiasiyalaşmamaq meyli-bunlar son nəticədə gətirib biganəliyə çıxarır...

Elə məsələlər var ki, onları yalnız qruplaşaraq həll etmək mümkündür. Müəyyən bir qrup olur. Onlara sosiologiyada bəzən "fokus qrupları" da deyirlər...

Bir neçə adamdan ibarət olan bu qruplar cəmiyyətin diqqətini nəyəsə yönəldə bilir. Yetər ki, cəmiyyət eşitmək istəsin. İndi insanlar var ki, son müraciətlərini edib siyasətdən getmək istəyirlər. Amma cəmiyyət onları eşitmir. Müəyyən insanlar var ki, əksinə, siyasətə gəlmək istəyirlər. Amma bu cəmiyyət onları da eşitmək istəmir...

Bəs onda necə olsun? Doğrudanmı, iki-üç, hətta on adam hər şeyi bilir və insanlara nə lazım olduğunu onların özlərindən yaxşı hiss edirlər? Doğrudanmı, insan öz taleyini tamamilə bir neçə adamın öhdəsinə buraxar və bundan zərrə qədər də narahatlıq duymaz?

Əslində danışacağımız demokratiya nağılını bir qədər fərqli rakursda düşünürdük. Amma belə alındı. Fərq etmir. Bütün hallarda demokratiya haqda nağıllar digərlərindən tamam fərqlənir - bu nağıllarda nə "ağ atlı oğlan" olur, nə də sonda göylərdən alma düşür...

## Leyla Yunusun həbsi ev dustaqlığı ilə əvəz ediləcəkmi?




# Azərbaycana qarşı "Maqnitski qanunu" təhlükəsi

### Hüquq müdafiəçisinin səhhətinin pisləşməsi ölkəmizə qarşı sanksiya tələblərini yenidən gündəmə gətirə bilər; Leyla Yunusla bağlı məsələ dövlət rəhbərliyinin təcili müdaxiləsini tələb edir; rusiyalı hüquqşünas da vaxtında həkim yardımı edilməməsi səbəbindən vəfat etmişdi

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun səhhətinin kəskin pisləşməsi ilə bağlı xəbərlər ciddi narahatlıq doğurmaqdadır. İyulun 30-da həbs edilən L.Yunusa qarşı Cinayət Məcəlləsinin "Dövlətə xəyanət", "Vergidən yayınma" da daxil olmaqla 6 (274, 178.3.2, 192.2.2, 213.2.2, 320.1 və 320.2,) maddə ilə ittiham irəli sürülüb. L.Yunus ittihamları qəbul etmir və həbsi siyasi motivlərlə izah edir.**

Həbsindən keçən müddətdə bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatları, o cümlədən Avropa Birliyi və ABŞ Dövlət Departamenti xüsusi bəyanatlar verərək Azərbaycan hakimiyyətini tənqid edib, L.Yunusu azadlığa buraxmağa çağırıb. L.Yunusla bağlı qınaqlar onun həyat yoldaşı Arif Yunusun həbsi ilə daha da artırıb. Qeyd edək ki, əvvəl Bakıdan çıxmaq yasağı qoyulan A.Yunus da avqustun 5-də həbs edilib və ona qarşı da CM-in 274 və 178.3.2-ci maddələri ilə ittiham irəli sürülüb.

Vəkillərin dediyinə görə, şəkər xəstəliyindən əziyyət çəkən L.Yunus 12 kiloqram arıqlayıb, dişləri, saçları tökülür və zorla yeriyir. L.Yunus özü isə noyabrın 26-da vəkilləri vasitəsilə vəsiyyət edib, ölümünün yaxınlaşdığını deyib. Penitensiar Xidmət L.Yunusun həbsindən bəri bu cür məlumatları ya təkzib edir, ya da susqunluqla qarşılayır. Penitensiar Xidmət hər nə qədər "Leyla Yunus da adi təqsirləndirilən şəxslərdən biridir" desə də, bunun belə olmadığının yəqin ki, fərqindədirlər. Leyla Yunusun ittiham olunduğu ağır maddələrə baxmayaraq, o, sıradan bir cinayət suçlusu deyil. Azərbaycan hakimiyyətinin, lap cəmiyyətin müəyyən kəsiminin "Ermənistan xüsusi-xidmət orqanları ilə əlaqəsinə görə" ona sərt münasibətindən asılı olmayaraq, L.Yunus Avropanın dövlət başçılarının tanıdığı, hətta Fransa prezidentinin Azərbaycan prezidentindən azadlığı üçün şəxsən xahişini etdiyi hüquq müdafiəçisidir.

Azərbaycan hüquqçularının ona qarşı irəli sürdüyü maddələri bəlkə də sübut edəcək təkzibolunmaz faktlar var. Bu bizim deyil, istintaq orqanının işidir. Fəqət bu sübutlar cəmiyyət üçün ortada yoxkən, L.Yunusun özünün fiziki yox olma ehtimalı Azərbaycanın başına ciddi dərd ola bilər.

Bir müddətdir ki, Avropa Parlamenti və "Fredoom House" digər QHT rəhbərlərinin həbsindən sonra Azərbaycan hakimiyyətinin bəzi məmurlarına qarşı sanksiyaların tətbiqini istəyir. Sentyabr ayında Avropa Parlamenti həbsləri pisləyən qətnamə qəbul edib, sanksiyaların tətbiqini gündəmə gətirib. "Fredoom House"nin rəhbəri Devid Kramer və ABŞ-ın ölkəmizdəki sabiq səfiri Riçard Kozlariç isə "The Amerikan İnterest" məcmusunda ABŞ-ı Azərbaycan rəsmilərinə sanksiya tətbiq etməyə çağıran məqalə dərc ediblər. Oktyabrın əvvəlində ABŞ Dövlət Departamenti yaydığı bəyanatda "Leyla Yunusun pisləşən səhhətinə baxmayaraq" məhkəməyə çıxarılmadan həbsdə saxlanılmağa davam etməsinə görə ciddi narahatlıq keçirdiyini bəyan edib. Dövlət Departamentinin bəyanatında deyilirdi ki, ABŞ həmçinin Leyla Yunusun fiziki təhlükəsizliyi barədə xüsusilə narahatdır: **"Biz Azərbaycan hakimiyyətini humanitar əsaslarla Leyla Yunusun müstəqil tibbi müayinədən keçirilməsinə və daha yaxşı şəraitlə təmin olunmasına çağırırıq"**, deyə bəyanatda bildirilirdi. Bugünlərdə isə Vaşinqtonda "Freedom House" və "Soros" Fondunun təşkilatçılığı ilə "Azərbaycanda insan hüquqları pozuntularının geniş fəsadları" mövzusunda dinləmələr keçirilib. Dinləmələrdə Azərbaycana qarşı "Maqnitski qanunu"ndan istifadə edilməsini təklif ediblər. Bu, sanksiya xarakterli qanun layihəsi olmaqla, insan hüquqlarının pozulduğu ölkələrdə tətbiq edilir. Sözügedən qanun layihəsinin yaranma tarixi Ermitaj Kapital Fondunun hüquqşünası Sergey Maqnitskinin 2009-cu ildə təcridxanada vəfat etməsi ilə bağlıdır. Artıq sübut olunub ki, Maqnitski, pis təsadüfdən, məhz azərbaycanlının rəhbərlik etdiyi "Motrosskaya tişina" təcridxanasında **VAXTINDA HƏKİM YARDIMI EDİLMƏMƏSİ SƏBƏBİNDƏN** *(seçdirmə bizimdir)* vəfat edib. Həmkarları və qohumları hesab edirlər ki, hüquqşünası 5.4 milyard rubl həcmində büdcə vəsaitinin mənimsənilməsi sxemini aşkar etdiyinə görə həbs ediblər. Bu hadisədən sonra amerikalı senator Benjamin Kardin ""Maqnitski siyahısı"nı tərtib edib.

2011-ci ildə ABŞ Dövlət Departamenti S. Maqnitskinin ölümündə əli olan və ya əli olduğundan şübhə duyulan 60 rusiyalı məmurun ABŞ-a girişini yasaqlayıb.

Rəsmi Bakının xarici təzyiqlər mövzusunda həssaslığı aydındır; hakimiyyət kiminsə xahişi və ya tələbi ilə dustaq buraxmır. O da məlumdur ki, bəzi beynəlxalq təşkilatlar erməni lobbisinin təsiri altında bu kimi həbslərdə Azərbaycana qarşı istifadə edir. Azərbaycana sanksiyalar tətbiqi ilk növbədə Ermənistanın da işinə yarayır. Amma bu bəhanəni Azərbaycanın dünyada pis duruma düşməsini istəyən ermənilərə verməmək də olar. Bunun üçün L.Yunusla bağlı məsələ təcili dövlət rəhbərliyinin müdaxiləsini tələb edir. L.Yunus axı o qədər təhlükəli suçlu deyil ki, bu cür ağır vəziyyətdə təcridxanada saxlanılsın. Ağır xəstəliyi nəzərə alınaraq, onun həbsi ev dustaqlığı ilə əvəz edilə bilər. Buna Azərbaycan qanunları imkan verir...

Ölkə bir neçə aydan sonra ilk Avropa Oyunlarına ev sahibliyi edəcək. Azərbaycanda bir hüquq müdafiəçisinin, Allah etməmiş, təcridxanada vəfat etməsi təkcə ölkəmizə həqiqi haqq-ədalətin bərpasını istəyənləri deyil, bədxahlarımızı da hərəkətə keçirəcək.

**Hələ gec deyil...**

**❑ "Yeni Müsavat"**

# AXCP-dəki həbslərin şok pərdəarxası...



### Son günlər həbs edilənlər partiyada qurultayın keçirilməsini istəyənlərdir; Fuad Qəhrəmanlının rəhbərlik etdiyi qruplaşma niyə "sudan quru çıxır?"

**Məlum olduğu kimi, son günlərdə AXCP-də həbslər başlayıb. Seymur Həzinin həbsindən sonra ardıcıllıqla "Azadlıq" qəzetinin əməkdaşı Xalid Qarayevin inzibati qaydada, eləcə də partiyanın təşkilat şöbəsinin müdiri Rafiq Daşdəmirlinin oğlu Sənan Daşdəmirlinin və son olaraq Əli Kərimlinin müşaviri Asif Yusiflinin həbsində şübhəli məqamlar ortaya çıxıb.**

AXCP-nin rəhbər strukturlarına daxil olan şəxslərdən birinin verdiyi məlumata görə, bu həbslər birbaşa partiyanın qurultayı və Ali Məclisinə olacaq seçkilərlə bağlıdır. Mənbə bildirib ki, partiyada ikitirəlik yaranıb. Belə ki, bir qrup qurultayın keçirilməsini və sədrin dəyişməsini tələb edir. Arqument olaraq da, Müsavatda keçirilən məlum qurultayı və İsa Qəmbərin rəhbərlikdən getməsini əsas gətirirlər. Digər qrup isə qurultayın yubadılmasının və Əli Kərimlinin rəhbərlikdə qalmasının tərəfdarıdır. Maraqlıdır ki, hər iki qrupun partiyanın sədrliyinə olmasa da, Ali Məclisin sədrliyinə namizədi var. Bu, həbsdə olan Seymur Həzi və AXCP sədrinin müavini Fuad Qəhrəmanlıdır. Mənbə onu da qeyd edib ki, həbs olunanlar Seymur Həzi başda olmaqla, qurultayın keçirilməsinin tərəfdarı olan qrupdur. Belə ki, Xalid Qarayev, Asif Yusifli və oğlu həbs edilən Rafiq Daşdəmirli Ali Məclisin rəhbərliyində Seymur Həzini görür və onun namizədliyini dəstəkləyirlər. Hətta mənbə yaxın günlərdə hazırkı AXCP Ali Məclisinin sədri Həsən Kərimovun səhhəti ilə əlaqədar xaricə gedəcəyini və bir daha geri qayıtmayacağını da qeyd edib. Bu xəbərin sədrlik uğrunda mübarizədə partiya daxilində daha ciddi dartışma yaratdığı deyilir.

Digər qrupun Ali Məclis sədrliyinə namizədi Fuad Qəhrəmanlının illər öncədən hakimiyyətə yaxınlığı barədə xəbərlər dolaşmaqdadır. Partiya daxilində yaranan iki qanaddan birinin rəhbəri olan Fuad Qəhrəmanlının qrupunun həbslərə məruz qalmaması şübhəli məqamlar ortaya çıxarıb. Mənbə iddia edib ki, Seymur Həzi ilə başlayan və xüsusi bir ssenari əsasında davam edən həbslərdə məhz bu qanad dolayısı yolla iştirak edir.

Mənbənin irəli sürdüyü iddialardan biri də Fuad Qəhrəmanlının rəhbərlik etdiyi ehtimal olunan qrupun ölkəmizdə media orqanları, siyasi partiyalarla daim konfliktlərdə olması ilə bağlıdır. Bildirilir ki, bu qrup birbaşa hakimiyyətin tapşırıqlarını icra edir.

4 gün öncə azadlığa çıxan Xalid Qarayevlə bağlı da mənbə ciddi iddia irəli sürüb. Bildirilir ki, əslində qalsa Xalid Qarayev inzibati qaydada 25 sutka yox, cinayət işi ilə həbs olunmalı imiş. Sadəcə AXCP fəalını jurnalist olması xilas edib.

Sonda mənbə AXCP daxilində bu prosesin davam edəcəyini və yeni-yeni həbslərin olacağını istisna etməyib. Məqsədin isə qurultaya qədər narazı qüvvələrin tamamilə zərərsizləşdirilməsi olduğu qeyd edilib.

**❑ Cavanşir ABBASLI**

**"Azadlıq" qəzeti həyəcanlı bir komanda ilə "People in Need" təşkilatının müdafiəsinə qalxıb. Əlbəttə, bu müdafiənin arxasında dayanan səbəb də hər kəsə məlumdur. Əli Kərimlinin tərəfdarları əl açaraq, tez-tez üz tutduqları təşkilatı qorumaq məqsədilə sübut etmək istəyirlər ki, Çexiya təşkilatının ermənipərəst mövqeyi ilə bağlı iddialar yalandır.**
**Halbuki ortaya qoyduğumuz faktlar və istinad etdiyimiz mənbələr bizim haqlı tərəf olduğumuzu birmənalı şəkildə təsdiq edir. Təsadüfi deyil ki, "Azadlıq" qəzeti və Qərbin qrantları ilə keçinən opponentlərimiz ortaya qoyduğumuz faktlar haqqında bir kəlmə də danışmırlar.**




# Əli Kərimli və əhatəsi "PİN"-i niyə ölümünə müdafiə edir - tam ifşa

## "PiN" təşkilatının qurucusu: "Dağlıq Qarabağ müstəqil dövlət olmağa layiqdir"; "Azadlıq" qəzetinə və onun yalanlarına cavab...





Çünki həmin faktlarda "People in Need" təşkilatının rəhbərləri Ermənistan və Dağlıq Qarabağ separatçılarına nə vaxt və necə yardım etdikləri barədə özləri söhbət açırlar. Yəni adamlar özləri yazır ki, biz filan vaxtı filan işi gördük...

Ancaq opponentlərimiz and-aman edirlər ki, yox, elə şey olmayıb. Guya ortaya qoyduğumuz bu faktları uydurmuşuq. Halbuki dediyimiz faktlara internetə çıxışı olan hər kəs şəxsən baxa bilər. Bu qədər linkləri biz özümüzdən uydurub, internetə yerləşdirə bilmərik ki. Əminəm ki, bizə opponentlik edən dostlarımızın çoxu həmin faktları ortaya qoyana qədər "People in Need"in yaranma tarixi haqqında bilgilərə sahib deyildilər. İndi isə gün kimi aydın olub ki, bir çoxunun qrant aldığı bu təşkilat ermənilərə son dərəcə bağlı olub. Hətta bu bağlılıq o həddədir ki, təşkilatın yaradıcıları məhz Ermənistana və Dağlıq Qarabağa yardım üzərində bu təşkilatın formalaşdığını yazırlar. İndiyə kimi təqdim etdiyimiz ingilisdilli mənbələr idi. İndi isə rusdilli mənbələrdə bu təşkilatın liderinin dediklərini ortaya qoyacağıq. Həmin mətni oxucuların əksəriyyəti orijinaldan oxuya biləcək.

Bir daha "Azadlıq" qəzetində gedən yazıya qayıdaq. ""People İn Need" ittihamlara cavab verdi" başlıqlı yazıda "təşkilatın İnsan haqları müdafiəsi və demokratiyanin inkişafı üzrə Şərqi Avropa proqramının koordinatoru İvana Skalova indiyə qədər səsləndirdiyimiz ittihamları daha çox təsdiq edib.

***

**Bir daha xatırladaq. Biz demişdik ki, bu təşkilatı yaradan kişilər, yəni qurumun rəhbəri olan Simon Panek və təşkilatda ikinci şəxs hesab olunan Yaromir Ştetina hələ 1988-ci ildə Ermənistanda baş verən zəlzələdən dolayı bu ölkəyə yardım ediblər. Məhz bu iki şəxs bu təşkilatın yaradıcısı sayılır. 1992-ci ildə isə bu təşkilat Dağlıq Qarabağa yardım həyata keçirib. Təbii ki, ondan sonra da bu yardımlar davam edib. Xanım Skalova bu müsahibəsində bizim dediklərimizi təsdiq edir. Sitat:** "People in Need-in qurucularından bəziləri təşkilat təsis olunmamışdan 4 il əvvəl, yəni 1988-ci ildə Ermənistanda baş vermiş zəlzələ qurbanlarına humanitar yardım göstərən qrupa cəlb olunublarmış. Biz çox təəssüf edirik ki, bəzi Azərbaycan Kütləvi İnformasiya Vasitələri tərəfindən bu fakt bizim QHT-nin erməniperəst olmasını əsaslandırmaq üçün istifadə olunur". Əlbəttə, "qurucularının bəziləri" mənzərəni düzgün əks etdirmir. Əslində isə təşkilatı yaradan iki kişinin ikisi də Ermənistana yardımı təşkil ediblər. Və 1992-ci ildə 1988-ci ildə əldə olunmuş təcrübədən istifadə edərək yardım kampaniyası təşkil edərək, Dağlıq Qarabağdakı separatçılara yardım aparıblar. Özü də beynəlxalq qanunları pozaraq, qaçaq yolla. Özləri yazır ki, yükləri kirayə etdiyimiz təyyarə ilə İrəvana gətirdik, oradan da maşın karvanı ilə ("KamAZ"larla) Dağlıq Qarabağa apardıq. Yeri gəlmişkən, indi təqdim etdiyimiz rusdilli materialda bu fakt daha qabarıq təqdim olunur. Özü də təşkilatın sədri olan Simon Panek-ın adından. Biz aydınlıq üçün söhbət açdığımız həmin rusdilli mənbəyi burada təqdim etməyi lazım bilirik. Bu müsahibə 2005-ci ildə AzadlıqRadiosunun rus bürosu tərəfindən götürülüb. Bu da iqtibas edəcəyimiz müsahibənin linki:

**Açmaq üçün linkə tıkla: http://archive.svoboda.org/programs/vg/2005/vg.040605.asp**

**Jurnalist İrina Laqununanın sualına cavab olaraq Simon Panek deyir:** "Biz Balkanlarda və Dağlıq Qarabağda baş verənlərlə barışa bilməzdik. 1992-ci ildə onların hər ikisində müharibə gedirdi. Həmin müharibələr bizə şəxsi məsələmiz qədər sirayət edirdi. Maraqlıdır ki, ilk humanitar yardımı biz hələ 1988-ci ildə etmişdik. O vaxt Ermənistanda zəlzələ olmuşdu. 1988-ci ilin axırı idi. Mən Ermənistanda zəlzələdən əvvəl də olmuşdum, sonra da oldum. Bundan sonra məndə müəyyən şəxsi təəssüratlar yaranmışdı. Qarabağda baş verənlərə sadəcə kənardan baxmaq olmazdı. Ən azı yerli xəstəxanalara yardım etmək lazımdır. O vaxtı biz pul topladıq...həmin pula Çexiyada dərman aldıq. Xəstəxana üçün müəyyən tibbi qurğular əldə etdik. Onları təyyarə ilə İrəvana apardıq. İrəvandan isə şosse yolla "KamAZ"larla şəxsən Dağlıq Qarabağa çatdırdıq.... Bilmirəm nəyə görəsə Çexiya ictimaiyyəti bizim pulla bağlı xahişimizə isti münasibət göstərdi. Maraqlıdır, hələ 1988-ci ildə biz universitet tələbələri isti paltarlar topladıq, yataq çuvalları və adyal yığdıq. Praqadakı SSRİ səfirliyinin köməyi ilə "Aeroflot" bütün bunları İrəvana gətirdi. Çexiyanın rəsmi orqanları 1988-ci ildə, "Məxməri inqilab"dan əvvəl Ermənistan üçün pul toplamağa başladılar. O vaxt Çexiya və Slovakiyada *(onda bu ölkələr vahid dövlət idi)* son dərəcə iri məbləğdə pul yığıldı. Ermənistana yardım üçün 10 milyon dollar toplandı...."

**Bu təşkilatın faktiki ikinci sahibi olan Yaromir Ştetina haqqında rusdilli mənbədə gedən yazı daha maraqlıdır. Düşünün ki, bu adam rus dilini də erməni ləhcəsi ilə danışır. O, "Panorama.am" saytına verdiyi müsahibədə 2011-ci ildə deyir ki, "Artsax müstəqil dövlət olmağa layiqdir". Biz həmin müsahibəni də, bu şəxsin videoçıxışını da təqdim edirik. Sadəcə, bir məqamı qeyd edəcəm ki, çexiyalı senator görün Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyev haqqında necə həqarətlə danışır. Xocalı aeroportunun komendantı olmuş bu əfsanəvi qəhrəman haqqında o deyir:** "O, əsl qatil idi. Mənə demişdi ki, axşamlar adam ovuna çıxıram. Onun belə bir hobbisi vardı. Ona görə də onun ölüm xəbəri məni təəccübləndirmədi, axır ki, ermənilər onu tapıb güllələdilər"...

Həvəsi olanlar "People in Need" təşkilatının ikinci sütunu hesab olunan bu şəxsin müsahibəsini rus dilində oxuya və ya həmin müsahibənin videosuna baxa da bilərlər. Linkləri aşağıda təqdim edirik: **Link: http://www.panorama.am/ru/society/2011/04/05/nkr/ ttp://www.panorama.am/ru/society/2011/04/05/nkr/**

**Video link: http://karabakhrecords.info/gallery/yaromir-stetina-video/**

Onu da qeyd edək ki, Yaromir Ştetina 2001-2002-ci illərdə Azərbaycanda da olub. Əsasən Ağdamdan olan qaçqınlarla görüşüb. Düşünün, bizim sadəlövh qaçqınlar da bu erməni yanlısına öz dərdlərini danışıblar...

Ancaq İvana Skalova öz müsahibəsində "People in Need"in Dağlıq Qarabağa yardımı ilə bağlı bir kəlmə də demir. Tərslikdən bu müsahibəni hazırlayan həmkarımız Aynur İmranova da ən önəmli olan bu məsələnin üzərindən sükutla keçir. Niyə? Çünki bu suala xanım Skalova cavab versə, həqiqəti etiraf etməli olacaq. Axı həmin fakt onlarla mənbədə özünə yer alıb...

Bu yazıda maraqlı məqamlardan biri də odur ki, qarşı tərəf bizim kimi, istinad etdiyi mənbələrin linkini də ortaya qoyur. Düşünürik ki, bu da irəliyə doğru atılmış bir addım hesab oluna bilər... Bir məqamı da qeyd edim. Göründüyü kimi, bu təşkilatı yaradan adamlar ermənilərə son dərəcə bağlıdır. Hətta onlardan biri Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasını istəyir. Və bu təşkilatın adından danışan İvana Skalova bu müsahibədə "qondarma Dağlıq Qarabağ" ifadəsi işlədir. Təbii ki, hansısa İvana Skalova "qondarma Dağlıq Qarabağ" ifadəsi işlədə bilməzdi. Bu da "Azadlıq"ın uydurmasıdır...

Biz bir daha bəyan edirk, "People in Need" erməniperəst yox, məhz erməni təşkilatıdır. Ortada olan faktları kimsə inkar edə bilməz. Edən varsa, çıxsın ortaya. Bu meydan, o da şeytanlar...

**Qeyd:** Müsahibənin həmin hissəsini rus dilində yayırıq ki, linkləri aça bilməyənlərə rahat olsun:

### Yaromir Ştetina:

**"Этот Гадъиев, о котором я сказал выше, был настоящим убийцей. Он мне говорил, что ночью выезъает на охоту за людьми - такое у него было хобби. Поэтому меня не удивило известие о том, что в конце концов армяне нашли и застрелили его".**

**"Но я уверен, что после всего того, что пришлось переъить арцахцам, они имеют право на свое независимое государство."**

***

"Ирина Лагунина: Шимон, я как раз хотела поговорить о том периоде. Вы сказали - "как романтики". Вспомните те времена, 12 лет назад. Вот образовалась группа молодых людей, которые хотели что-то сделать, - с чего вы начинали?

Шимон Панек: Да, так примерно. Мы начинали с того, что просто не могли согласиться с ситуацией на Балканах и в Нагорном Карабахе - это были две войны, которые были в 1992 году, они нас как-то касались очень лично. Интересно, что первые гуманитарные конвои, доставки мы делали еще в 1988 году, во время землетрясения в Армении, в конце 1988 года. Я сам в Армении был и перед землетрясением, и после этого, так что у меня было тоъе какое-то личное ощущение, что просто невозмоъно смотреть на то, что в Карабахе происходит, и надо хотя бы помочь местным больницам.

Мы сделали тогда сбор денег, и из этих денег по спискам, которые пришли из Армении по факсу, мы здес, в Чехии, покупали лекарства преъде всего и разное оборудование для больниц и самолетами отправляли в Ереван, из Еревана потом по шоссе на "КаМАЗах" лично ехали в Нагорный Карабах. С Балканами, с Боснией или Сербией, с Косово это было легче, потому что это недалеко - моъно доехать из Праги за два дня, например, на грузовиках.

Не знаю почему, но с самого начала чешское общество довольно хорошо относилось к нашим просьбам дать деньги. Интересно, что еще в 1988 году мы, студенты университета, делали сбор теплой одеъды, спальных мешков, одеял и перевозили с помощью "Аэрофлота" и посольства Советского Союза тогда здесь, в Праге, перевозили все это в Ереван. Чешские официальные органы в 1988 году, перед бархатной революцией, сделали сбор денег для Армении, и тогда в Чехии и Словакии собрали огромное количество средств - более 10 миллионов долларов - на помощь Армении. Так что было, наверное, какое-то чувство чехов или граъдан Чехии и Словакии в направлении Советского Союза, Балкан и так далее, что проявилось и после 1992 года".

❑ **Elbəyì HƏSƏNLÌ, "Yenì Müsavat"**

**"Azadlıq" qəzeti və Əli Kərimlinin yaxın əhatəsi isə iki ayağını bir başmağa dirəyib bildirir ki, yox ki, yox. "People in Need"ə erməniperəst təşkilat demək olmaz. Görəsən, imkan olsaydı Əlif Hacıyev və digər şəhidlərimiz bu erməni yanlılarına bəraət qazandırmaq üçün min oyundan çıxanlara nə deyərdi...**

**"People in Need" təşkilatının iki rəhbərindən biri Azərbaycanın Milli Qəhrəmanı, Xocalı aeroportunun komendantı olmuş Əlif Hacıyev haqqında danışanda deyir: "O, əsl qatil idi. Mənə demişdi ki, axşamlar adam ovuna çıxıram. Onun belə bir hobbisi vardı. Ona görə də onun ölüm xəbəri məni təəccübləndirmədi, axır ki, ermənilər onu tapıb güllələdilər"...**

# "Yıxılmaq lüksüm olmadığı üçün yıxılmamışam".




## "Yeni Müsavat" qəzetinin baş redaktoru 6000-ci say ərəfəsində "5+1" layihəsinin ilk qonağı oldu

**"Yeni Müsavat" qəzetinin 6000-ci sayının işıq üzü görməsi münasibətilə qəzetin redaksiyasında maraqlı bir görüş baş tutdu. 5 həmkarımız, olduqca fərqli bir layihə çərçivəsində "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu sual "atəş"inə tutdular. Aktual.az saytının redaktoru Anar Yusifoğlu, azxeber.com saytının redaktoru Əfsələddin Ağalarov, ölke.az saytının redaktoru Məmməd Gülməmmədov, editor.az saytının redaktoru Azər Niftiyev və xeber1.az saytının baş redaktoru Səbuhi Abbasovdan ibarət heyət fərqli, yeni bir layihəyə start verdilər. "5+1"... Necə deyərlər, 5 redaktorun bir müsahibi...**

**İlk müsahib kimi seçilən "Yeni Müsavat" qəzetinin təsisçisi və baş redaktoru ilə söhbət məlum "Batumi qalmaqalı" ilə başladı...**

***- Rauf bəy, bu gün Batumi olaylarına görə gündəmdəsiz və media da bu olaylara görə Sizə dəstək verir. Nə baş verir? Niyə siz?***

- Batumidə baş verən hadisələr medianın baxışı, azərbaycanlı mətbuat işçisinin iştirakı olmasaydı, bu qədər böyüməyəcəkdi. Mən hesab edirəm ki, o mətbuat işçisi mən olmasaydım da, bu hadisə bu qədər böyüməyəcəkdi. Bu hadisədə məni sevməyənlərin də xidməti böyükdür. Məni sevənlər də məni sevməyənlərə qarşı məni müdafiə etmək zərurətini hiss etdiklərinə görə məsələ bu qədər böyüdü.

***- Azərbaycan nümayəndə heyəti istəyinə çatdımı?***

- Ən son nəticə olaraq demək olar ki, çatmadı. O məsələ böyüdü, forumda Azərbaycanla bağlı hazırlanan stendlər qaldı. Bundan sonra zala da keçirdilər. Zalda aksiya keçirməyə icazə vermirdilər. Amma bunu etdilər, məsələni böyüdərək Azərbaycana qarşı diskriminasiya edildiyini bütün ölkələrə duyurdular. Orda 5-6 nəfər Azərbaycan forumunun nümayəndəsi, müşahidəçilərdən də bir neçəsi Azərbaycanın mövqeyində deyildilər. Amma Gürcüstan, Moldova, Ukrayna, xüsusən də Belarus nümayəndə heyəti Azərbaycanı dəstəkləyirdi. Proseslərin gedişində iş elə gətirdi ki, iki tərəf oldu - Azərbaycan və erməni tərəfləri.

***- Dediniz ki, orda azərbaycanlı və erməni qruplaşması var idi. Siz öz millətinizdən olan insanların həmin qrupda olduğunu görəndə hansı hissləri keçirdiniz?***

- Əvvəla, mən belə tədbirlərdə çoxdandır olmurdum, dəvətləri qəbul etmirdim. Cəmi iki dəfə iştirak etmişəm. Boykot edirəm. Dözə, sakit baxa bilmirəm. Torpaqla bağlı iddialar olur, ermənilər danışırlar. Allah mühafizə, əsəblər tab gətirməz, adam problemə düşə bilər. Amma bu dəfə bizimkilərdən bəziləri ermənilərlə görüşüb öpüşəndə mənim ətim ürpənirdi. Bilirəm ki, illərdir hansısa layihələr həyata keçirirlər, sıcaq münasibətləri var. 6-7 il əvvəl bu, mənə də gizli şəkildə təklif olunub. Avropa Birliyindən gələn 11 səfir mənimlə görüşüb. Mənim qəzetimin "xalqların sülhə hazırlanması" prosesinə cəlb olunmasını təklif ediblər. Bu təkliflər arasında yüz minlərlə, hətta milyonlarla qrant layihəsinin içinə məni almaq söz verilib. Mən bundan açıq şəkildə imtina etmişəm. Xalqlar arasında sülh yaradılma prosesində iştirak edə bilməyəcəyimi demişəm. Ondan sonra da bu prosesdən kənarda qalmışam. Heç kimi ermənilərlə görüşür deyə qınamaq fikrim də yoxdur. Bu, bir sürəcdir, onlar bu sürəcin içində olmağa razılaşıblar, bu forum da ona xidmət edir. Amma Çexiyanın hay-küylü "People in Need" təşkilatı çalışır ki, Vətəndaş Cəmiyyəti Forumuna separatçı bölgələrdən də təmsilçilər gətirsinlər, özü də bərabər tərəfli...

Mənim də bunu aşkarlayan bir jurnalist kimi, istədiyim şəkildə işıqlandırmaq hüququm var. İcazə verin mən bununla bağlı yazımı yazım, başlığımı qoyum, təqdimatımı edim. Bu, mənim haqqımdır və işimdir. İstəməyən də oxumaya bilər.

Belə bir vəziyyət yarandı ki, bir çex təşkilatına ermənipərəst deyildi deyə bir qəzetin baş redaktoruna qarşı təzyiq, təhqir kampaniyası başlandı. Araşdırma apardıq, məlum oldu ki, "People in Need"i müdafiə edənlərin əksəriyyəti o təşkilatdan qrant alanlardır. Məsələn, iqtisadçı Zöhrab İsmayıl var, hazırda Çexiyada, o təşkilatın himayəsindədir. Ona xərclənən pulları doğruldur. Bir başqasının Gürcüstanda iki aylıq xərcini çəkiblər. Başqa birini ölkədən çıxarıblar, digərinə 300 min dollar pul veriblər. Olsun, bir şey demirəm...

### "Əli Kərimliyə bircə sual verdim: görəsən, prezident bunları bilir?"



### "Bizimkilərdən bəziləri ermənilərlə mehriban görüşəndə, öpüşəndə mənim ətim ürpənirdi"

***- Onlar arasında sizin keçmiş əməkdaşlar da var...***

- Nə yapaq? Keçmiş əməkdaşlar da, görünür, bu cür təsir altına düşürlər.

***- Siz "Yeni Müsavat"a 25 il əmək vermisiz. Həbsə də düşmüsüz zamanında. Amma son hadisədə əsasən müxalifət adlandırılan, keçmişdə sizinlə çiyin-çiyinə dayanan insanların sizə qarşı bu tutumu qəzetin müxalifətçilik imicinə zərbə vura bilər?***

- "Yeni Müsavat" qəzeti demokratik düşərgənin yeganə uğurlu proyektidir. Qalan bütün proyektlər darmadağın olub, əvvəlki konsepsiyalarından geri çəkiliblər, ya da yox olublar. AXCP, demokratik düşərgənin digər layihələrinin hamısı bu və ya digər dərəcədə zərbə alıblar. Tək bir layihə bütöv qalıb. Onu da, bir tərəfdən hakimiyyət üstümə düşüb, o biri tərəfdən də müxalifət, qismən də öz həmkarlarım, darmadağın etmək istəyirlər. Təsəvvür edin ki, bütün bu təzyiqlərdən sonra mən də yoruldum, bezdim, küsdüm. 25 il sonra dedim ki, gedirəm, bu layihəni də qoyuram kənara. Kim nə qazanacaq? Axı bu qəzetin 90 faizi müxalif düşərgədən, narazı elektoratdan, hüququ pozulanlardan, şikayət edənlərdən.... yazır. Baxıb təhlil edən var? Ancaq 16-cı səhifə maqazindir. Hansısa bir səhifəmizdə məddahlıq, tərif yoxdur. Çünki qəzetin konsepsiyası tənqidçi media modelidir. Çox təəssüf ki, bu prosesdə müxalif düşərgənin təmsilçilərindən də, xüsusən AXCP sədri Əli Kərimli cinahından basqı, böhtan gəlir. Bu, bizim ictimai rəydə gözdən düşməmiz, müxalif düşərgəyə sahiblənmək iddiasından gəlir. Əli Kərimli hesab edir ki, onun müxalif düşərgəyə tam sahiblənməsinin qarşısında ancaq bir qüvvə qalıb - o da bizim qəzetimizdir. Bizi bir rəqib kimi görərək sıradan çıxarmağa çalışırlar.

***- AXCP funksionerlərinin belə bir iddiası var ki, bu gün "Yeni Müsavat" qəzeti müxalifətə xidmət etsə də, əslində iqtidara xidmət göstərir, onun maraqlarını ifadə edir.***

- Bu suala cavab olaraq heç zaman heç yerdə açmadığım bir detalı açmaq istəyirəm. Əli Kərimli ilə münasibətlər yaxşı olanda bir dəfə mənə bir görüş təklif elədi, yeməkli bir söhbət etdik.

***- Nə zaman? Milli Şura ərəfəsi?***

- İctimai Palatadan Milli Şuraya keçid ərəfəsi idi. Bizim ondan sonra onunla görüşümüz olmadı... İndi AXCP funksionerlərinin, digər fəalların səsləndirdiyi tezisləri mənim üzümə qarşı özü səsləndirdi. Dedi ki, "... mən "Azadlıq" qəzetində filan yazını prezidentin əleyhinə verdim. Bu yazı ilə az qala hakimiyyəti yıxmışdım. Amma sən filan yazını öz qəzetində verəndən sonra bu vəziyyəti prezidentin xeyrinə düzəltdin". Həyəcanla, pafosla danışmağa davam edirdi. Sonra dedi ki, biz qızıl mədənləri ilə bağlı AzadlıqRadiosunun araşdırmasını dərc etdik. Amma sən başqa yazı verərək, İlham Əliyevi bu vəziyyətdən çıxardın, yoxsa hakimiyyət çökmüşdü. Üçüncü nümunə - ərəb inqilabı vaxtı Azərbaycanda da belə şey olacaqdı. Sən filan yazını verdin, vəziyyətdən çıxdı... Bu cür 5-6 nümunə ilə elə bir mənzərə yaratdı ki, sanki "Azadlıq" qəzeti 5 məqalə ilə hakimiyyəti yıxdığı halda, mən "Yeni Müsavat"da çap etdiyim 5 məqalə ilə onu yıxmağa qoymamışam... Nəhayət, fikrini tamamlayandan sonra mən soruşdum ki, siz bitirdiz sözlərinizi? Müdafiə vəziyyəti aldı. Düşündü ki, yəqin mən onun dediklərinin yanlış olduğunu sübut etmək üçün hansısa arqumentlər gətirəcəm, fikrimi əsaslandıracam, sonra o mənə cavab verəcək və sair... Bilirsiz, mən ona nə dedim? Cəmi bir sual verdim: "Görəsən, özü bunları bilir?"... Anladı. Yəni mən soruşurdum ki, prezidentin özü bilir ki, mən onu necə qoruyuram? Güldü, qəhqəhə çəkdi... Çünki bu qədər gülünc məsələdir.

### "Dostlarımız" istəyir ki, bizim ağzımızı bağlasınlar və bizim gələcəyimiz olmasın"

Üstəlik, bu cür iddiaların hamısı da yanlışdır. Sadəcə, bizim leksikonumuz, davranış konseptimiz tamamilə fərqlidir. Biz bütün düşərgələrə açığıq. Bir nazir də, hökumət məmuru da, müxalifətçi də, yükdaşıyan da, şikayətçi də... hər kəs burda özünü görə bilər. "Azadlıq" qəzetinin konsepsiyası isə bir sektaya məxsus olan qəzet konsepsiyasıdır. Məktəbdəki divar qəzeti konsepsiyasıdır - ancaq bir mövzudan - məktəbdən, oradakı uğurlardan, özünütənqiddən yazılan qəzet konsepsiyası... Orda alternativ fikrə yer yoxdur. Mən Azər Ayxanın o fikri ilə razıyam ki, bunlar demokratiya mantiyası geyinmiş antidemokratlardır.

***- Sizin redaksiyanızda da belə adamlar var?***

- Bizim hamımız potensial olaraq belə adamlarıq. Sadəcə olaraq, içindəki canavarı susdurmağı bacaran demokratdır. Bacarmayan isə belə diktator olur.

***- Mən bu sualı verəndə onu nəzərdə tuturdum ki, sizin redaksiyada da Xədicə İsmayıl kimi düşünənlər, qrant alıb, başqa mövqeyə düşənlər varmı?***

- Var, ola da bilər. Fərqli də düşünə bilərlər. Hamıya da deyirəm ki, başqa cür düşünə, yaza da bilərsiz. Amma kateqorik olmayın. Mən bu cür düşünürəm deyə fərqli düşünənləri satqın, erməni adlandırmayın. Zidd fikirlərə düşəcəyik, onların ifadə olunmasına da nail olacağıq. Qəzet redaktoru mandatı nə deməkdir? Bütün əks fikirləri cəmiyyətə çatdıran deməkdir. Biz varıqsa, cəmiyyətdə əks fikirliliyə dözüm də var, onun inkişafı, gələcəyi var deməkdir. Bizim dostlarımız istəyir ki, bizim ağzımızı bağlasınlar və bizim gələcəyimiz olmasın.

***- Düşünmürsüz ki, müxalif mövqeni ifadə edən qəzetlər arasında, eləcə də bəzi müxalifət partiyalarında qəzetlər arasındakı bu cür gərginlik, dartışma ümumən müxalifətin məhvinə gətirib çıxarır?***

- Gördüyünüz bu situasiya və dedi-qodunu müxalifət yox, hakimiyyət yaradıb. Ölkədə normal seçki keçirilsəydi, müxalifətdə də, mediada da... vəziyyət başqa cür olardı. Amma hakimiyyət ona nail oldu ki, müxalifəti sıxmaqla onun imkanlarını məhdudlaşdırdı. Siyasətdə iki faktorun ciddi rolu və əhəmiyyəti var: maddi və insan resursları. Uzun müddət müxalifət maddi resurslardan uzaq qaldı, onun yerinə insani resurslardan istifadə etdi. Amma indi o da yoxdur. Azərbaycan müxalifəti indi ən ağır günlərini yaşayır və günahı ... məndə görür. Niyə? Çünki mən onlar kimi krizisə girmədim, "Yeni Müsavat"ı firqə böhranlarından kənarda saxlamağı bacardım. Bu da bir az ağıl, zəka, manevr məsələsidir. Uçurumun üstündən bir kəndir atılıb və Azərbaycanın qəzet redaktorları o ipin üstündə gəzən kəndirbazlara bənzəyirlər. Azacıq qaymalar, sapmalar məhvə gətirib çıxarır. Mənim yıxılmaq lüksüm olmadığı üçün yıxılmamışam. Azərbaycan müxalifəti kritik durum yaşadığı üçün günahı bir-birində görür və bu, krizisi daha da dərinləşdirir. Müxalifətin yeganə sağ və bütöv qalan bir təşkilatı var idi - Müsavat Partiyası. Ki, əgər dəyişim olardısa, o, əsas aktyorlardan birinə çevrilə bilərdi. Hesab edirəm ki, Başqanımız İsa bəyin yanlış qərarı nəticəsində o da krizisə girdi. Əminliklə deyirəm ki, o, getməməliydi, başqanlıqda qalmalıydı. Bizə başqanımızın demokratiya nümunəsi göstərməsi lazım deyildi, biz bu barədə ədəbiyyat oxumuşuq. Bizə başqanımızın bizi hakimiyyətə gətirməsi lazım idi. Başqan olandan 21 il sonra "ortaya nümunə qoyacam" deyib, başqanlıqdan getməsi...bizə, mənə lazım deyildi.

***- Rauf bəy, sizcə, İsa Qəmbərin prezident olmaq şansları hələ də qalır?***

- Azərbaycanda demokratik düşərgə deyilən indiki müxalifət düşərgəsinin hakimiyyətə gəlmək şansı varsa, o işin başında İsa Qəmbər gələcək. Başqasının şansı yoxdur.

***- Biz bilirik ki, "Yeni Müsavat", musavat.com yeniliklərə açıq media orqanlarıdır. Amma mənim şəxsən həmkarlarımdan duyduğum bir məqam odur ki, musavat.com-da baner yerləşdirmək üçün müəyyən şərtlər var. Bu da ondan ibarətdir ki, Müsavatla, konkret İsa Qəmbərlə bağlı tənqidi məqalələr həmin banerlərdə yerləşdirilməsin. Belə bir şey varmı?***

- Tələb odur ki, təhqiramiz başlıqlar olmasın. Bizə baner qoyan saytlardan biri Əli Kərimlini təhqir etmişdi, mən onu çıxardım. Çünki onun bir daha yayımlanmayacağına əminliyim yox idi, çünki bu, mənim prestijimdir. Amma eyni zamanda insanlarımızın da məlumatsızlığı burada rol oynayır. Bir çoxu bilmir ki, o banerlər bizim deyil, reklamdır. Bir hörmətli professorumuz vardı, saytlardan birində onunla bağlı tənqidi yazı dərc edilmiş, onun baneri də musavat.com-da yayımlanmışdı. Mən ona izah edə bilmədim ki, bu material bizim deyil... Təhqir məsələsində ciddi senz var. Amma tənqidi materiallar bütün saytlarda gedir, onların baneri də bizdə yayımlanır. Bu senz hamıya aiddir. Biz təhqirə niyə meydan verək? Bir də hansısa korporativ maraqlar üçün bizdən istifadə olunmasın. Məsələn, hansısa məmuru şantaj etmək üçün anons qoyur. Bunu da 5 gün bizdə saxlayır. 6-cı gün mən deməliyəm ki, bunu çıxarsın.

***- Sizin xəbərçilik prinsiplərinizdə şəxsi münasibətlər nə dərəcədə yer alır? Hansısa məmurla, icra orqanı rəhbərliyi ilə "Yeni Müsavat"ın problemi olanda bir müddət qəzetin manşetlərində, əsas yazılarında sizin şəxsi münasibətləriniz əsas rol oynayır... Sizin xəbər siyasətinizdə şəxsi münasibətlər yer alırmı?***

- İnsanıq da, niyə yer almasın ki? Qərəz də yer alır, qeyri-obyektivlik də. Amerika qəzetlərində 20-22 gün olmuşam. Biz elə bilirdik ki, orda qərəz, qeyri-obyektivlik yoxdur. Onlar dedilər ki, bu, yolverilən şeydir. Xəbəri şişirdə də bilərsən, qərəzin də ola bilər, qarşı tərəfi öz yazınla demoralizə də edə bilərsən. Bu, yolverilən bir şeydir. Lakin bütün bunlar fikir və redaksiya yazılarında olur. Xəbərlərdə deyil. Çalışıram ki, mümkün qədər kini-nifrəti, şəxsi ədavəti qəzetə daşımayım. Hətta münasibətim olmayan, düşmən münasibətində olduğum siyasətçiyə də yer verməyə hazıram. Bu, mənim var olma səbəbimdir. Oxucu yalnız məni görür, mənə pərdə arxasında hansı pislik edildiyini görmür axı.

### "Mənim daha böyük iddialarım da var. Lakin mən onları ifadə etmək istəmirəm. Çünki hazırda daşıdığım mandat və ölkənin gündəmindəki məsələ tamam fərqlidir. Mən qəzet redaktoru kimi danışıb fikir bildirirəm"

***- "Yeni Müsavat"ı bəzən hökumət məmurlarına, deputatlarına, iqtidar mənsublarına qəzetin səhifələrində tribuna verməkdə də ittiham edirlər. "Biz onları zatən hər yerdə görürük, niyə "Yeni Müsavat"da da görək ki" məntiqi ilə...***

- Biz onlara böyük minnət edirik ki, bizimlə danışsınlar. Yoxsa balans qura bilmirik. Biz də cəmi bir neçə nəfər tapmışıq danışmaq üçün. Açıqlamalarından sonra köşə yazarlarından xahiş edirəm ki, nə olar, onları öz yazılarınızda "vurmayın", yoxsa bir daha bizə danışmayacaqlar. Münasibətimiz gərgin olan iqtidar məmurlarından da, icra başçılarından da müsahibə almaq üçün hər şeyə hazıram - qonaqlıq verməyə də, qonorar verməyə də. Təki bizim qəzetdə görünsünlər.

***- Rauf bəy, siz "Yeni Müsavat" qəzetini müxalifət mətbuat orqanı hesab edirsiz, ya müxalif?***

- Biz tənqidi media kateqoriyasına daxil olan KİV-lərik. Qəti şəkildə müxalifət, partiya qəzeti, KİV-ləri deyilik. Doğrudur, ilk zamanlarda belə idik. Amma mən bunun belə olmaması üçün uzun müddət fəaliyyət və mübarizə aparmışam. Müxalif media orqanı olmaq olar, amma müxalifət və partiya mətbuat orqanı olmaq gerilikçi bir şeydir, bolşevik təfəkküründən qalma bir şeydir.

***- Neçə işçiniz Müsavat Partiyasının üzvüdür?***

- Elə bir statistika aparmamışam. Amma əksəriyyəti partiyasızdır, müxalifət yönümlüdür.

***- 6000-ci sayınız çapdan çıxır. Rauf Arifoğlu üçün bir oxucu kimdir?***

- Mənimçün oxucu qəzeti oxuyub istədiyi materialı, sevdiyi yazarı seçən, məlumat aldığı qəzetdən mücahidlik gözləməyən, yazarlara, media quruluşlarına aşırı sevgi və nifrət bəsləməyən Azərbaycan vətəndaşıdır. Təlimlənmiş, qəzet yazılarına normal reaksiya verən bir vətəndaş... Azərbaycanlılar televiziya seyr etməyi öyrəniblər. Xoşuna gəlməyən veriliş olanda pultun düyməsini basır, başqa proqrama keçir. Heç televiziyanın sahibini söymədən... Amma qəzet oxuma mədəniyyətini formalaşdıra bilməmişik. Bəyənmədikləri qəzeti oxumağa və oxuyub söyməyə davam edirlər. Belələrinə deyirik ki, oxuma! "Pult"u bas və keç o biri qəzetə. Saytda da eyni şeyləri edirlər. Günlərlə şərh yazırlar: "yalan yazırsız, belə olmaz"... Biz də deyirik, yalandırsa, oxuma da. Bizi də, özünü də incidirsən. Deməli, sən bunu oxuyursan, bura sənə lazımdır. Sadəcə, sənin reaksiya mədəniyyətin yoxdur.

***- Minval.az saytının yaranmasından danışdız bayaq. Nəyə görə bu cür müxalif portalın rəhbəri İsa bəyin ailə üzvü oldu? Sizcə, Azərbaycanda rusdilli portala rəhbərlik edə biləcək, güclü səviyyədə rus dilini bilən başqa bir sima yox idimi? Bunu dostunuzun oğluna bir jest idisə...?***

- İlkin Qəmbərə irad nədir ki?

***- İradım yoxdur... Sadəcə, media kuluarlarında belə bir fikir səsləndirildi ki, İsa Qəmbər Rauf Arifoğluna qəzetin təsisçiliyini verdikdən sonra Rauf bəy də onun oğlu üçün jest edib, bir tribuna yaratdı. Bu, hamının danışdığı bir söhbətdir...***

- Heydər Əliyev demişkən, xalq hər şeyi bilməlidir... Amma burda xalqın biləcəyi mühüm, xüsusi bir şey yoxdur... isa Qəmbərin oğulları da hardasa işləməlidirlər. İndi görünən budur ki, harada işləsələr də, onlara nəsə söz deyiləcək. Ona görə də bu cür dedi-qodular xırda şeydir. Minval.az saytının ideyası yalnız mənə məxsusdur. Saytı İlkin qurub. Onun rus və ingilis dilini mükəmməl bilməsi, mənim təcrübəm, onun enerjisi belə bir nəticə ortaya qoya bilər deyə düşündük. Bu, mənim olduğu qədər İlkinin əsəridir. İsa Qəmbərin övladının Azərbaycanda işləməsindən təbii bir şey varmı? Kaş ki, daha yüksək yerlərdə çalışaydılar. Daha çox maaş alardılar. Bizdə isə İsa Qəmbərin ailə üzvü də saytın digər əməkdaşları qədər maaş alır. Hətta ondan yüksək maaş alan da var.

### "Mənə açıq şəkildə dedilər ki, sənin çox pulun olsa, aparıb İsa Qəmbərə verərsən"








### "İstərdim ki, Azərbaycan parlamentində "Yeni Müsavat"ın baş redaktoru kimi bir parlamentar təmsil olunsun"

***- Müsahibədə dediz ki, sahibi olduğunuz media qurumlarını qorumaqdan başqa bir iddianız yoxdur. Bu, doğrudan belədir? Bəs deputat olmaq istəmirsiz?***

- Mən istəyərdim ki, Osmanlı sultanı olum. Amma istəmək ayrı şeydir, reallıq başqa bir şey.

***- Deputat olmaq iddianız varmı?***

- Mənim daha böyük iddialarım da var. Lakin mən onları ifadə etmək istəmirəm. Çünki hazırda daşıdığım mandat və ölkənin gündəmindəki məsələ tamam fərqlidir. Mən qəzet redaktoru kimi danışıb fikir bildirirəm. Ölkə seçkilərə yaxınlaşdıqca mən də qərarlarıma baxıb, son sözümü deyəcəm. İstərdim ki, Azərbaycan parlamentində "Yeni Müsavat"ın baş redaktoru kimi bir parlamentar təmsil olunsun. Amma Azərbaycan şərtlərində bu, çətindir. İki dəfə seçkilərə qatılmışam, yaxşı kampaniya qurmuşam, seçkini udmuşam, amma mandat başqa adama verilib.

***- Bayaq Batumi forumundan danışanda dediz ki, tədbiri tərk etməyiniz fədakarlıq idi. Rauf Arifoğlu və qəzeti daha hansı fədakarlığı edə bilər Azərbaycan üçün?***

- Təxminən 1000 adama iş verə bilərdim. İmkan yoxdur. Bir sahibkar kimi ayda 300-400 min manat vergi verə bilərdim, amma buna da imkan vermirlər. Yəni mən öz sahəmdə özüm, oxucular, işçilər üçün elə bir imkan yaratmışam ki, daha təkmil mexanizmlər olmalıydı, daha çox maliyyə və xəbər dövr etməliydi bu sistemdə. Amma müəyyən qruplar məni çərçivədə saxlayırlar ki, çox pulum olmasın. Bir dəfə bir tədbirdə açıq şəkildə dedilər ki, sənin çox pulun olsa, aparıb İsa Qəmbərə verərsən... Amma təbii ki, vermərəm. Çox pulum olsa, işçilərə verər, onların məvacibini artırmaq üçün çalışaram.

***- Pulu çox istəyirsiz, Rauf bəy?***

- Prosesi çox sevirəm.

***- Pul sizinçün nədir?***

- Vasitə. Ciddi bir vasitə.

***- Bu sualda bir ironiya var, amma sizə qarşı yox. Niyə sizdə yeni yaranan saytlara qarşı paxıllıq hissi yoxdur? Niyə onların materiallarını "screen şot" edib, haralarasa ötürmürsüz? Niyə yenilərə dəstək verirsiz?***

- Açığı, bu, mənim üçün qəribə situasiyadır. Çünki mən də niyə belə olduğumu bilmirəm. Narahat olmuram. Əksinə, normal media qurumlarının sayının çoxalmasına, çevrəmizin genişlənməsinə və tanıdığım, inandığım jurnalistlərin iş başına keçməsinə çalışıram. Görünür, nə zamansa, uzun müddət tək-tənha mübarizə aparmaq narahatçılığı yaradıb bu geniş vizyonu. Amma təsbitinizi təsdiqləyirəm.

***- Oxucularınıza 6000-ci sayla bağlı mesajınız var?***

- 6000 rəqəmi məbləğlə ifadə edəndə böyük məbləğ deyil. Amma günə, aya böləndə 16-17 il davamlı olaraq işləməkdir. Bu, rekorddur. Bir baş redaktorun rəhbərliyi altında bu qədər müddətdə və sayda qəzet çıxmayıb. Bu say varsa, demək ki, iş var, uğur var ki, bura qədər gələ bilmişik. Əks halda, bizi oxucu cəzalandırardı. Almazdı, yaşatmazdı, imkan verməzdi, sevməzdi, tənqid etməzdi. Adımızı ya sevgi, ya söyüşlə zikr etməzdi. Bunlar varsa, deməli, biz hələ mövcuduq, öndəyik. Oxucuya da, əməkdaşlara da, həmkarlara da mesajım budur ki, mən hələ davam etmək istəyirəm. Çox arzulayırdım ki, əvvəl 20 illikdə, sonra 25 illikdə təqaüdə gedim, ya da fasilə verim bir neçə illik. Yarımçıq kitablarım var, onlar üzərində işləyim. Amma görürəm ki, mənə burda ehtiyac var. Ehtiyac olmasaydı, yəqin ki, gedərdim.

**❑ Müsahibəni**
**Sevinc TELMANQIZI yazdı**



# İnqilabların rəngi

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Avtoritar rejimlər daha uca səslə demokratiyanın mövcudluğundan danışırlar. Hətta heç nədən çəkinmədən demokratik düzənlərin mövcud olduğu ölkələri onun yoxluğunda ittiham da edirlər... Diqqət yetirirsinizmi, hansısa siyasi məhbusa azadlıq tələb ediləndə ilk əks arqument kimi demokratik ölkə olduğumuz, müstəqil məhkəmələrin mövcudluğu, heç bir siyasi ayrı-seçkilikdən söhbət getmədiyi köməyə yetir... Zahiri atributlara görə varlığını, ya da yoxluğunu da sübut edə bilməyəcəksiniz - yazılmış qanunlar var... Onun necə icra olunduğu isə rejimlərin şəxsi istəyindən asılıdır...**

Ən qəddar diktatorlar, ən avtoritar rejimlər əllərində olan vasitələrdən yararlanıb demokrat cildinə bürünmək istəyirlər... Söz bəzəyi bitib-tükənmir.

Bütün cəhdləri puça çıxaran isə ölkənin iqtisadi durumudur və onu şərtləndirən səbəblərdir. İstisnasız olaraq siyasətin xarakterini dəqiq müəyyənləşdirən əmsal iqtisadiyyatdır. Onun qatlarına diqqət yetirin, dərhal yalanı gerçəkdən asanlıqla ayıra biləcəksiniz. Diktatura və avtoritar rejimlərin hökmranlıq etdiyi ölkələrdə iki rəng mövcuddur: ağ və qara... Belə ölkələrdə cəmiyyət iki cəbhəyə bölünür: ifrat varlılar və bütün zülmlərə, sitəmlərə boyun əyən kasıblar...

Biz tez-tez son 10-12 ildə Azərbaycanda siyasi azadlıqların nədən belə dar çərçivəyə salındığını araşdırırıq. Çox vaxt da bir gerçək diqqətdən yayınır. Məhz bu illər ərzində orta təbəqə sıradan çıxarıldı. İqtisadiyyatın bütün qatları oliqarxların nəzarətinə keçdi. Bunun üçün sübut-dəlil də axtarmağa ehtiyac yoxdur - çevrənizdəki insanların sırasına, onların durumuna diqqət yetirin. Əgər kimsə öz mövcudluğunu təmin edibsə, deməli, hansısa oliqarxın himayəsinə sığınıb və qazancını onunla bölüşür. Başqa rəng, çalar tapa bilməyəcəksiniz...

Əslində Azərbaycan adlı ölkədə sabitliyin mövcudluğu, hakimiyyətin bunun təminatçısı olduğu sadəcə, olaraq şüardır. Gerçək atributlar isə mövcud deyil. Sabitliyə ən böyük təminatçı orta sahibkarlıq, orta təbəqədir - sadə dillə desək, hörülən divarın möhkəmliyinə təminat verən sement qarışıq məhluldur.

Demokratiyanın mövcud olduğu ölkələrdə orta təbəqə həm də "ildırımötürən" rolu oynayır. Ölkənin iqtisadiyyatının əsas yükünü olar öz çiyinlərində daşıyırlar. İctimai düşüncə də onların təsiri ilə formalaşır. Aşağını yuxarıya qovuşduran bu zümrə yoxdursa, sabitlik boş cəfəngiyyatdır və o ölkə gec-tez sosial ziddiyyətlə üzləşəcək... Tarix, zaman sübut edir ki, başqa alternativ də yoxdur...

Post-sovet məkanında baş verən rəngli inqilablara daim ikrahla yanaşan, əslində isə bunu özü üçün böyük təhlükə sayan Rusiya prezidenti Putinin birdən-birə öz ölkəsinə yönələn təhlükədən, rəngli inqilablardan danışması da təsadüfi deyil: "Biz rəngli inqilabların hansı fəlakətlər törətdiyini bilirik və Rusiyada buna yol verməyəcəyik!" Belə hökm əslində real təhlükənin dərkindən qaynaqlanır. Qərbin Rusiyaya yönələn iqtisadi-siyasi qadağalarından sonra sosial narazılıq və inqilab havası duyulur... 140 milyon əhalisi olan nəhəng bir ölkədə bunun qarşısını almaq isə absurddur... Və sosial narazılıqdan qaynaqlanan istənilən inqilabı önləmək isə mümkünsüzdür...

Bu danılmaz bir gerçəkdir ki, şimalda nə baş verirsə, az sonra nəticələrini Azərbaycanda hiss edirik. Bizim ölkəmiz real təhlükə mənbəyi kimi Rusiyadan nə qədər uzaq durmaq istəsə də, dövlət idarəçiliyi, korrupsiyanın xarakteri, sosial ziddiyyətlər baxımından Rusiyaya çox bənzəyir. Bir çox hallarda isə proseslər heyrət doğuran sinxronluqla təkrarlanır... Ona görə də bir sualı verməyin məqamıdır: Rusiyada rəngli inqilab baş versə, bizə təsiri necə olacaq?

Heç kimə sirr deyil ki, Rusiya dünyadakı bütün diktatura və avtoritar rejimlərin sonuncu dayağı və sığındığı istehkamdır. Həm də bu ölkə öz iddialarını bütün vasitələrdən yararlanıb həyata keçirməyə bir nümunədir. Məhz bu baxımdan Rusiyada inqilabın baş verməsi dünyanın siyasi mənzərəsini dəyişəcək. İndi hiss olunur ki, Ukraynaya müdaxilədən sonra bütün qəzəbini Rusiyaya yönəldən Qərb də bu ölkədə qlobal dəyişiklik istəyir. Bu labirintdən çıxmaq üçün Rusiyanın imkanları isə hər gün, hər saat tükənir.

İnqilabların rəngi müxtəlif olsa da, niyyət birdir: insanlar azad, demokratik cəmiyyətdə yaşamaq istəyir. Avtoritar idarəçiliyin dövrün tələblərinə cavab verməyib isə açıq-aşkar görünür.

# Hüquq müdafiəçisi Ziya Məmmədovun villalarının yerini göstərdi

## Vidadi İsgəndərli: "İcra başçısı Mansur Məmmədov Ziya Məmmədovun Göyçaydakı mal-mülkünə nəzarət edir və özünün də varidatını böyük iştahla artırmağa girişib"

**Hüquq müdafiəçisi Vidadi İsgəndərli Göyçay rayonunda baş verən proseslərlə bağlı danışıb. O, "Yeni Müsavat"a 11 min əhalisi olan rayonun iztirab, zülm, haqsızlıq, korrupsiya, zibillik, toz və natəmizliyin içində boğulduğunu açıqlayıb. Deyib ki, belə bir şəraitdə icra başçısının başı siyasi proseslərə qarışıb: "Əhali danışır ki, icra başçısı Mansur Məmmədov növbəti prezident seçkilərinə Abbas Abbasovun qatılacağını, Ziya Məmmədovun isə baş nazir olacağını deyib.**

Üstəlik, qardaşının bu yaxınlarda Zərdaba icra başçısı təyin ediləcəyi, Ziya Məmmədovun oğlu Anar Məmmədovun Şəmsəddin Hacıyevin əvəzinə Göyçaydan deputat seçiləcəyi barədə məlumatlar yayır. Yaxşı, icra başçısı hər yeri satır, bəs Heydər Əliyev Muzeyini satmağına hansı səbəbdən reaksiya verilmir? Yoxsa Ziya Məmmədovun qohumlarına qanun şamil edilmir? Nədir 11 min nəfər göyçaylının günahı? Hansı səbəbdən Məmmədovlar toxunulmazdır?"

**V.İsgəndərli bildirib ki, 7 il əvvəl nəqliyyat naziri Ziya Məmmədov xalası oğlunu rayona icra başçısı təyin etdirib:** "2000-ci illərdə Rusiya bazarlarında pomidor və badımcan alveri edən Mansur Məmmədov Göyçaya icra başçısı təyin edildi. Ziya Məmmədovun əsas məqsədi Göyçayda olan 20-yə yaxın obyektinə nəzarət etmək idi. Onun Göyçayda 3 zavod, 8 hektar sahədə balıq gölü, Potu kəndində hər birinin dəyəri milyonlarla ölçülən 2 villası, helikopter meydançası, Qaraməryəm kəndində ipək yolunda istifadə olunan və təbiətin bu millətə bəxş etdiyi tükənməz çınqıl dağı, Hüngütlü kəndində dəyərləri milyonlarla ölçülən 2 ədəd göllə əhatə edilmiş villaları var. Mansur Məmmədov Ziya Məmmədovun Göyçaydakı mal-mülkünə nəzarət edir və özünün də varidatını böyük iştahla artırmağa girişib. İcra başçısı olduğu müddətdə Heydər Əliyev Fondunun himayəsində olan valideynsiz uşaqların məktəbinin 1 hektar bağ sahəsini sotu 10 min manatdan imkanlı adamlara satdı. Bu gün həmin yerdə Milli Məclisin deputatı Elxan Süleymanova məxsus 7 market var. Bu azmış kimi, Nizami küçəsində məktəblilərin istifadə etdikləri səkiləri, təhsil şöbəsinin binasını da satdı. Sonra rayonda pulyığan kimi tanınan Ruslan Əlizadənin qohumlarının adına Statistika İdarəsinin binasını özəlləşdirdi. Orada "Şərab dünyası" marketini açdı. Mansur Məmmədov nəinki xalqa qarşı, hətta qulluq etdiyi quruluşa da xəyanət edir".



Vidadi İsgəndərli

**V.İsgəndərli deyib ki, icra başçısı 2013-cü ildə Heydər Əliyev Muzeyini ləğv edərək Göyçayın Tarix Muzeyini ora köçürdüb:** "Tarix Muzeyini sökdürərək 4 mərtəbəli obyekt tikdirdi. Mansur Məmmədov ildə 4 dəfə istirahətə gedir. 2 dəfə Şimalı Qafqaz kurortlarına, 2 dəfə xarici ölkələrə. Onun Göyçayla gözü doymayıb, qonşu İsmayıllı rayonunun ərazisinə də keçib. Belə ki, İsmayıllı rayonunun Buynuz kəndində Ziya Məmmədov, Elton Məmmədov, deputat Elxan Süleymanovun villalarının yanında milyonlarla dəyərində villa tikdirib. Hər il "Nar bayramı" adı altında imkanlı adamlardan, büdcə təşkilatlarından 100 min manatlarla vəsait yığır. 2010-cu ildə isə o, Heydər Əliyev Mərkəzinin tikintisi zamanı imkanlı adamlardan, büdcə təşkilatlarından, sadə insanlardan, kiçik sahibkarlardan, hətta xadimələrdən belə pul yığaraq 2 milyon manatı mənimsədi. Bələdiyyə pullarına da o hər il iş görmək adı altında sahib çıxır. Mansur Məmmədov sonuncu "qəhrəmanlığı" isə bu yaxınlarda baş verib. Belə ki, o, Heydər Əliyev Muzeyinin bir hissəsini bir sahibkara market tikilməsi üçün 60 min manata satıb".



Ziya Məmmədov

### Anar Məmmədov Şəmsəddin Hacıyevin əvəzinə Göyçaydan deputat seçiləcək?

**V.İsgəndərli deyib ki, icra başçısının yaratdığı dözülməz şəraitə görə son 7 ildə rayonu xeyli göyçaylı tərk edib.**

❑ E.MƏMMƏDƏLİYEV

# Gülər Əhmədovaya YAP-dan "yox" cavabı

## "Üzərində hələ ki məhkumluq var"

**"Gülər Əhmədovanın Yeni Azərbaycan Partiyasına qayıtması bu gün partiyada müzakirə olunmur". Bunu APA-ya açıqlamasında YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirib.**

O qeyd edib ki, G.Əhmədovanın üzərində hələ ki məhkumluq var: "Bu məhkumluq bitdikdən sonra o, hansısa rayon təşkilatına müraciət edə bilər və onun müraciətinə də müvafiq cavab verilər. Cavabı da elə müraciət etdiyi rayon təşkilatı verə bilər. Yəni bu, YAP-ın mərkəzi aparatının, İcra Katibliyinin konfidensiyasına daxil olan məsələ deyil. Bu barədə rayon təşkilatı özü qərar verəcək, çünki məsuliyyəti də o özü daşıyır".



Gülər Əhmədova

Qeyd edək ki, YAP Yasamal rayon təşkilatının sədri Fikrət İsmayılov mətbuata açıqlamasında deyib ki, Gülər Əhmədovanın partiya üzvlüyünə qəbul edilməsi yuxarı təşkilatların ona qarşı olan münasibətindən asılıdır.

Xatırladaq ki, fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayevin yaydığı qalmaqallı videodan sonra Gülər Əhmədova mandatından imtina edib və barəsində həbs-qətimkan tədbiri seçilib. G. Əhmədova Cinayət Məcəlləsinin 178.3.2-ci (etibardan sui-istifadə etməklə özgənin külli miqdarda əmlakını ələ keçirmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələri ilə təqsirləndirilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə G.Əhmədova 3 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan təqsirləndirilən şəxsin vəkili Əfşər Talıbov isə apelyasiya şikayəti ilə məhkəməyə müraciət edib. Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq olunmaqla Gülər Əhmədova barəsində 3 il sınaq müddəti təyin olunmaqla cəzası şərti hesab edilib.

**Noyabrın 25-dən 26-na keçən gecə naməlum şəxslərin yandırmağa cəhd etdiyi Qaraçuxur məscidi bir gün sonra fəaliyyətini bərpa edib. Bu barədə APA-ya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Siyavuş Heydərov bildirib. Heydərov qeyd edib ki, məsciddə təmir işləri artıq başa çatdırılıb, ibadət bərpa olunub.**

# Qaraçuxur məscidindəki təxribatla bağlı yeni təfərrüat

## Dini Komitə məscidin yandırılmasına cəhdin arxasında xarici amilin olduğuna işarə edir...



Cümə namazının da məsciddə qılınacağını qeyd edən komitə rəsmisi hadisənin törədilməsi ilə bağlı versiyalarını da açıqlayıb: "Bu məsciddə həm şiə, həm də sünni əhli bir yerdə ibadət edib, heç vaxt da problem, sünni və şiələr arasında gərginlik olmayıb. Ona görə də bizim qənaətimiz odur ki, bunu üçüncü qüvvə törədib. Xüsusilə Məhərrəm ayında bu hadisəni yaratmaqla Azərbaycanda sünni-şiə qarşıdurmasında maraqlı ola biləcək qüvvələr var. Bu qüvvəyə konkret hansısa ölkədən dəstək verildiyini gözləmirik. Ola bilər ki, hadisə hansısa ölkədəki radikal qruplaşma tərəfindən planlaşdırılıb".

**Qeyd edək ki, komitə sədri Mübariz Qurbanlı kənar qüvvələrə diqqət çəkib. Sitat:** "O məsciddə indiyədək dini baxımdan qarşıdurma, mübahisə müşahidə olunmayıb. Bu hadisə də indi araşdırılmalıdır. Bunun kökündə hansı xəttin olması diqqətlə araşdırılıb öyrəniləcək". Hadisənin dini təriqətlər arasında mübahisə zəminində baş verməsi ilə bağlı yayılan fikrə komitə sədri belə cavab verib ki, hər şey araşdırmadan sonra bəlli olacaq və açıqlanacaq.

Yeri gəlmişkən, Qaraçuxur məscidi Bakıda sələfilərin kütləvi şəkildə ibadət etdiyi məscidlərdən biridir. Eyni zamanda məscidin həm də şiə icması mövcud olub. Bir zamanlar Türkiyə tərəfindən inşa edilən ibadət evinə uzun müddət türkiyəli din xadimləri imamlıq edib. Ancaq sonradan xarici vətəndaşlara dini təbliğatı qadağan edən qanuna əlavələr qüvvəyə mindikdən sonra hökumət digər ölkələrdən olduğu kimi, türkiyəli din xadimlərini də ölkədən çıxardı.

Bundan sonra Qaraçuxur məscidinə QMİ-nin təyin etdiyi axund fəaliyyət göstərməyə başlayıb, eyni zamanda məsciddə cəm olan sələfi camaatının öz imamları olub.

Ancaq digər ibadət ocaqları kimi Qaraçuxur məscidində də bütün məzhəblərin ardıcılları ibadət ediblər və məsciddə bu günə qədər hansısa ciddi narahatlıq doğuran narazılıq və ya qarşıdurma həqiqətən baş verməyib. İndi isə qəflətən kimlərsə sakit bir məsciddə gərginlik yarada biləcək təxribata yol verib.

Yada salaq ki, ötən həftə Sumqayıtda məscidlərdən birinin divarına boya ilə "Allah yoxdur" yazılmışdı. Hər iki hadisə arasında birbaşa bağlantı olmasa da, onların dini zəmində gərginlik yaratmağa hesablandığı ayındır. Daha bir diqqətçəkən detal isə odur ki, DQİDK-in keçmiş MTN əməkdaşı olan vəzifəli məmuru bu işdə xarici qüvvələrin təxribatı olmasına işarə vurur.

Onu da yada salaq ki, 6 il əvvəl - 2008-ci ilin avqustun 17-də Bakıda "Əbu Bəkr" məscidi kimi tanınan Nərimanov Rayon Cümə məscidinə qumbara atılmışdı. Bundan 5 gün əvvəl Bakıda elektrik transformatorlardan birində qumbara partlaması nəticəsində iki nəfər dünyasını dəyişmişdi. Sonradan məhkəmə zamanı bu hadisənin də terror olduğu üzə çıxdı. O da məlum oldu ki, hər iki hadisə terror və təxribat xarakterli olub.

Hazırda Azərbaycanın da daxil olduğu bölgədə dini zəmində gərginliyin olması faktdır. İlk baxışdan belə görünür ki, Azərbaycanda dini zəmində gərginliyi daha da artırmaq istəyən qüvvələr var. Bu tip təxribatlar yerli dindarlar arasında gərginliyi gücləndirə, qarşılıqlı münasibətlərə mənfi təsir göstərə bilər.

Burda ən çox diqqət çəkən və narahatlıq doğuran məqam isə dini zəmində gərginlik yaradacaq hərəkətlərin son dövrlərdə bir çox xarici ekspertlər tərəfindən tez-tez Azərbaycan və Qafqazda İŞİD təhlükəsinin olması ilə bağlı səsləndirdikləri iddialar fonunda baş verməsidir. Görünən odur ki, Azərbaycanda da dini zəmində gərginliyin olmasında maraqlı qüvvələr var. Özü də bu qüvvələr yalnız radikal islamçı qruplar deyil. Başqa dairələr də bunda maraqlıdırlar.

Belə təxribatlara qarşı yeganə sanballı qüvvə isə Azərbaycan xalqının özüdür. Çünki istənilən halda dini zəmində gərginlik və qarşıdurmadan əziyyət çəkən xalq olacaq. Bu səbəbdən ictimaiyyətin savadlı və intellektual kəsimi cəmiyyəti dini zəmində gərginlikdən və bölücülükdən çəkindirməyə çalışmalıdır.

❑ **KƏNAN**

# Nazirdən "Hafka"nı aşağılayan sözlər

## "Vəziyyəti ağırdır..."

**Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov Fransa mətbuatına açıqlamasında "Hafka" ləqəbi ilə tanınan "Bakı"nın prezidenti Hafiz Məmmədovun "Lans"a sponsorluq edə biləcək durumda olmadığını bəyan edib.**



Azad Rəhimov

Azerisport.az xəbər verir ki, nazir deyib: "Hafiz Məmmədov bundan sonra da "Lans"a ən azı azarkeş kimi dəstək olacaq. Amma indi o, bu komandanı maliyyələşdirəcək durumda deyil. İflas? Bu barədə elə də məlumatlı deyiləm. Amma bilirəm ki, indi vəziyyəti ağırdır".

# Deputatdan televiziyalara sərt ittihamlar

## Musa Qasımlı: "Sanki adamlarımızı bir-birindən yadlaşdırmağa, cəmiyyəti parçalamağa yönəlmiş bir siyasəti yerinə yetirirlər"

**"İndi elə dövrdür ki, televiziya istənilən xalqı istədiyi şəklə sala bilir. Televiziyalarımızda bəzi yersiz, düşük şou proqramlarının olması, törədilən cinayətlər haqqında məlumatların verilməsi və s. ziyanlıdır". Bunu lent.az-a müsahibəsində millət vəkili, professor Musa Qasımlı bildirib.**



Musa Qasımlı

Onun sözlərinə görə, Azərbaycanda sanki insanın insanı öldürməsindən, oğurluqdan başqa bir iş yoxdur. "Axı, bu ölkə tamamilə yenidən tikilir, qurulur, insanların həyat şəraiti yaxşılaşır, bir zamanlar insanların atla getdiyi kəndlərə asfalt yollar, qaz və su olmayan kəndlərə qaz və su boru kəmərləri çəkilir. Qocalar evinə baş çəkilir, qonşu qonşuya kömək əlini uzadır. Televiziya proqramları sanki adamlarımızı bir-birindən yadlaşdırmağa, cəmiyyəti parçalamağa yönəlmiş bir siyasəti yerinə yetirirlər".

Televiziya proqramları aparıcılarının bəzilərinin səviyyəsi çox aşağıdır. Dövlətimizin bütövlüyünə və milli birliyimizə xələl gətirən ifadələri nə qədər istəsəniz aparıcıların nitqində eşidə bilərsiniz. İndi yerindən duran müğənni olmaq istəyir. Başa düşürəm, insanın istəyi normal bir şeydir, istəyi qadağan etmək olmaz. Fikrimcə, ölkəmizdə KİV-lər haqqında qanunlar daha mükəmməl işləməlidir. Nə qədər maliyyə yükü daşısa, kadr, efiri doldurmaq çətinliyi olsa da, ölkəmizdə uşaq televiziyası yaradılması üçün ciddi səylər edilməli, lazımi işlər görülməlidir. Evdə azyaşlı uşaqların cizgi filmlərini seyr etdikdən sonrakı davranışlarını bir müşahidə edin. Rusiya telekanallarında gedən filmlərə, məsələn,"Maşa və Ayı"nı seyr edənlər ona, Türkiyə telekanallarında "Pepe"yə baxanlar isə buna bənzəmək istəyirlər, eyni hərəkətləri edirlər. Bizim uşaqlarımız nəyə görə ona-buna bənzəməyə çalışmalıdırlar?". **Millət vəkili Azərbaycanda uşaq televiziyasının vacibliyini də qeyd edib:** "Uşaq TV olarsa, balacalar təkcə böyüklərdən deyil, eyni zamanda kanaldan davranış, oturub-durmaq, yemək qaydalarını, böyüyə hörməti, kiçiyə qayğını, torpaq, vətən sevgisini, milli adət-ənənələrimizi və s. məsələləri daha yaxşı öyrənərlər, bacarıqlarını inkişaf etdirərlər. Ölkədə Uşaq TV-nin indiyədək olmamasını ziyanlı hesab edirəm. Belə bir TV-nin yaradılmasını strateji əhəmiyyətli bir məsələ sayıram".

# Polis rəisinin öldürdüyü iddia edilən qadınla bağlı yeni məlumatlar

## Arzu Zeynalova narkotikin təsirindən ölməyib; o, heç siqaret də çəkmirmiş

**Sabiq polis rəisi Rza Hacıyevin Türkiyədə öldürdüyü iddia edilən qadınla bağlı araşdırmamız davam edir. Əldə etdiyimiz son məlumatlar 24 yaşlı Arzu Zeynalovanın narkotikdən və ya digər zərərli vərdişlərdən yaranan səbəblərdən ölməsini istisna edir. A.Zeynalovanı yaxından tanıyan qaynağımız onun narkotikdən uzaq olduğunu deyib: "Arzu spirtli içkilərdən, narkotikdən uzaq idi. O, heç siqaret də çəkmirdi".**



Rza Hacıyev

Qaynağımız Azərbaycan hüquq-mühafizə orqanlarını bu işi araşdırmamaqda ittiham edib: "Rza Hacıyev kimdir ki, onu çağırıb bu cinayətin necə baş verməsini soruşmurlar? Niyə ondan soruşan yoxdur ki, Arzu Zeynalovanın yasına 8 min manatı hansı səbəbdən xərcləyib? Məgər o, dünyasını dəyişən hər kəsə pul xərcləyir?"

Qaynağımız məsələnin araşdırılması üçün Türkiyə hüquq-mühafizə orqanlarına müraciət edələcəyini də söyləyib. Qeyd edib ki, Azərbaycan tərəfi bir vətəndaşının ölümünü araşdırmasa da, Türkiyə hüquq-mühafizə orqanları belə məsələləri sona qədər araşdırır: "Gec-tez Arzunun ölümünün səbəbi üzə çıxacaq. Bilinəcək ki, onu kim öldürüb".

Əldə etdiyimiz məlumatlara görə, R.Hacıyevlə Arzu Zeynalova 7-8 il öncə tanış olublar. Həmin vaxt R.Hacıyev Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsini daşıyıb. Həmin vaxt A.Zeynalovanın 21-22 yaşı olub. Bu ilin sentyabrında isə A.Zeynalovanın Türkiyədə, məşhur milyarder Telman İsmayılova məxsus "Mardan Palace" hotelində meyiti aşkarlanıb.

Yayılan xəbərlərə görə, A.Zeynalova həmin hotelə R.Hacıyevlə gedib. Aralarında yaranmış mübahisə zəminində sabiq polis rəisi qadını döyüb və o ölüb. Onun meyiti Bakıya gətirilərək "Qurd qapısı" adlanan qəbiristanlıqda dəfn olunub.

Aldığımız son məlumata görə, 1988-ci il təvəllüdlü Arzu Qəmbər qızı Zeynalovanın əvvəllər səhhətində problemlər olmayıb. Buna baxmayaraq, onun ölümünün "ürək tutması" diaqnozu ilə ört-basdır edilməsi yönündə iş aparılır. R.Hacıyev bu qətlin təsadüfi ölüm kimi qiymətləndirilməsi üçün bütün imkanlarını işə salıb. Onun bu iş üçün böyük vəsait xərcləməsi də gələn xəbərlər sırasındadır. Qeyd edək ki, A.Zeynalovanın yaxınlarından biri redaksiyamıza ünvanladığı məktubda qadının Rza Hacıyevin sevgilisi olduğunu və Türkiyəyə istirahətə gedəcəkləri haqda məlumatlı olduğunu demişdi. Həmin qadın redaksiyamıza göndərdiyi məktubda yazırdı: **"Mən hazırda İstanbulda yaşayıram. Arzu Antalyaya getməzdən əvvəl mənimlə telefonla danışdı. Dedi ki, mən Rza ilə Antalyaya gedəcəyəm, ordan da İstanbula gələcəyəm. Arzunu o adam öldürüb. Bunu mən bilirəm. Onlar bərabər idilər. Mən "Mardan Palace" hotelindən də məlumat alacağam. O adamın oraya nə vaxt giriş-çıxış elədiyini isbatlamağın qarşısı alınır, hər şeyi gizləyirlər. Amma mən bu ölümün gizlinlərinin ortaya çıxmasını istəyirəm".**

Polis polkovniki olan R.Hacıyev bu ilin fevralında Neftçala Rayon Polis Şöbəsinin rəisi vəzifəsindən yaş həddi ilə bağlı azad olunaraq təqaüdə göndərilib. O, sonuncu iş yeri olan Neftçala RPŞ-yə Bakının Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsindən çıxarılandan aylar sonra, 2009-cu ildə təyin olunmuşdu. 2008-ci ildə R.Hacıyevi Sabunçu RPİ-nin rəisi vəzifəsindən evində baş verən müdhiş oğurluğa görə çıxarmışdılar.

Həmin vaxt R.Hacıyevin sürücüsü polis rəisinin ailə üzvlərindən biri ilə evdən qızıl-zinət və xeyli pul götürərək Rusiyaya qaçmışdılar. Sonradan R.Hacıyevin ümumilikdə 1 milyon manatlıq mal-pulunun oğurlandığı bildirildi. Bu hadisənin sorağı ölkə rəhbərliyinə çatandan sonra ən yuxarı səviyyədə R.Hacıyevin tutduğu vəzifədən azad edilməsi istənilmişdi. Arqument kimi isə "öz evini qoruya bilməyən rəis rayonu necə qoruya bilər" fikri səsləndirilmişdi.

R.Hacıyev qətllə bağlı xəbəri təkzib etmişdi. O, Türkiyədə sonuncu dəfə bu ilin yazında olduğunu demişdi. Sabiq rəis hazırda Bakıda istirahət etdiyini söyləmişdi. Bildirək ki, redaksiyamıza daxil olan məlumata görə, R.Hacıyevi Türkiyədə, "Mardan Palace" hotelində 24 yaşlı Arzu Zeynalovanı öldürməsi haqda yayılan məlumatlarla bağlı dindiriblər. Hələlik şahid qismində dindirilən sabiq rəisin istintaqa cəlb olunma ehtimalının böyük olduğu da bildirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən R.Hacıyevin iş üzrə dindirilməsi xəbərini təkzib etməmişdilər. Sorğumuza verilən cavabda Rza Hacıyevin istintaqa çağırılaraq dindirilməsi təkzib olunmurdu. Mövzuya qayıdacağıq.

❑ **E.HÜSEYNOV**



# Sələfilərin lideri yandırılan məsciddən danışdı

## Qamət Süleymanov: "Həbslər çıxış yolu deyil..."

**"Əbu-Bəkr" məscidinin imamı Hacı Qamət Süleymanov "Yeni Müsavat"a müsahibə verib. Hacı Qamət Qaraçuxur məscidinin yandırılması, Sumqayıtda həbs edilən sələfi Zöhrab Şıxəliyev və digər proseslərdən danışıb.**

***- Hacı, Qaraçuxur məscidini, sizcə, kim və niyə yandıra bilərdi?***

- Ümumiyyətlə, məscidin yandırılması çox maraqlı hadisədir. Çünki Azərbaycanda ilk dəfədir ki, məscidi yandırırlar. Ona görə də hamı kimi mən də gözləyirəm, görək təhqiqatın sonu necə olacaq.

***- Ola bilərmi ki, bunu xəvariclər, ya başqa radikal görüşlü şəxslər edib?***

- Birmənalı xəvariclərin ayağına da yazmaq olmaz. Radikalizm təkcə xəvariclərdə yoxdur. Şiələrin, sünnilərin arasında da radikallar var. Bu, görünür ki, psixoloji vəziyyəti yerində olmayan adamın işidir. Ola bilsin ki, hansısa şəxslərin təxribat xarakterli hərəkətidir. Çünki Qaraçuxur məscidində bundan qabaq da bir neçə dəfə təxribata cəhd olunub.

***- Bəziləri deyirlər ki, Qaraçuxur məscidindən Suriyaya gedənlər olub, siz bu məscidə gedirdinizmi?***

- Çox nadir hallarda. Ümumiyyətlə, bəli, Suriyaya gedənlər olub. Ancaq bunu məscidin boynuna biçmək olmaz. Məscidin o zaman günahı olar ki, orada radikalların Suriya, İraq getməsinə görə təbliğat aparılsın. Məsciddə mən bildiyimə görə, belə təbliğata yol verilməyib. İkincisi, radikallar heç zaman məscidə getmirlər. Onlar hesab edirlər ki, məscidin imamını dövlət təyin edir. Radikallar isə dövləti tanımırlar və onun təyin etdiyi imamı da kafir sayırlar.

***- Son dövrlər hökumət bu istiqamətdə fəallaşıb, Sumqayıtda evini məscid edən sələfi tutuldu, dini komitə sədri tez-tez bəyanatlar verir. Əslində nə baş verir bəs?***

- Mən də müşahidə edirəm ki, müəyyən proseslər gedir. Ola bilsin ki, hökumət bu istiqamətdə sərt addımlar atmağa başlayıb. Ancaq radikalizmə qarşı həbslərin həyata keçirilməsi yol deyil. Əvvəla, tutulanlar radikalizmə qarşı çıxan adamlardır. Yəni radikalları həbs etmirlər. İkincisi, dünya təcrübəsi göstərir ki, radikalların həbsi təhlükəni sovuşdurmur. Sumqayıtda tutulan Zöhrab Şıxəliyev radikal deyildi, radikalizmə qarşı idi, dövlətə, camaata yaxşılıq etmişdi. Sadəcə, hədəfi düzgün vurmurlar, radikal olmayanları həbs edirlər. Məscidlərin bağlanması radikallara sərf edir və onların əlinə bəhanə verir. Onlar bu addımlardan istifadə edir, narazıları öz yanına cəlb edirlər. Yaxşı olar ki, məscidləri açsınlar, sağlam fikirli imamlar təyin etsinlər, bu şəkildə problemi həll etsinlər. .

***- Zöhrab Şıxəliyevin evindəki məscidə radikallardan gələn olubmu, onlara bu yoldan çəkinməyi tövsiyə etmisinizmi?***

- Mən belə halla qarşılaşmamışam. Radikallar o evə gəlmirdi. Əksinə, Zöhrab dərslər zamanı çıxışında qeyd edirdi ki, kim radikaldırsa, bura gəlməsin, belə adamları məsciddən çıxarırdı.

***- Mübariz Qurbanlı bəyan etmişdi ki, radikal qüvvələrin iqtisadi bazaları məhv ediləcək. Sizdə belə məlumat varmı ki, Azərbaycanda onların biznes, maliyyə imkanları olsun?***

- Heç bir məlumatım yoxdur. Sələfilik pulla yayılmayıb. İnanmıram ki, radikalların geniş maliyyə qaynaqları olsun. Sadəcə, onlara qarşı fikir mübarizəsi aparılmalıdır.

Mən də, başqa sələfilər də çıxışlarımızda tez-tez alternativ fikir ortaya qoyuruq, çağırışlar edirik. İnsanları radikallıqdan uzaqlaşmağa dəvət edirik, dövlət də məscidləri açmalıdır, bu vəziyyət dövlətə ziyan edir. Ona görə həm Qaraçuxur məscidi fəaliyyətini davam etdirməlidir, həm "Əbu-Bəkr" məscidi, o cümlədən Sumqayıtda olan məscidlər açılmalıdır. Bizim hələ ki Mübariz Qurbanlıya müraciətimiz olmayıb. Ancaq niyyətimiz var.

❑ **Emil SALAMOĞLU**

# Xəstə siyasi məhbuslar azadlığa buraxıla bilərmi?

**Həbsdəki hüquq müdafiəçiləri Leyla Yunus və İntiqam Əliyevin səhhətində olan problemlər artıq təhlükəli həddə çatıb.**

**Leyla Yunusun ailəvi dostu, həkim Azad İsazadənin dediyinə görə, onun vəziyyəti gün-gündən pisləşir. A.İsazadə L. Yunusun mədəsində kəskin ağrılar olduğunu və onun 12 kiloqram arıqladığını söyləyib:** "Dişləri, saçları tökülür. Şəkəri, təzyiqi yüksəkdir, gözləri pis görür, zəifləyib. Beş addımdan artıq gedə bilmir. Ayaqları şişib".

İnsan Haqları üzrə İşçi Qrupun üzvləri isə İntiqam Əliyevlə bağlı Baş Prokurorluğa müraciət ünvanlayıblar: Müraciətdə İ.Əliyevin ev dustaqlığına buraxılması və müalicəsinə şərait yaradılması istənilir.

Qeyd etdiyimiz kimi, hər iki şəxsin durumu ağır olaraq qalır. Bəs görəsən, millət vəkilləri, iqtidaryönlü və müxalif partiyaların rəhbərlərinin bu məsələdəki mövqeyi necədir? Onlar hökumətə hansı addımlar atmağı məsləhət görürlər?



**Zahid Oruc:**
"İntiqam Əliyevlə bağlı məsələyə fərqli yanaşıla bilər"



**Mirmahmud Mirəlioğlu:**
"Onların başına nəsə gəlsə, bu, Azərbaycan hökuməti üçün "üz qarası" olacaq"

**Deputat Zahid Orucun fikrincə, ilk növbədə bu məsələyə hüquqi qiymət verilməlidir:** "Mən Leyla Yunusla İntiqam Əliyevin adlarının yanaşı çəkilməsini istəməzdim. İndi məhz səhhətində olan problmlərə görə onların adı eyni müstəvidə hallanır. İntiqam Əliyev üçün fərqli yanaşma mümkündür. Lakin Leyla Yunus haqqında qanunun tələb edildiyi kimi hərəkət etmək lazımdır. Hazırkı dövrdə Leyla Yunusun məhkəmə işi başa çatmayıb, o, məhkəmə qarşısında dayanmayıb, cəzası da verilməyib. Belə olan təqdirdə sanki bir hüquqi qeyri-müəyyənlik vəziyyəti yaranır. İkinci tərəfdən isə bu president rolunda çıxış edəcək. Necə olur ki, hansısa beynəlxalq dairələr ayrıca götürülmüş şəxslərə münasibətdə belə əlahiddə maraq, qayğıkeşlik, humanizm nümayiş etdirirlər. Ancaq hər hansı başqa cinayət törətmiş, istintaq altında olan insanlar üçün belə bir yanaşma yoxdur. Sabah istənilən adamın ixtiyarı var ki, özü üçün belə hüquq üstünlükləri tələb etsin. Ona görə də mən indiki halda məhkəməyə qədər gözləməyin və bundan sonrakı hökmlər əsasında axtarılan digər humanist situasiyaların tərəfində olardım. Bir daha deyirəm ki, bu məsələdə sanki layihə kimi görünən, əvvəlcədən razılaşdırılmış, sinxronlaşdırılmış plan kimi təzahür edən hallar var. Leyla Yunusun xarakterinə, onun indiyəqədərki fəaliyyətinə, hüquq müdafiəçisi adı altında başqalarının haqlarını istismar edərək qazandığı böyük vəsaitlər və əmlak fonunda onun bunu da dəmir barmaqlıqlar arxasından təşkil etdiyinə əminəm. Əlbəttə, biz dərhal xanıma humanizm deviz ilə silahlananların hücumunu görəcəyik. Əgər biz hüququn aliliyindən danışırıqsa, hamı məhkəmənin qərarını gözləməlidir. Hesab edirəm ki, dövləti qeyri-humanizmdə qınamamaq üçün ədliyyənin çevrəsində olan müvafiq tibbi qurumların dəqiq ekspertizaları, müayinələri olmalıdır, bundan sonra məsələyə hüquqi qiymət verilə bilər.

Lakin İntiqam Əliyevlə bağlı məsələyə fərqli yanaşmanın mümkünlüyünü mən qəbul edirəm. Düşünürəm ki, bu yöndə çıxarılacaq hər hansı fərqli qərarlar gələcəkdə onun yayınmasına, gizli niyyətinə və sairə səbəb olmaz".

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə səhhətində problem olan siyasi dustaqlara qarşı humanist addımın atılmasını həm hakimiyyətin, həm cəmiyyətin, həm də həmin şəxslərin mənafeyi baxımından müsbət qiymətləndirib:** "Bizdə olan məlumata görə, İntiqam Əliyevin vəziyyəti çox ağırdır. Onun bu vəziyyətini nəzərə alaraq Azərbaycan hökuməti özündə təpər tapmalıdır və bu məsələni ədalətlə, insafla həll etməlidir, onların haqqındakı həbs-qətimkan tədbirini dəyişdirməlidir. Onsuz da onlar heç yerə getməyəcəklər. Onların müalicəsini təşkil etmək lazımdır. Bu müalicə təcridxana şəraitində effekt verməyəcək. Bu, bizim hamımızdan çox Azərbaycan hökumətinə lazımdır ki, bu qınaqdan qurtulsun".

**M.Mirəlioğlunun sözlərinə görə, əgər onların başına nəsə gəlsə, bu, Azərbaycan hökuməti üçün də, cəmiyyət üçün də "üz qarası" olacaq:** "Azərbaycan hökuməti bu qədər acizdir ki, xəstə vətəndaşını müalicə etdirə bilmir, həbsxanada ölümə tərk edir? Axı onun imkanı da var, gücü də var. Dövlət çox böyük vəsait hesabına digər xəstələri müalicə etdirir, hətta xaricə də göndərir. İndi bu məsələ səlahiyyətli şəxslərin vicdanına qalıb. Onlar hər zaman bununla bağlı cavab verməli olacaqlar".

❑ **Nərgiz LİFTİYEVA**

# Hakimiyyətlə dialoq təşəbbüsü müxalifət düşərgəsində gərginlik yaradıb

## Milli Şuranın rəhbərliyinə daxil olan şəxslərlə təşəbbüskarlar arasında söz atışması; Sərdar Cəlaloğlu: "Bizə kənardan məsləhətçi lazım deyil"



Sərdar Cəlaloğlu

**Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan partiyaların ( KXCP, ADP, ALDP və AXP) sədrlərinin ölkədəki ictimai-siyasi vəziyyəti müzakirə etmək məqsədilə Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla görüş üçün müraciət etməsi AXCP və Milli Şura üzvləri tərəfindən "topa tutulur". Milli Şuranın üzvü İbrahim İbrahimlinin ardınca qurumun Koordinasiya Mərkəzinin digər üzvü Eldəniz Quliyev dialoq təşəbbüsündə bulunanların fəaliyyətlərinin şübhə doğurduğunu bildirib. E.Quliyev deyib ki, fəaliyyətləri şübhə doğuran siyasi partiya sədrləri tərəfindən ortaya atılan dialoq təklifi sadəlövhlükdür.**

Müraciət müəlliflərindən KXCP sədri Mirmahmud Mirəlioğlu onlara qarşı belə iddiaları səsləndirənlərin müalicəyə ehtiyacları olduğunu bildirdi: "Biz kimsənin işinə qarışmırıq, kimsənin də haqqı yoxdur ki, bizim işimizə qarışsın. Biz məhbusların azad edilməsi üçün iş görməliyik, əlimizdən gələni də edirik. Kim baramizdə nə deyirsə, özü bilər. Bu məsələləri hər kəsin öz vicdanına buraxırıq. Kimsə şübhələnirsə, müalicəsi ilə məşğul olsun".

**Dialoqun baş tutub-tutmayacağına gəldikdə, M.Mirəlioğlunun sözlərinə görə, bu istiqamətdə müəyyən açıqlamalar verilib, lakin rəsmi cavab yoxdur:** "Əli Həsənovun açıqlaması var, biz də mövqeyimizi bildirmişik. Dialoqun forması və vaxtı barəsində ictimai-siyasi şöbə addım ata bilər. Kimsə də bundan qısqanacaqsa, öz işidir. Bizim gündəliyimizdə nə varsa, onu müzakirə etməyə hazırıq. 1993-cü ildən bu yana məsələlərə belə yanaşmalar indiki vəziyyətə gətirib çıxarıb".

**Sosial şəbəkələrdə dialoq təşəbbüsü ilə çıxış edən partiyalara qarşı kampaniyaya başlanıldığı, onların ciddi tənqid edildiyinə gəldikdə, KXCP sədri teleqraf.com-a deyib ki, Azərbaycanda sosial şəbəkə deyil, sosial söyüş şəbəkəsi var:** "Hər kəsin valideynlərindən aldığı tərbiyə sosial şəbəkə deyilən şoğərib hesabına üzə çıxdı. Kimin kim olduğu bəlli oldu. İnsan monitorla üz-üzə qalanda, yazı yazanda mahiyyəti nədirsə, özünü ortaya qoyur. Əllərindən bir şey gəlmirsə, söyməkdə davam etsinlər. Ancaq biz bunlara layiq deyilik, kim nə deyirsə, həm də dediyinin bir ucu da özünə aiddir".

**Görüş üçün müraciət edən ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, onları ittiham edənlərin özləri o qədər gizli, qaranlıq işlərin iştirakçısı olublar ki, cəmiyyətə açıq şəkildə bəyan edilən dialoq təşəbbüsündə də nə isə gizlilik axtarırlar:** "Dialoq təşəbbüsünü cəmiyyətə ilk gündən açıqlamışıq. Bəyan etmişik ki, bu təşəbbüs nə ilə bağlıdır. Yəni burada heç bir gizli şey yoxdur.

Biz cəmiyyətdə dialoqun olmasını vacib hesab edirik. Kimlərsə qarşıdurmaların olmasının tərəfdarıdırsa, öz işləridir. Daha yaxşı olar ki, məsələlərlə bağlı hər kəs öz peşəsinə, təcrübəsinə və ağlına uyğun münasibət bildirsin. Eldəniz Quliyev bizim sənəti ilə bağlı məsələdən danışsa, buna hörmətlə yanaşaram. Çünki onun sənətlə bağlı məlumatı məndən çox ola bilər. Yox, əgər gəlib illərdir siyasətdə olan partiya sədrlərinə yol göstərir və ağıl verirsə, bu, etikadan kənardır. Mən nə vaxt Eldənizə desəm ki, get kinonu belə çək, aktyor oradan tullansın, filan rol bu cür olmalıdır, onda Eldəniz desin ki, get, öz işinlə məşğul ol. Onlar hesab edirlərsə ki, bu yol səhvdir, getməsinlər. Biz də onların getdiyi yolda bəzi nüansları səhv hesab edirik və o yolu getmirik. Bir şəxsin partiyaların ümumi işi ilə bağlı fikir deməsi, ağsaqqallıq göstərməsi doğru deyil. Dialoq təşəbbüsündə olan partiya sədrlərinin hər birinin Eldəniz Quliyev kimi onlarla məsləhətçisi var. Bizə kənardan məsləhətçi lazım deyil".

❑ **E.SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistan yeni Qarabağ savaşına hazır deyil

## Vertolyot olayı ilə Azərbaycanın qətiyyətinə əmin olan düşmən əks-effektlə üzləşib; siyasi müşahidəçilər isə Ukrayna olaylarının tədricən yerini Güney Qafqaza dəyişdiyi barədə xəbərdarlıq edir; "müharibədə Rusiya Ermənistan tərəfdə olmayacaq..."

**Ermənistanın Azərbaycan torpaqlarında son təxribatçı təlimi nizamlama prosesinə olan kövrək ümidləri də dəfn elədi. Baş verənlərin, xüsusən də erməni tərəfinin duruma adekvat olmayan isteriyası fonunda yəqin ki, hələ uzun müddət yüksək səviyyəli hansısa təmasdan, danışıqdan söhbət gedə bilməz. Onsuz da prezidentlərin görüşündə bir illik fasilə elan edilmişdi...**



Azərbaycanlı girovlar - Dilqəm Əhmədov və Şahbaz Quliyevin üzərində Xankəndində düzənlənən təxribatçı "məhkəmə" prosesi və uydurma "soyqırımın" yaxınlaşan 100 illiyi nikbin perspektivi daha dumanlı edir.

*****

"Hazırda nə Ermənistan, nə də Azərbaycan qarşılıqlı kompromis və güzəştlərə hazır deyil". Belə bir açıqlamanı erməni elektron portalına müsahibəsində rusiyalı siyasi analitik **Aleksandr Krılov** söyləyib. "Azərbaycanda İrəvan xanlığının tarixən Azərbaycan xalqına məxsusluğu barədə iddia qaldırılıb. Ola bilsin, Bakıda kimsə İrəvan xanlığına iddiadan imtinaya Azərbaycanın Ermənistana kompromisi və güzəşt kimi baxır. Ancaq çətin ki, buna qarşılıq olaraq Ermənistan Qarabağ məsələsində mövqeyini dəyişsin" - deyib politoloq.

**Ekspert hazırkı situasiyada nizamlama prosesində sıçrayış gözəmir:** "Vəziyyət yalnız Ermənistan və Azərbaycanda daxili siyasi durumun kəskinləşməsi, yaxud Qafqaz miqyasındakı hadisələr, habelə Ermənistana və Azərbaycana İraq, Suriya kimi coğrafi yaxın dövlətlərdə gedən proseslərin təsiri altında dəyişə bilər. Xüsusən də söhbət İŞİD-dən gedir. Aydındır ki, İŞİD-in regionda aktivləşməsi bölgədəki situasiyanı radikal şəkildə dəyişəcək".

Lakin bir çox siyasilər və diplomatlar situasiyanın daha çox məhz Rusiya tərəfindən köklü dəyişə biləcəyini real sayır. Məsələn, Latviyanın xarici işlər naziri Edqars Rinkeviç Rusiya ilə separatçı Abxaziya arasında ortaq ordu yaradılması haqda iki gün öncə ratifikasiya edilən müqaviləni şərh edərkən bildirib ki, Ukraynadakı hadisələr yerini yavaş-yavaş Qafqaza dəyişir. Sitat: "Biz artıq görürük ki, Ukraynadakı hadisələr yerini Qafqaza dəyişir. Beynəlxalq birlik bu çağırışlara hazır olmalıdır".

*****

**Öz növbəsində konflikt zonasında son durumu, o sırada 12 noyabr vertolyot insidentini və hərbi əməliyyatların bərpası mümkünlüyünü şərh edən Rusiyadakı Strateji Təhqiqatlar Mərkəzinin direktoru Andrey İvanov düşünür ki, vertolyot olayı ilə Ermənistan ən əvvəl Azərbaycanın əsəblərini sınağa çəkmək, onun sayıqlığını yoxlamaq niyyəti güdüb (vesti.az):** "Hazırda bir çox müşahidəçilərin təsəvvürüncə, münaqişə "dondurulub". Və ümumən bu, iri dövlətləri, o cümlədən Rusiyanı qane edir. Heç kim, o sırada Moskvada regionda yeni müharibə arzulamır və heç kimin də tərəfində durmaq istəmir... Və qəfildən erməni hərbi vertolyotu Azərbaycan mövqelərində peyda olur. Təbii ki, Azərbaycan hərbçiləri qarşısında sual durub: təxribatın qarşısını almaq, yoxsa gülləyə tutulma riskinə tuş gəlmək? Və qərar verilib ki, öz həyatlarını riskə atmasınlar və vertolyot vurulub".

**Politoloqun qənaətincə, Ermənistan bununla yoxlamaq istəyib görsün, həlledici addımı atmaq üçün Azərbaycan rəhbərliyinin iradəsi çatacaqmı:** "Azərbaycan hərbçiləri də ərinmədilər və indi artıq İrəvanda fikirləşirlər ki, situasiyanı kəskinləşdirməyə dəyərmi? Vəziyyətin kəskinləşməsinə isə Ermənistan açıq-aşkar hazır deyil. Məqsəd məhz Bakının qətiyyətini yoxlamaq idi".




**Ekspert işğalçı tərəfinin olaya Moskvanın yumşaq reaksiyasından məmnun olmamasını isə yersiz sayır:** "Mən anlamıram ki, ermənilər Kremlin hansı reaksiyasını gözləməli idilər. Rusiya konfliktdə neytral mövqe tutur və özünün burada tərəflərdən birinin yanında durmasına yönəlik hər cür cəhdə müqavimət göstərir. Moskva Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Vertolyot Azərbaycan ərazisində vurulub. Demək, bu, Azərbaycanın daxili işidir. Reaksiyanın olmaması ilə Moskva Bakıya deyir: "Bu, sizin daxili işinizdi, özünüz bilərsiniz, necə lazım bilirsinizsə, elə də hərəkət edin" Bu halda, İrəvana bütün bu baş verənlərə aidiyyəti olmadığını bəyan eləməkdən savayı heç nə qalmır. Guya vertolyot "DQR"-ə məxsusdu və olaya İrəvanın heç bir aidiyyəti yoxdu. Belə qənaət hasil olur ki, Ermənistan sülh anlaşmalarına qarşıdır və beynəlxalq razılaşmanı pozur".

**Siyasi təhlilçinin sözlərinə görə, Kremldə yaxşı başa düşürülər ki, Qarabağ "haqq-hesabına" qarışmaq lazım deyil:** "Çünki bu, yalnız konfliktin körüklənməsinə gətirəcək. Yaxşı bəllidir ki, Ermənistanın öz maraqları var və bu maraqlar Rusiyanınkı ilə qismən üst-üstə düşür. Rusiyaya Ermənistan Güney Qafqazda bir müttəfiq kimi, Amerikanın regiondakı siyasətinin iflasının sübutu kimi lazımdır. Ancaq strateji tərəfdaş olan Azərbaycanla münasibətləri poza biləcək bəyanatları heç kim verməyəcək, İrəvanın Moskvaya elə də bəlli olmayan maraqları xətrinə müdaxiləyə heç kim getməyəcək".

**Politoloq əmindir ki, hazırda bütün postsovet məkanı bu və ya digər şəkildə Qərblə Rusiya arasında qarşıdurma coğrafiyasına çevrilib:** "Amerikanın diplomatları, QHT-ləri, təsir agentləri bütün postsovet ölkələrində vəziyyəti qarışdırmaq yönündə işləyəcəklər..."

Şübhə yox ki, bu, rusiyalı politoloqun subyektiv fikirləridir və onların bəziləri ilə razılaşmamaq, bəzilərini isə şübhəyə məruz qoymaq olar. Ancaq yüzdə yüz bir şey dəqiqdir ki, postsovet məkanı uğrunda Qərb-Rusiya mübarizəsə həqiqətən də gedir və həlledici fazasına daxil olub. Qarabağ ixtilaflının sonrakı taleyi də böyük ehtimalla və daha çox bu qarşıdurmanın yekunundan asılı olacaq.

# Pakìstandan Azərbaycana mühüm Qarabağ dəstəyì

## İslamabad Universitetində dərc olunan dərslikdə ermənilərin türklərə qarşı vəhşilikləri və ərazi iddiaları, Cümhuriyyət tarixi obyektiv və geniş əks olunub...

**İslamabadda fəaliyyət göstərən ən böyük ali məktəblərdən olan Allama İqbal Açıq Universitetinin tarix fakültəsinin nəşr etdirdiyi "Pakistan və dünya münasibətləri" adlı yeni dərslikdə Dağlıq Qarabağ münaqişəsinə geniş yer verilib. Dərsliyin "Pakistan və müsəlman dünyasının məsələləri" bölməsində yer alan yazının müəllifləri professor Fərhat Əkram və doktor Axtar Hüseyn Dağlıq Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu qeyd edirlər(AzərTAc).**




Bildirilir ki, Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin Azərbaycanın tarixi torpaqlarına kütləvi köçü başlanıb. Bu proses imperator I Nikolayın "Erməni vilayəti"nin yaradılması haqqında fərmanından sonra daha da güclənib. Nəticədə Azərbaycanın işğalından sonra on minlərlə erməni Dağlıq Qarabağa, İrəvana və Naxçıvana köçürülüb.

Təkcə 1828-1911-ci və 1914-1916-cı illərdə yüz minlərlə erməni İran və Türkiyədən Azərbaycana köçürülüb və bu proses sonralar da davam etdirilib. Materialda rus yazıçıları A.Griboyedov və N.Şavrovdan köçürülmə ilə bağlı sitatlar da gətirilir. Dərslikdə ermənilərin 1905-ci və 1907-ci illərdə, həmçinin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı soyqırımı törətdikləri bildirilir və bu qanlı hadisələr şərh edilir.

Materialda Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti haqqında da məlumat verilir. Müəlliflər Sovet İttifaqının süquta uğraması ərəfəsində ermənilərin Azərbaycana qarşı torpaq iddiaları qaldırdıqlarını qeyd edirlər. Sumqayıt hadisələrindən bəhs edilərkən bu iğtişaşın əsas təşkilatçılarından birinin erməni əsilli Qriqoryan olduğu vurğulanır.

Bundan başqa, yüz minlərlə azərbaycanlının Ermənistan ərazisindən - ata-baba torpaqlarından qovulması haqqında məlumat verilir, beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağı müstəqil Azərbaycanın tərkib hissəsi kimi qəbul etdiyi diqqətə çatdırılır. Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarında qanunsuz olaraq erməniləri məskunlaşdırdığı bildirilir, buna sübut kimi bəzi sənədlər göstərilir.

O da qeyd edilir ki, 2004-cü ilin oktyabrında BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndi özünün 59-cu sessiyasının gündəliyinə salmağı qərara alıb. Həmin ilin noyabrında Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə BMT Baş Məclisinə təqdim olunub. Eyni zamanda ATƏT-in faktaraşdırıcı missiyası işğal altında olan ərazilərə səfəri zamanı erməni əhalisinin qanunsuz olaraq bu torpaqlara köçürülməsi faktını təsdiq edib.

Dərslikdə habelə BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi dörd qətnamə, təşkilatın Baş Məclisinin müvafiq qətnamələri haqqında da məlumat verilir. Müəlliflər Ermənistanın beynəlxalq hüquq normalarına məhəl qoymayaraq işğalçı siyasətini davam etdirdiyini diqqətə çatdırır.




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Məhərrəm-səfər əyyamını yaşayırıq. Bu əyyamı daha yaxşı dərk etmək üçün, Kərbəla müsibətinə səbəb olan hadisələri təhlil etmək, İmam Hüseynin (ə) şəhid edilməsinə qədər gətirib çıxaran fəlakətli duruma bələd olmaq lazımdır. Bu hadisələr arasında təhlil baxımından ən mühümləri və ən acıları - Həzrət Peyğəmbərin (s) dünyasını dəyişməsindən bir qədər öncə və dərhal sonra cərəyan edən hadisələr, o cümlədən, Bəni-Səqifə fitnəsidir.**

# Kərbəla vaqiəsinin yarım əsrlik müqəddiməsi

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Nələr baş verdi...

Əziz İslam Peyğəmbərinin (s) rehləti, yəni vəfatı və ondan sonra baş verən hadisələr İslam tarixinin ən əhəmiyyətli və diqqətlə öyrənilməli, mütaliə olunmalı, ibrət götürülməli hadisələrindəndir. Bu hadisələrin əhəmiyyəti nədən ibarətdir? Bunu anlamaq üçün bir sıra müqəddimələr var ki, onlara diqqət edilməlidir. Əziz Peyğəmbərimizdən (s) sonra yaranan acı səhnələrin, İslam ümmətinin niyə parçalanmasının, nə səbəbdən İmam Əlinin (ə) mehrabda şəhid edilməsinin, İmam Həsənin (ə) zəhərləndirilib şəhid edilməsinin, İmam Hüseynin (ə) Kərbəlada şəhadətə yetirilməsinin, Əbazərin sürgün edilməsinin, Meysəm Təmmarın, Həbib ibn Məzahirin, Müslim ibn Övsəcənin, Hücr ibn Üdeyyin və digər görkəmli səhabələrin şəhid edilməsinin səbəblərini anlamaq üçün tarixin bu mərhələsinə, İslam Peyğəmbərinin (s) dünyadan getmə mərhələsinə səfər etmək lazım gəlir. Tarixin həmin anlarına ona görə qayıtmaqda fayda var ki, biz görək Həzrət Peyğəmbərin (s) vəfatına qədər nələr baş vermişdi və ondan sonra nələr baş verdi ki, müsəlmanlar arasında parçalanma, fitnə baş alıb getdi?

## Əgər İmam Əlinin (ə) vilayəti elan olunmasa idi...

Allah Təala insanı yaradıb, insana başqa varlıqlardan fərqli olaraq iradə, şüur, məsuliyyət, mükəlləfiyyətlik, öhdəlik daşıma kimi nemətlər verib. İnsanın necə yaşamasını, necə həyat sürməsini öyrətmək üçün Allah Təala 124000 peyğəmbər (ə) göndərib. Yekun olaraq, ümumiyyətlə məxluqatın yaranış fəlsəfəsi, səbəbi olan, aləmlərə rəhmət olan Həzrət Muhəmməd Mustafanı (s) məhbus edib ki, insanlara son olaraq necə yaşamağı, necə inkişafı, insan kimi necə yetişməni öyrətsin.

Bu gün bəhsimizdə Allah Rəsulunun (s) həyatının necəliyini, tarixini izah etmək istəmirik. Amma qısaca bunu diqqətə çatdırmaq lazımdır ki, Allah Rəsulu (s) Məkkədə ilk gündən acılı-ağrılı, işgəncəli günlər yaşamasına baxmayaraq, ona qarşı incitmələr, zülmlər, əziyyətlər edilməsinə baxmayaraq, öz İlahi missiyasından, İlahi tapşırığı yerinə yetirmək məsuliyyətindən bir addım da olsun belə, geriyə çəkilmir.

Sonra məşəqqətli hicrət dövrü başlayır. Məkkədən Mədinəyə (o zaman Mədinə Yəsrib adlanırdı) hicrət edir. Hicrət dövründə də o Həzrəti (s) hər tərəfdən düşmənlər - həm daxili, həm xarici - əhatə etsə də, Allah Rəsulu (s) yenə də öz missiyasını qüsursuz yerinə yetirir. Və artıq bir zaman yetişir ki, müsəlmanlar Mədinədə güc halına gəlirlər. Artıq İslam bir ovuc Allahpərəstin gizlincə riayət etdiyi mübarək bir təlim olmaq halından, onminlərlə ardıcılı olan, bəşəriyyətə yeni İlahi mesajı çatdıran mükəmməl institusional bir fenomen halınadək inkişaf edir. Artıq Həzrət Peyğəmbər (s) bir çox məsələləri, mətləbləri insanlara çatdırır. Nəhayət, növbə gəlir çatır sonuncu həcc ziyarətinə - "vida həcci"nə. Burada məşhur və tarixi Qədir-Xum hadisəsi yaşanır. Burada Əziz Peyğəmbərimizə (s) İlahi tapşırıq verilir ki, ondan sonra ümmətin rəhbərinin Həzrət Əlinin (ə) olacağını insanlara çatdırsın. **"Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz". ("Maidə" surəsi, 67-ci ayə)**

Məlum olur ki, əgər İmam Əlinin (ə) vilayəti elan olunmasa idi, sanki peyğəmbərlik məsuliyyəti icra edilməmiş qalacaqdı. Quran məntiqi deyir ki, İmam Əlinin (ə) canişinlik və vəsiliyi, Peyğəmbərimizdən (s) sonra xəlifə olması bəyanı edilməsəydi - din yarımçıq qalardı, İslam Peyğəmbəri (s) öz missiyasını natamam yerinə yetirmiş olardı.

Allah Rəsulu (s) da üzərinə düşən missiyanı həmişəki kimi şərəflə yerinə yetirir. Əziz Peyğəmbər (s) Qədir-Xum günü İlahi rəhbərliyi İmam Əlinin (ə) icra edəcəyini açıqlayandan sonra aydın olur ki, bununla din kamil hala gəlib çatdı və İslam dininin nemət olaraq tamamlanması ilə əlaqəli sonuncu nöqtəsi qoyuldu. **"... Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim. ...". ("Maidə" surəsi, ayə 3).**

Beləliklə, bu bəyanla - Peyğəmbərimizdən (s) sonra canişinlik missiyasını 12 İmamın (ə) daşıyacağı barədə Allahın buyururşu ilə İslam dini kamil və mükəmməl hala gəlir, məntiqi və sabit təlim olaraq Uca Allah tərəfindən təsdiq edilir.

## 23 ildən sonra Peyğəmbərsiz (s) ümmət

Burada biz çox dəqiq və İlahi hikmətlərlə dolu müqəddəs hadisələri görürük. Bu hadisədən sonra insanların cövhərləri ortaya çıxır. Burada artıq müsəlmanlar üçün yeni imtahanlar başlayır. Bundan sonra müsəlmanların bu imtahanlardan Peyğəmbərsiz (s) necə çıxması əsas məsələ olur.

Həzrət Peyğəmbərin (s) son günləridir, son anlarıdır, artıq dünyadan rehlət etmək anlarıdır. Çox təəssüflər olsun ki, həmin gündə çox acı müqəddimələr yer aldı. Bütün İslam tarixçiləri çox ciddi narahatlıq və ürək yanğısı ilə bu dövrü yada salırlar. Böyük İslam tarixçisi İbn Abbas Peyğəmbərin (s) dünyadan köçməsini nəql edən zaman belə bir müqəddimə verir: **"Cümə axşamı günü, amma necə dəhşətli bir cümə axşamı günü".**

Düzdür, İbn Abbasın bu cümləsinin bizim dilə tərcüməsi o narahatçılığı, o nigarançılığı və həssasiyyəti ifadə edə bilmir. Bunu da unutmamaq lazımdır ki, bunu hər hansı bir sıradan tarixçi demir, İbn Abbas deyir. Bu, həmin İbn Abbasdır ki, bütün dövrlərdə İslam tarixçiləri və təfsirçiləri içində ən mötəbər şəxsiyyətlərdən biridir. Və həmin İbn Abbas belə deyir: **"Cümə axşamı günü, amma nə yaman cümə axşamı günü".** Bu, həmin cümə axşamı günüdür ki, Allahın sonuncu Peyğəmbəri Muhəmməd Mustəfa (s) dünyaya vida deyir, yaxınları, əzizləri və Əhli-beyti (ə) ilə vidalaşır. Bu, həmin Peyğəmbərdir (s) ki, onun gəlişi ilə müsəlmanlar Quranı tanıyıblar, necə yaşamağı öyrəniblər. Bəs görəsən, həmin Peyğəmbərin (s) dünyadan rehlət etdiyi o son ləhzələr, anlar necə olub? Müsəlmanların bunu bilməyə haqları var.

## Ona itaət vacibdir

Bu, çox ciddi və ağrılı bir məsələdir ki, o son anlarında Rəsulullah (s) yanındakı bəzi insanlara "qumu" kəlməsi ilə müraciət edir. Yəni "yanımdan qalxın və gedin". "Qumu" sözü insanı yandırıb-yaxan sözlərdən biridir. Ona görə ki, bunu Məkkədə bütün əziyyətlərə qatlanan, Mədinənin bütün çətinliklərinə, məşəqqətlərinə sinə gələn Rəsuli-Əkrəm (s) deyir. Bu sözü Quran məntiqinə görə, itaəti vacib olan Allah Rəsulu (s) deyir. Bunu Quranın hökmünə görə, qadağalarından çəkinilməsi vacib olan Allah Rəsulu (s) deyir. Bu, həmin Allah Rəsuludur (s) ki, Quranın şəhadətinə görə, özündən heç nə danışmaz. Bu, həmin Allah Rəsuludur ki, Allah Təala onu bəşəriyyət üçün "usvətul-həsənə" ("ən gözəl nümunə") qərar verib. İndi həmin Allah Rəsulu (s) dünya ilə vidalaşan zaman, onu incitdikləri üçün yanında olan bir neçə insana "Mənim yanımı tərk edin", "Mənim yanımdan qalxın" deməyə məcbur olur.

Bu, bir həqiqətdir və müxtəlif tarix kitablarında demək olar ki, ümumi qəbul edilən bir hadisədir ki, o cümə axşamı günü həmin acı hadisə baş verib. Düzdür, bunu hərə bir formada çatdırır, amma müxtəlif formalarda deyilməsinə rəğmən, ümumi mahiyyəti budur ki, əziz Peyğəmbərimiz (s) üzünü onlara tutub buyurur: "Mənə kağız-qələm gətirin. Sizin üçün bir mətləb yazım ki, ondan sonra heç vaxt yolunuzu azmayasınız". Bunu Allah Rəsulu (s) deyir və bu, həmin Allah Rəsuludur (s) ki, bir ömrünü həmin insanların insan şəklinə düşməsi üçün həsr edib, bir ömrünü mübarək İslam məktəbində şagirdlərin yetişdirilməsinə həsr edib. Bu, həmin Rəsuldur (s) ki, bir an olsun belə ümmətin aqibətinə, durumunun necə olacağına laqeyd qala bilməyib. İndi həmin Rəsul (s) buyurur ki, mənə kağız və mürəkkəb gətirin ki, sizin üçün bir mətləb yazım ki, bundan sonra heç vaxt azmayasınız. Bu, çox təsirli və ibrət götürməli səhnədir. Allah Rəsulu (s) dünyadan getməyə hazırlaşır. Bununla bəşər bir yeni tarixi mərhələyə qədəm qoyacaq. Artıq yüz iyirmi dörd min peyğəmbər (s) gəlib, öz missiyasını yerinə yetirib. Artıq bəşər bundan sonra Peyğəmbərlə (s) yaşamayacaq. Ona görə də sonuncu Peyğəmbər (s), Allahın sonuncu Elçisi (s) bir həqiqəti bir daha yazılı şəkildə qeyd etmək istəyir ki, ondan sonra müsəlmanlar yollarını azmasınlar.

## Qurani-Kərim hökmünə qarşı davranış...

İslam tarixçilərinin əsərlərində Rəsuli-Əkrəmin (s) bu tələbindən sonra, onun kağız-qələm istəməsindən sonra ağlasığmaz hadisələrin baş verməsi öz əksini tapıb. Peyğəmbərimizin (s) özündən sonrakı durumla bağlı bir daha - bu dəfə yazılı formada - bəyan etməsi, birilərində dərin narahatlıq yaradır. Bunu yada salmaq nə qədər çətin olsa da, müsəlmanlar öz tarixləri ilə bağlı olan, bugünkü durumlarına birbaşa aidiyyəti olan bu hadisəni dəqiq bilməli və anlamalıdırlar ki, ümmətin sonrakı tənəzzülünün səbəbləri ilə tanış olsunlar.

Peyğəmbərimizin (s) kağız-qələm tələbinə biriləri etiraz etdi və ən yüngül redaksiyada, belə bir cümlələr işlətdilər: **"Ağrı Peyğəmbərə (s) üstün gəlib, Quran olan yerdə başqa şeyə ehtiyac yoxdur" (nəuzubillah!).** Əksər mötəbər İslam tarixi kitabları qeyd edir ki, deyiliş forması bundan xeyli dərəcədə ehtiramsız olub. Amma hər hansı formada deyilməsindən asılı olmayaraq, mahiyyət etibarilə bu cümlələrin fərqi yoxdur və istənilən halda çox acı durumdan xəbər verir. İstənilən halda Qurani-Kərim Peyğəmbərə (s) itaət etməyi insanlara vacib buyurduğu bir halda, aşkar surətdə o Həzrətin (s) sözündən çıxmaq və ona müxalif bir ifadələr işlətmək - böyük günahdır. Bu, Qurana qarşı çıxmaqdır. Təəssüflər olsun ki, Allah Rəsulunun (s) o qədər əziyyəti qarşılığında, ona itaətlə bağlı Quranın hökmlərinin qarşılığında bəziləri bu cümlələri işlətməyi özlərinə rəva bilirlər və bununla da müsəlman ümmətinin içinə fitnə düşür. Allahın sonuncu Rəsulu (s) dünyadan getməmiş, artıq fitnələr başlayır və İslam ümmətinin parçalanması üçün zəminlər yaranır.

## Ondan sonra ümmət yolunu azmasın

Təəssüflə qeyd edək ki, Allah Rəsulunu (s) belə incitmək, onun sözünün qarşısında söz gətirmək təkcə həmin gün təkrar olunmayıb. Daha öncələr də bəzilərində şəkk-şübhələr müşahidə olunmuşdu. Hətta belə davranışlara görə Allah Təala Quran ayəsi nazil edib və bununla onlara xəbərdarlıq edib. Əslində biz görürük ki, müxtəlif tarixi şəraitlərdə bir qrup insan faktiki olaraq deyirmiş ki, Rəsulallah (s) gəldi, İlahi dini gətirdi, dünyadan gedəndən sonra biz nə istəyirik, onu da edə edəcəyik. Bu, müxtəlif vəziyyətlərdə özünü büruzə verdirib. Amma bunun ən ciddi forması həmin o cümə axşamı olub ki, biz də ona işarə etdik.

Bir məsələyə də diqqət etmək lazımdır ki, Allah Rəsulunun (s) "Məndən sonra azmayasınız" məzmundakı cümləsi təkcə həmin tarixi cümə axşamı günü deyilən cümlə deyil. Əksinə, Allah Rəsulunun (s) bütün ömrü boyu, İlahi missiyasını həyata keçirdiyi ilk gündən axırıncı günə qədər diqqəti bunun üzərində olub ki, dində olmaq, Allah yolunda yaşamaq onun mübarək şəxsiyyəti ilə bitmir. Hər zaman, müxtəlif şəraitlərdə və məkanlarda İlahi rəhbərliyin İmam Əliyə (ə) tapşırıldığını ümmətə çatdırır. Hər zaman bu cümlə müxtəlif şəraitlərdə təkrarlanır ki, bunu bütün mötəbər İslami mənbələr, kitablar təsdiq edib. Məsələn, bu, hamı tərəfindən qəbul olunan məsələdir ki, Allahın sonuncu Rəsulu (s) buyurub: **"Mən sizin yanınızda elə 2 qiymətli əmanət qoyuram ki, əgər ona arxalansanız, heç vaxt yolunuzu azmayacaqsız. Bu, Allahın Kitabı və Mənim itrətim - Əhli-Beytimdir".** Yəni diqqət etsək, görürük ki, əziz İslam Peyğəmbəri (s) istər ömrünün son anlarında, istərsə də ondan qabaq - hər an ümmətin o durumunu fikirləşib ki, ondan sonra yollarını azmasınlar. Və bunun üçün də əbədiyaşar, dinamik resept qoyub. Bu, İlahi kitab olan Qurandan və Quranı həqiqi yaşadan, Qurana həqiqi açıqlama verən, ümmətə rəhbərlik edə bilən Əhli-Beytdən (ə) yapışmaqdan ibarətdir. Yəni ümmət bu iki həqiqətdən eyni anda yapışsa, yolunu azmayacaq.

Lakin təəssüflər olsun ki, Rəsulun (s) vəfatından sonra "Bəni-Səqifə" hadisəsi baş verir. Aydın olur ki, ümmətin içində çoxlu insanlar var ki, İlahi xəlifəliyin İlahi bir missiya olmasını qəbul etməyiblər. Və ən ağrılı məsələ budur ki, İmam Əli (ə) və digər dəyərli səhabələr Həzrət Peyğəmbəri (s) son mənzilə yola salmağa məşğul olduqları zaman, biriləri "Bəni-Səqifə"də hakimiyyət bölüşdürür, vəzifə əla alırdılar. Bununla da İslam ümmətinin irəlidə başına gələcək fəlakətləri üçün bir dəqiq tarixi zəmin yaradırdılar.

Məhz əsası həmin günlərdə qoyulmuş fitnələrə görə sonralar Həzrət Zəhraya (s.ə) qarşı ağlasığmaz haqq pozuntuları törədilir, İmam Əli (ə) mehrabda şəhid edilir, İmam Həsən (ə) zəhərləndirilir, Kərbəlada İmam Hüseyn (ə) və Hüseynçilər doğram-doğram edilir, Həzrət Zeynəb (s.ə), İmam Səccad (ə), Peyğəmbərimizin (s) nəvə-nəticələri zəncirlənir, əsir kimi şəhər-şəhər gəzdirilir. Bu fitnələrdən Uca Allaha pənah aparırıq.

**Allahım, bizləri Həzrət Peyğəmbərin (s) və Əhli-Beytinin (ə) həqiqi ardıcıllarından olmaq səadətini nəsib et.**

**Allahım, Zəmanə Sahibinin (ə.f) zühurunu təcil et və bizi onun zühurunu tezləşdirənlərdən qərar ver. Amin!**

# Göygöl rayonunda qalmaqal

## Müdirindən şikayət edən YAP üzvünü ölümlə hədələdilər

### “ƏDİRƏF” MMC-nin sahibi Fəridə Allahverdiyeva: “Onun basıb gözünü çıxararam, boğub öldürərəm”




**Göygöl rayon Mədəniyyət və Turizm Şöbəsində məsləhətçi vəzifəsində çalışan YAP üzvü Şahin Məmmədov korrupsiya əleyhinə çıxdığı üçün vəzifəsindən azad olunub. İndiyə qədər dəfələrlə aidiyyəti orqanlara müraciət etməsinə baxmayaraq, hakim partiya üzvünün şikayətinə baxılmayıb.**

Bu barədə musavat.com-a danışan Şahin Məmmədov başına gələnləri belə nəql edib: “Göygöl Rayon İcra Hakimiyyəti bilərəkdən rayonun Mədəniyyət və Turizm Şöbəsinin müdiri Şərqiyyə Hümbətovanın qanunsuz fəaliyyətini ört-basdır edir. Korrupsiya faktları barədə müraciətlər etdiyimə, dövlət büdcəsindən ayrılan vəsaitlərin bədxərcliklə xərcləndiyini bildirdiyimə, dövlət mənafeyini müdafiə etdiyimə görə Ş.Hümbətovanın heç bir qanuna əsaslanmayan, şər-böhtanla dolu təqdimatı əsasında 17 iyul 2014-cü ildə mədəniyyət və turizm nazirinin əmri ilə dövlət qulluğuma xitam verildi. Bir dəfə də olsun xəbərdarlıq almamışam”.

**Şikayətçi deyir ki, bununla bağlı Maliyyə Nazirliyinə müraciət edib. Cavab aidiyyəti üzrə icra hakimiyyətinə göndərilib:** “Həmin müraciət əsassız hesab olundu. Deməli, ölkədə korrupsiyaya qarşı aparılan mübarizə əsassızdır? Bilərəkdən korrupsiya faktlarının üzərindən keçilir.

Şərqiyyə Hümbətova oğlu Ceyhun Hümbətovu rayonun Gənclər və İdman İdarəsində məsləhətçi vəzifəsinə təyin etdirib. O, tarix fakültəsini bitirib. Onun oğlu olduğu üçün heç bir imtahan vermədən həmin vəzifəni tutub. Bütün bu hallara icra hakimiyyəti susur".

**Şahin Məmmədov bildirir ki, Göygöl rayon İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyinin baş mühasibi Fəridə Allahverdiyeva, həm də “ƏDİRƏF” MMC-nin sahibidir:** “"ƏDİRƏF" MMC rayonun Mədəniyyət və Turizm Şöbəsi ilə daim alqı-satqı müqavilələri imzalayır. Həmin müqavilələrdə bilərəkdən qiymətlər artıq yazılır. Dövlət vəsaiti israf edilir. Bildiyiniz kimi, Dövlət Qulluğu haqqında qanuna görə, dövlət qulluqçusu sahibkarlıqla məşğul ola bilməz. Bütün bunları ifşa etdiyim üçün vəzifədən azad edildim".

**Şikayətçi Şərqiyyə Hümbətova tərəfindən məhkəməyə verildiyini də qeyd etdi:** “Hümbətova məni xüsusi ittiham qaydasında məhkəməyə verib. Səbəb KİV-də ona rüşvətxor deməyimdir. Hazırda proses gedir. Nəticəni bilmək olmaz. Mənə qarşı irəli sürülən ittihamın geri götürülməsi ilə bağlı vəsatət verməmişəm”.

**Şikayətçinin sözlərinə görə, Ş.Hümbətova “Təzadlar” qəzetinə verdiyi müsahibədə onun barəsində “dəli, psixdir. Başı çatmır” ifadələrini işlədib:** “Mən də məhkəməyə vermişəm. Hazırda **Şərqiyyə** Hümbətova müraciətlərimi davam etdirdiyimi görüb, məni birdəfəlik susdurmaq üçün barəmdə Azərbaycan Respublikasının CM-nin 147 və 148-ci maddələri ilə cinayət işinin açılması üçün məhkəmədə iddia qaldırıb”.

“Ş.Hümbətova mənə bildirir ki, iddiasını bir şərtlə geri götürə bilər. Gərək mən onun barəsində etdiyim çıxışlarla bağlı təkzib verəm və işə bərpa olunmağımla bağlı verdiyim məhkəmə iddiasını geri götürəm. Bilir ki, məni əsassız olaraq işdən azad etdirib. Mənə atdığı şər-böhtana görə cavab verməli olacaq. İşçilərə təzyiq edib əleyhimə akt yazdırması üzə çıxacaq. Necə olur ki, məzuniyyətə çıxarkən özü mənə mükafat yazır, məzuniyyətdən qayıdan kimi, işdən azad edilməyimə çalışır? Məzuniyyətdə olan birisi necə oldu ki, verilən tapşırıqları yerinə yetirmədi” - deyə o, sual edir.

**Şahin Məmmədov aidiyyəti orqanlara səslənib:** “Qəzetiniz vasitəsilə dövlət qurumlarına müraciət edirəm. Cənab prezidentin korrupsiyaya qarşı apardığı mübarizəyə dəstək olduğum üçün, bu qədər təzyiqlərə məruz qalıram. Bu qədər haqsızlıq olmaz. Göstərilən faktlara baxılsın. Bu faktdır. Nə vaxtadək Ş.Hümbətova cəzasız qalacaq? Mənim başıma gətirilən hadisələrdən xəbərdar olan heç bir dövlət qulluqçusu korrupsiyaya qarşı mübarizə aparmayacaqdır”.

Yazıda adıçəkilən şəxslərin də mövqeyini öyrəndik.

**Şərqiyyə Hümbətova barəsində səsləndirilən ittihamların şər-böhtan olduğunu bildirdi:** “Bu barədə ”Təzadlar"a fikrimi demişəm. Yazılanların hamısı böhtandır. Onun şikayəti əsasında nazirlikdən yoxlama gəlib. Bütün aidiyyəti orqanların yoxlaması aparılıb. Günahım olsaydı çoxdan cəzamı alardım. Günahkar Şahinin özüdür ki, işdən azad olunub. Onun dedikləri yalandır. Onun yazdıqlarının heç biri öz təsdiqini tapmayıb".

**Yazıda adıçəkilən digər şəxs Fəridə Allahverdiyeva Şahin Məmmədovu tanımadığını və onun adını hallandırdığına görə şikayətçini hədələdi:** “Onu tanımıram. Əlimə keçsə, boğub yerə vuraram. Onu axtarıram. Məni haradan tanıyır ki, haqqımda boş-boş danışır. Onun Şərqiyyə ilə prinsipi var. Bunun mənə nə dəxli? Heç salamım belə yoxdur. Adamın boğazını üzərlər. Onun basıb gözünü çıxararam”.

❑ **Cavanşir ABBASLI**

# Bakı sakini “Azəryolservis”dən şikayətçidir

## Səid Kərimov: “Müraciətlərimə məni hədələməklə cavab verirlər...”

**Bakı sakini Səid Kərimov “Azəryolservis”dən şikayətçidir. Redaksiyamıza təşrif buyuran vətəndaş şikayətinin nədən qaynaqlandığına aydınlıq gətirdi. Onun dediyinə görə, Bakının Xəzər rayonu, Qala qəsəbəsi - 46 ünvanında yerləşən Metallurgiya Dövlət Şirkətinin Sınaq Təcrübə Bazası özəlləşdirildikdən sonra onun yerində Qala STB ATSC yaradılıb və o, STB ATSC-yə məxsus səhmlərin 15 faizini Depozit Mərkəzindən 2007-ci ildə rəsmi surətdə alıb:**

“Bakıətrafı ”Dairəvi yolun" tikintisini həyata keçirən “Azəryolservis” ASC-nin Layihə İşçi Qrupu STB ATSC-yə məxsus özəl zavodu dövlət ehtiyacları üçün sökdü. Ancaq mənə bir manat belə pul ödənilmədi".

**Şikayətçi “Azəryolservis”ASC tərəfindən haqsızlıqla üzləşdiyini söylədi:** “Bu işləri həyata keçirən ”Azəryolservis" ASC-nin Layihə İşçi Qrupunun əməkdaşları, yazılı müraciətlərimə telefonla məni hədələməklə cavab veriblər. Yəqin ki, bu işlərdə səlahiyyətli şəxs olan İşçi Qrupunun səlahiyyətli əməkdaşlarından biri Faiq adlı şəxsin rolu böyük olub. Buna görə onlara ünvanlanan müraciətlərə yazılı cavab vermək əvəzinə, Faiq mənimlə etinasız surətdə telefonla danışığa üstünlük verib. Həmin əməkdaş bu işləri həyata keçirən səlahiyyətli Layihə İşçi Qrupunun əməkdaşıdır. Necə olur, bu şəxs olmayan əmlaklara pul ödənilməsi üçün layihə tərtib edib və pul ödənilir, ancaq dövlət qurumundan aldığım 15 faiz payı mənə ödəməkdən imtina edərək, mənim konstitusiya hüquqlarımı pozur?"

Şikayətçi bu haqda aidiyyəti qurumlara müraciət etsə də, nəticə əldə edə bilmədiyini söylədi və qəzetimiz vasitəsilə prezidentə müraciət edərək ona çatası 15 faiz payın pulunun ödənilməsinə yardımçı olmağı xahiş etdi.

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ **Günel MANAFLI**

# Ali Məhkəmədən prezidentə şikayət olundu

## Paytaxt sakini Adilə Qasımova deyir ki, ata evi qanunsuz olaraq özəlləşdirilib və məhkəmə öz “maraqları” naminə qarşı tərəfi müdafiə edir

**Bakı sakini Adilə Qasımova prezidentə “Yeni Müsavat” vasitəsi ilə müraciət edib. Vətəndaşın sözlərinə görə, paytaxtın Hüsü Hacıyev küçəsi, mənzil 7 ünvanında atasına məxsus evi olub. Şikayətçi deyir ki, atasına aid mənzil qanunsuz olaraq özəlləşdirilib.**

Bu özəlləşdirməni A.Qasımovanın qardaşı oğlu Telman Qasımov həyata keçirib. Rusiya vətəndaşı olan T.Qasımov uzun müddətdir ki, Buryatiya Respublikasında yaşayır. O, 1999-cu ildə Azərbaycandan gedib və bu müddət ərzində ölkədə olmayıb.

2011-ci ildə, atasının vəfatından üç gün qabaq Səbayel Rayon Polis İdarəsinin qeydiyyat şöbəsində bir gün ərzində şəxsiyyət vəsiqəsi alıb və iki günə evi özəlləşdirib. A.Qasımovanın sözlərinə görə, vərəsəlik hüququ var və onun öz payından imtina etmədiyi halda qardaşı oğlu qanunsuz şəkildə əmlakı özəlləşdirib. Şikayətçi qeyd etdi ki, qardaşının vəfatından sonra bütün bunlardan xəbər tutub:

“Mən o evdə anadan olmuşam. Atamın evində vərəsə kimi payım var və bu, qanunda göstərilib. Ancaq qardaşım oğlunun etdiyi qanunsuz hərəkəti məhkəmələr də davam etdirirlər. Məhkəmələr onu müdafiə edirlər.

Biz bu məsələni biləndən sonra Səbayel Rayon Məhkəməsinə müraciət etdik. Məhkəmə işi 1 saylı İqtisadi İnzibati Məhkəməyə göndərdi. Orada işə səthi baxılıb və Telman Qasımovun lehinə qərar çıxarıb. Qardaşım oğlu iki gün ərzində Daşınmaz Əmlakın Reyestr Xidmətindən “kupça” alıb. Sonra apelyasiya şikayəti verdik, qərar isə dəyişməz qaldı".

A.Qasımova deyir ki, Ali Məhkəməyə üz tutub: “Hakim Azər Hüseynov işə baxmalıydı. Məhkəmə prosesi oktyabrın 20-nə təyin etmişdi. Bizə isə bildiriş noyabrın 1-də poçtalyon gətirib mənə verib. Bu da hakimin saxtakarlığıdır. Biz əvvəlcə elə güman elədik ki, bu, texniki səhvdir. Vəkilim order və etibarnamə əsasında hakimin yanına getdi.

Hakim vəkilə çox kobud şəkildə cavab verib. Deyib ki, mən heç kimdən qorxmuram, mən belə işləyirəm, kimə istəyirsən get şikayət elə. Deyib ki, burda mənim maddi marağım var, heç kəsdən də çəkinmirəm. Artıq hakim açıq şəkildə qanunsuzluq edir. Bundan sonra Ali Məhkəmənin Plenumuna şikayət verəcəyəm".

A.Qasımova prezidentə müraciət edərək hakimin cəzalandırılmasını xahiş etdi.

Yazıda adı keçən tərəflərin də mövqeyini dinləyib, dərc etməyə hazırıq.


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**








**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


**Başsağlığı**

**Müsavat Partıyası Naxçıvan Muxtar Respublikası təşkilatı partiya üzvü**
**Saleh Haqverdiyevin**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

***

**«Köşk Press» Yayım Şirkətinin rəhbərliyi və çoxsaylı kollektivi Ramin Bədəlova əzizi, ehtiyatda olan polkovnik-leytenant**
**Bədəlov Elşad Abbas oğlunun**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

Yeni MÜSAVAT
Son səhifə 6000



# 40 il fasilədən sonra müəlliməlik etdi

Böyük Britaniya sakini Enni Merfi təhsil həyatına 40 illik fasilədən sonra qayıdıb. Lenta.ru saytının yaydığı xəbərə görə, bu günlərdə 101 yaşlı qadın 30 nəfər işsizin qarşısında öz həyat motovasiyası ilə bağlı mühazirə söyləyib. Merfi mühazirə iştirakçılarına eyni zamanda 19-cu ərsin əvvəlində Böyük Britaniyada şaxtaçıların etiraz aksiyası, Nelson Mandelanın azadlıq və qadınların bərabər hüquqları barədə gördüyü işlərdən danışıb. Merfi təqaüdə çıxan andan etibarən tək yaşayıb. Bu ilin sentyabr ayından Qocalar Evinə yerləşən qadın lə orda da mühazirələrini oxuyub: “Bu yer mənim üçün idealdır. Burada kino, gözəllik salonu və kafe var”.

Qocalar Evinin sahibi Deb Karter deyib ki, auditoriya yaşlı qadının mühazirəsindən zövq alıb. Çoxları üçün bu, ikinci nəfəs xarakteri daşıyıb.

Enii Merfi 1913-cü ildə dünyaya gəlib. 1918-ci ildə təhsil həyatına başlayıb. Müəllimlik karyerasına 1932-ci ildə, Norveçdəki bir kollecdə başlayıb, 1973-cü ildə isə təqaüdə çıxıb. Onun yeganə oğlu Merfi Con isə Minnesotedə yaşayır.

# Kolanı tərgitdi, 60 kilo arıqladı

İngiltərənin Birmingem şəhərində yaşayan Lisa McKay (24) son günlərə qədər gündə tam 20 qutu Cola içirdi. Gecə 4-də yuxusundan oyanaraq Cola içməyə başlayan McKayın bu asılılığı ucbatından 120 kiloya qədər kökəlmişdi. Çəkisi ucbatından təyyarədə iki nəfərlik oturacaq bileti satın almaq məcburiyyətində qalan, getməkdə çətinlik çəkməyə başlayan gənc qadın mədəsinə qandal taxdırıb. Kilolarından xilas ola bilmək üçün əməliyyat olduğunu söyləyən McKay deyib ki, “əməliyyatdan sonra evə kola alınmasını qadağan etmişəm. Kola içməyi tərgidəndən sonra həftələrlə əllərim titrədi. Gənc qadın kola içdiyi dövrlərdə daha çox acdığını, artıq belə bir problemi də qalmadığını ifadə etdi.



# İnsanları 120 il yaşadacaq dərman tapıldı

Rusiyalı alimlər hazırladıqları bir dərman nəticəsində insanların 120 yaşına qədər yaşamasının mümkün olduğunu açıqlayıb. Türkiyənin “Hürriyyət” qəzeti yazıb ki, Moskva Dövlət Universitetindən doktor Maksim Skulaçev və heyəti yeni bir antioksidan növündən istifadə və inkişaf edərək hazırladıqları həbs sayəsində insan ömrünün uzanacağını iddia edib. Alimlər bildiriblər ki, bu antidoksanın əsas vəzifəsi bioloji enerjinin təmin edilməsi, infarkt və alzheimerlə bağlı mikroelementlərə müsbət təsir göstərməkdir. Qocalma müddətini yavaşlatdığı iddia edilən bu formul siçanlar, balıqlar və itlər üzərində də sınaqdan keçirilib.

Skulaçev deyib ki, formul sayəsində heyvanlarda yaşlılıqla bağlı bir çox xəstəlik çox yavaş ortaya çıxır. Alim deyib ki, başqa araşdırmalar da müsbət nəticə verərsə, “yaşlılıq təxirə salınacaq”. Amma Skulaçev 800 yıl yaşamanın mümkün ola biləcəyinə inanmadığına, böyük ehtimalla gələcəkdə yeni xəstəliklərin ortaya çıxacağını deyib.





# Yaşlılara 10 min avroluq robot dayə

Avropa Birliyi yaşlı insanların sayının artması, onlara qayğı məqsədilə yeni robotların hazırlanması layihəsini dəstəkləyir. Bu layihə çərçivəsində hazırlanan robotlar yaxın bir neçə ildə evlərdəki yerini alacaq. Təkərli və “yarı insan” robotlar xəstələrə dərmanlarının vaxtını xatırladacaq, onlarla birgə gəzintilərə çıxacaqlar. Robot qayğısına qaldığı yaşlı insanın səhhətində nəsə bir problem baş qaldırarsa, dərhal Təcili Yardıma zəng vurub, yardım da istəyə biləcək. Finlandiya, Fransa, Yunanıstan, İtaliya, Hollandiya, İsveçrə və İngiltərənin də qatıldığı layihə üçün ümumən 2.75 milyon avroluq büdcə təsdiqlənib. Robot yaşlı insanın dərman, qidalanma və digər vərdişlərini öyrənib, özünü ona uyğun proqramlaya bilir. Prototip MOBI-SERV robotları hazırda 10 min avro qiymətindədir. Amma kütləvi istehsal halında qiymətlər yarıya qədər azalacaq.




**QOÇ** - Ümumi çalarlarına görə, olduqca uğurlu təqvimdir. Sadəcə olaraq görəcəyiniz işlərin vaxtını düzgün bölməlisiniz. İşgüzar sövdələşmələr üçün də perspektivli ərəfədir.

**BUĞA** - Qarşılıqlı münasibətlər zəminində, xüsusən də sevgi davranışlarında ifrat ciddilik göstərməyin. Bu, sizə qarşı rəğbəti azalda bilər. Fiziki işlərlə az məşğul olun.

**ƏKİZLƏR** - Təxminən saat 14-ə qədər ümumi vəziyyətinizdə gərginlik müşahidə olunacaq. Göstərilən müddətdə müqəddəs ziyarətgahlara baş çəkməyə dəyər. Sonrakı saatlarda qazanmaq ehtimalınız var.

**XƏRÇƏNG** - Səhhətinizlə bağlı bəzi xoşagəlməzliklər mümkündür. Bu səbəbdən də özünüzü soyuqdan, yuxusuzluqdan və siqaretdən qorumalısınız. Aldığınız təkliflərə tələm-tələsik razılıq verməyin.

**ŞİR** - Yalnız fəaliyyət sahəsində uğurlarınız mümkündür. Yeni və maraqlı təkliflər alacağınız da istisna olunmur. Ailə və qonşuluq münasibətlərində isə mübahisəli situasiyalara cəlb oluna bilərsiniz.

**QIZ** - Ümumi vəziyyətinizin gərgin olacağını xəbərləyən ulduzlar iş yerində, eləcə də qohumluq-qonşuluq əlaqələrində mülayim olmağı tövsiyə edir. Sağlıq durumunuzu diqqətdə saxlayın.

**TƏRƏZİ** - Sağlamlıqla bağlı problemləriniz gözlənilir. Qida rejiminə riayət edin. Daxili orqanlarınızın halına yanın. Səhhətinizə zərərli olan fiziki və psixoloji işlərdən uzaq olun.

**ƏQRƏB** - Hər hansı xoşagəlməzliklə rastlaşacağınızı düşünməyin. Çünki Göy qübbəsi hər mənada yardımçınız olacaq. İstər işdə, istərsə də qarşılıqlı əlaqələrdə təşəbbüskarlığı əldə saxlayın.

**OXATAN** - Sürprizlər yolunuzu gözləyir. Çox güman ki, bir neçə sevindirici xəbər də eşidəcəksiniz. Üstəlik, nə vaxtdan bəri kasad olan şəxsi büdcəniz də normal hala düşməlidir.

**OĞLAQ** - Mistik gündür. Daxili səsiniz, o cümlədən ruhi qüvvələr mövcud sıxıntılarınızdan çıxış yolu göstərməyə çalışaq. Saat 16-dan sonra istənilən mübahisədən yayının.

**SUTÖKƏN** - Ulduzlar daha çox gəzinti və səyahətlər üçün uğurlu məqam olduğunu bildirir. Heç kimə yalan vəd verməyin. Sözünüzün ağası olun. Nahardan sonra uzaq səfərə çıxmaq olar.

**BALIQLAR** - Şəxsi işlərinizdə müsbət dönüş ərəfəsindəsiniz. Odur ki, hər bir qərarı çıxarmazdan əvvəl yüz yol ölçüb-biçməlisiniz. Saat 15-17 aralığını sevgi amilinə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Kişilər qadınlardan daha çox yalan danışır



Kişilər qadınlardan daha çox yalan danışmağa meyllidirlər. Bu, gözlənilməz fakt Böyük Britaniyada aparılmış rəy sorğusu gedişində məlum olub. 3 min respondent arasında aparılmış sorğunun nəticələrinə əsasən ingilis tədqiqatçılar müəyyən ediblər ki, kişilər gündə 3 dəfə, ildə 1092 dəfə yalan danışır. Qadınlar isə gündə 2 dəfə, ildə 728 dəfə yalan danışır. Həm qadınlar, həm kişilər daha çox öz analarını aldadırlar. Rəyi soruşulan kişilərin 4\1-i qeyd edir ki, ən çox analarını aldadıblar. Qadınlar arasında isə bu rəqəm 20 faiz təşkil edir. Rəyi soruşulanların cəmi 10 faizi öz ər və ya arvadlarına yalan danışdıqlarını deyiblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU
Lisenziya N: B 114
SAYI: 5.400